
MƏN BİR EŞQ
BÜRCÜNDƏNƏM
AYNUR QAFARLI

Copyright © 2026 by SEM publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of
SEM Publishing House®
(The Licence Number of Publicator: 2019/78643)
AZERBAİJAN AZ: +994 77 331 98 24
USA: +1 631 685 0 853
E mail: sempublhouse@gmail.com
www.sempublishing.az

It is responsibility of the author to abide by the publishing ethics rules.
SEM Publications – 2026©

**ISBN: 979-8-89695-36 2-3**

Cover Design:  Dr. Alvan Jafarov
Mart / 2026
Baku / Azerbaijan
Size = 16x24cm

**AYNUR QAFARLI**

# Mən bir eşq bürcündənəm

**"SEM Beynəlxalq Yayın Evi"**
**Bakı - 2026**

**ISBN: 979-8-89695-362-3**

Sözə, fikrə və poetik düşüncəyə qiymət verməyi bacaran dəyərli ________________________________________

**Dərin hörmətlə müəllifdən söz hədiyyəsi**

" ____" _____________202____ _____________

**Redaktor**: **Mahirə Nağıqızı**
Prezident təqaüdçüsü,
filologiya üzrə elmlər doktoru, professor

**A.A.Qafarlı** (*pedaqogika üzrə fəlsəfə doktoru*)
Mən bir eşq bürcündənəm. (Təkrar nəşr)
Bakı, "SEM Beynəlxalq Yayın Evi", 2026, 324 səh.

*"Mən bir eşq bürcündənəm" kitabı Aynur Qafarlının oxucularla üçüncü görüşüdür. Kitaba daxil edilən şeirlər mövzu və ifadə əlvanlığı, orijinal düşüncə tərzi ilə diqqəti cəlb edir və geniş məna tutumuna malikdir. Həyat lövhələri, poetik söz oynatmaları, ictimai-fəlsəfi yük yazarın sözə məsuliyyətlə yanaşmasından və uğurlu gələcəyindən xəbər verir.*

**© A.A.Qafarlı, 2026**

4702000000 / qrifli nəşr

N-98-2026

**ISBN: 979-8-89695-362-3**

# Gəlin söhbət edək,
# ruh adamları

***Aynuram, hər kəsə çoxdur rəğbətim,***
***Saflığa köklənib arzum, niyyətim.***
***Deyirlər şirindir sözüm, söhbətim,***
***Gəlin söhbət edək, ruh adamları.***

## SALAM OLSUN

Uca Rəbbin adıyla
Sizlərə salam olsun.
Sadə, mehriban, gözəl
Üzlərə salam olsun.

Böyüklü, həm uşaqlı,
Xanəndəli, aşıqlı,
Günəş kimi işıqlı
Gözlərə salam olsun.

Xoş günlərdə atlanan,
Quş kimi qanadlanan,
Dilimizdə dadlanan
Sözlərə salam olsun.

Səsimiz haqqın səsi,
Alqışlayaq hər kəsi.
Aynuram, əqidəsi
Düzlərə salam olsun.

*10 yanvar 2020-ci il*

## HARA GEDİR BU DÜNYA?!

Sanki bezib canından
Hara gedir bu dünya?!
Bir ömrün limanından
Hara gedir bu dünya?!

Qəhərini boşaldıb,
Zəhərini boşaldıb,
Yəhərini boşaldıb,
Hara gedir bu dünya?!

Qaranlıqdır sabahım,
Nədir mənim günahım?
Hara gedir, Allahım,
Hara gedir bu dünya?!

Bu dərdi kimdən alıb,
Meylini hara salıb?
Aynur məəttəl qalıb,
Hara gedir bu dünya?!

*6 sentyabr 2021-ci il*

## QUMARDI DÜNYA

Elə mənim kimi sərxoşdu, süstdü,
Elə mənim kimi xumardı dünya.
Bir gün başımıza dəyən qapazdı,
Bir gün saçımızda tumardı dünya.

Dinsə, nələr deyər bu dağ, bu dərə,
Şükür səmadakı min-min ülkərə.
Üstündə olsaydı başı bir kərə,
Fikir dəryasına cumardı dünya.

Bəxti pas atıbdır, çərxi dolanmır,
İstəyir, amma ki xoşbəxt olammır,
Loğmanlar dərdinə çarə bulammır,
Sağala bilmir ki, bimardı dünya.

Baxma şirin dilə, uyma toyuna,
Sən ağıllı qızsan, qurban boyuna,
Aldanıb yalandan girmə oyuna,
Aynur, bilirsən ki, qumardı dünya!

*27 aprel 2023-cü il*

## DÜNYA

Qocaman dünyasan, milyon ildir ki
Hələ də bilmirsən yerini, dünya.
Mən sənə eləsəm, göyə çıxarsan,
Mənə etdiyinin birini, dünya.

Min cürə üzün var, min cür təhərin,
Tamaha tələdir barın, bəhərin.
Get, o balın, o sən, o da zəhərin,
Məndən uzaq elə şərini, dünya.

Sevinci gölməçə, qəmi nəhr etdin,
Qatla barmağını – kimə mehr etdin?
Əcəlmi apardı, sənmi qəhr etdin?
Xatırla ölünü, dirini, dünya.

Aldadıb çoxunu tutdun tumara,
Şahları, xanları etdin avara.
Gözucu baxmaram dövlətə, vara,
Götür qızılını, zərini, dünya.

Haqqa, ədalətə heç səs vermədin,
Qudurğan istəyə qəfəs vermədin.
Fağıra yük vurdun, nəfəs vermədin,
Qoymadın bir silə tərini, dünya.

Yeyib-içdiyimiz qana çatmamış,
Ruhu qılıncladın cana çatmamış.
Arzu göyərçini qanad açmamış,
Qırdın qanadını, pərini, dünya.

Aynuram, bəxtimdə qara, ağım var,
Xocalı deyilən ağlar çağım var.
Gedəsi mənzilim – Qarabağım var,
Kəsmə dizlərimin girini, dünya.

## SÖZÜ YUXUYA VERƏNDƏ

Sönür ocaq, dağılır ev
Közü yuxuya verəndə.
Əldən çıxır para bütöv
Gözü yuxuya verəndə.

Yaşayır can möhnətini,
Ağır çəkir töhmətini,
Adamlar öz fürsətini
Özü yuxuya verəndə.

Aynur bilmir, qəti bilmir,
Cami bilmir, Sədi bilmir,
Canı dinclik nədi, bilmir,
Sözü yuxuya verəndə.

## BİZİM ARXAMIZDA DAĞDI KİŞİLƏR

Qanuna çevrilsin gərək hər sözü,
Tanrıtək həmişə haqdı kişilər.
Mənliyin, qürurun al bayrağını
Uca zirvələrə taxdı kişilər.

Dünyanı namərdə, pisə buraxmaz,
Yanan ocağını hisə buraxmaz,
Düşməndə qisası nisyə buraxmaz,
Ödəyər hesabı nağdı kişilər.

Onlardır – ata da, oğul da, yar da,
Müqəddəs sayılır bizim diyarda,
Güvənc yerimizdir çətində, darda,
Bizim arxamızda dağdı kişilər.

Coşur hər görəndə Aynurun təbi,
Odur yaraların məlhəmi, həbi,
Yaxşı ki, ölməyib "Ərlik məktəbi",
Yaxşı ki, həmişə sağdı kişilər.

*18 avqust 2022-ci il*

## BU DÜNYANIN MƏHƏBBƏTİ QADINDIR

Yazımmı ki, kişilərin dəmadəm
Fikri-zikri, söz-söhbəti qadındır?!
Almasa da bir çoxları boynuna,
Bir ömürlük səadəti qadındır.

Bu həqiqət danılarmı? Yox, qəti!
Bir başqadır qadınlığın şəfqəti.
Axı onun şirinliyi, şərbəti,
Ürəyinin yağı, əti qadındır.

Nə məzarlıq, nə də beşiklik olar,
Nə bir evlik, nə də eşiklik olar.
Onsuz kişi, nə də kişilik olar,
Kişilərin cəsarəti qadındır.

O könüllə sevinin ki, gülün ki,
Qəlbinizdən dərdi, qəmi silin ki,
İlahinin Yer üzünə bilin ki,
Ən müqəddəs əmanəti qadındır.

Dözün ona, heç bir zaman bezməyin,
Qəlbinizi, ruhunuzu əzməyin,
Gedib onu başqa yerdə gəzməyin,
Bu dünyanın məhəbbəti qadındır.

*25 fevral 2022-ci il*

## MƏN ÖZÜM-ÖZÜMƏ YADAM, İLAHİ

Bir də buralara yaz haçan gələr,
Haçan çiçəkləyər badam, İlahi?
Sobam ta axşamdan sübhədək yanır,
İsinmir otağım, odam, İlahi.

Çoxalıb saçımda illərin dəni,
Bu işdə günahkar bilimmi Səni?
Özgələr nə cürə tanısın məni,
Mən özüm-özümə yadam, İlahi.

Göydə mələklərin ümid satırmı,
Orda da Ay doğub, Günəş batırmı,
Uca məqamına gedib çatırmı,
Mənim səsim, ünüm, sədam, İlahi?

Görən nə axtarır, görən nə gəzir?
Yel kimi bu yerdən o yerə əsir,
Nə üçün tələsir, hara tələsir,
Niyə qərar tutmur adam, İlahi?

Yazmaqdan gözünə qara su gəlib,
Aynur nə yatıbdır, nə də dincəlib.
Uçulub, dağılıb, tamam köhnəlib,
Dünya dediyimiz bu dam, İlahi.

*18 yanvar 2024-cü il*

## RUH ADAMLARI

Sədanız Tanrıdan gələn sədadır,
Gəlin söhbət edək, ruh adamları.
Söhbətin gözəli Haqdan nidadır,
Gəlin söhbət edək, ruh adamları.

Ürəkdən danışaq, gözdən danışaq,
Dolanaq başına, közdən danışaq,
Söz qəlbə körpüdür, sözdən danışaq,
Gəlin söhbət edək, ruh adamları.

Bilən yox bu ömrün harasındayıq,
Görən ağındayıq, qarasındayıq,
Hansı könüllərin yarasındayıq?
Gəlin söhbət edək, ruh adamları.

Bünövrə eynidir, təməl eynidir,
Həm imza eynidir, həm əl eynidir.
Əqidə eynidir, əməl eynidir,
Gəlin söhbət edək, ruh adamları.

Aynuram, hər kəsə çoxdur rəğbətim,
Saflığa köklənib arzum, niyyətim.
Deyirlər şirindir sözüm, söhbətim,
Gəlin söhbət edək, ruh adamları.

*28 iyun 2021-ci il*

## MƏN DƏ PƏNCƏRƏDƏN BAXIB GEDİRƏM

"Dünya pəncərədir" – demiş babalar,
Mən də pəncərədən baxıb gedirəm.
Bəzəyim, zinətim göyqurşağıdır,
Hər toya-nişana taxıb gedirəm.

Bir çiçək qızıyam təbiətimin,
Çoxdur şirinliyi söz-söhbətimin,
Düşüb arxasınca öz qismətimin,
Büllur bulaq kimi axıb gedirəm.

Sevmirəm işığa kor baxanları,
Gözündə günəşə tor baxanları,
Adıma, sanıma xor baxanları
Yandırıb gedirəm, yaxıb gedirəm.

Mənə neyləyəcək şaxta, soyuq, qar,
Ruhum da bahardır, qəlbim də bahar,
Bütün zülmətləri yaran gücüm var,
Aynuram, şimşəktək çaxıb gedirəm.

*9 may 2023-cü il*

## İNSAN ÖZ QƏLBİNDƏN ASILMALIDIR

Əlim nə ulduza, nə aya çatır,
Kaş çata, bir iplə asam özümü.
Məlhəm də deyiləm, mən əvvəl-axır
Qanlı yaralara basam özümü.

Barmaq yarasını sağaltmaq asan,
Ürək yarasının əlacı hanı?
Onu sağaltmağa, zavallı insan,
Hətta mələklərin çatmır imkanı.

İnsanın surəti, əksi üzündə,
Əsli ürəkdədir – bir sifəti var.
Min sifət görərsən əksin özündə,
Ürəyin bir üzlük həqiqəti var.

Şeytan ağlımızı kəsdirə bilər,
Ürəyi yıxmağa yetməz hiyləsi.
Tale kimi desən, küsdürə bilər,
Ürəkdən inciməz ürək yiyəsi.

Son yarpaq düşərkən ömür bağından,
Hər kəs əməlinə qısılmalıdır.
Hər şey asılsa da öz ayağından,
İnsan öz qəlbindən asılmalıdır.

*2 iyul 2023-cü il*

## DÜNYA SEVİNC ÜÇÜN YARADIB MƏNİ

Dərdə yanmayanı naşı bilirəm,
Heç kimə mən qışı arzulamıram.
Ölüm nə deməkdir, yaxşı bilirəm,
Mən hərbi-savaşı arzulamıram.

Şükür İlahinin verdiyi paya,
Qəlbimdə sevgi var, üzümdə həya.
Bir tikə ruzim var, haramdan maya,
Ay nadan, ay naşı, arzulamıram.

Həyatdır, yol alıb gedirəm, yəni
Ömür-gün saçıma salsa da dəni.
Dünya sevinc üçün yaradıb məni,
Heç kimə göz yaşı arzulamıram.

Yazıb-yaradıram ürəklə, canla,
Bəsimdir yaşasam bu adla, sanla.
Ürəyim yuxadır, gülü tikanla
Hətta heç yanaşı arzulamıram.

Aynuram, Vətənim müqəddəsimdir,
Bu mənim hər kəsə könül səsimdir.
Qızıl xəyallarım mənim bəsimdir,
Qızıldan başdaşı arzulamıram.

*22 fevral 2023-cü il*

## EHTİYAC

Yox olub gedirik neçə dərd ilə,
Yeyir içimizi, yeyir ehtiyac.
Nə astar tanıyır, nə də üz bilir,
Bizi hər üzünə geyir ehtiyac.

Ömür yollarında salır çətinə,
Qara pərdə çəkir səadətinə,
Baxmır insanların ləyaqətinə,
Elə öz sözünü deyir ehtiyac.

Əzir çoxumuzu dövlət-var altda,
Qalır xoş arzular soyuq qar altda,
Salıb sürükləyir ayaqlar altda,
Vermir ki, heç kimə xeyir ehtiyac.

Bir evə girdimi, çıxmır ki, çıxmır,
Edilən lənətə, qarğışa baxmır,
Niyə adamları rahat buraxmıır,
Tez-tez kasıblara dəyir ehtiyac?

Aynuram, yazıram bir tanış dərdi,
Onsuz da, bu dünya puçdu, hədərdi,
Bəzən bir namərdin önündə mərdi
Yüz dəfə, min dəfə əyir ehtiyac.

*5 mart 2024-cü il*

## İŞIQ DA, NƏFƏS DƏ, HƏYAT DA ODUR

Ən uca qatlarda bir hökm edən var,
Odur bu taleyi yazanım mənim.
Ondandır gündəlik ruzim, qazancım,
Onunçün qaynayır qazanım mənim.

Ruhumu coşdurub qanadlandıran
Müqəddəs bildiyim bir ad da odur.
Adını qəlbimə nəqş eləmişəm,
İşıq da, nəfəs də, həyat da odur.

Bu həya pərdəsi ona məxsusdur,
Sadəcə özümdə daşıyıram mən.
Onun ətəyindən tutmuşam hər vaxt,
Onu zikr eləyib yaşayıram mən.

Bu aydın səhərin odur yiyəsi,
Dalğalar, buludlar, meşələr odur.
Qoynuna can atıb dinclik tapdığım
Ən təmiz, ən gözəl guşələr odur.

Mən ona yazıram şeirlərimi,
Onu hər misramda mədh eləyirəm.
Mən ondan alıram həyat eşqimi,
İlləri onunla fəth eləyirəm.

Göz açıb dünyaya gəldiyim gündən,
Səpilib ömrümün hər bir çağına.
Gecə də, gündüz də səcdəsindəyəm,
Şükür İlahinin ucalığına.

## BOYNUBÜKÜK ARZULAR

İçimdəki sevdanın
Ürəyi yara bağlar.
Bu yollar məni bir gün
Aparıb dara bağlar.

Eşqin qəfəsdir ömrü,
Quru həvəsdir ömrü.
Yazıq o kəsdir, ömrü
Dövlətə, vara bağlar.

Könlündə min arzu var,
Neçə mələr quzu var?!
Boynubükük arzular
Başına qara bağlar.

İtirdim eşqdə ağlı,
Könül qapısı bağlı,
Aynurtək qəlbidağlı,
Ümidin hara bağlar?

## BU DÜNYADAN HARA ÇIXIB GEDƏK Kİ?!

Yavaş-yavaş hər gözünə bu ömrün
Dərdi-qəmi yığa-yığa alışdıq.
"Bir gün gələr, görüşərik" – deyən biz,
Necə oldu, ayrılığa alışdıq?
Bu dünyadan hara çıxıb gedək ki?!

Yandırmışdım ürəyimi şam kimi,
Öləziyib əllərində qaraldı.
Xəyalımız yüyənsiz at kimiydi,
Biz çatmamış mənzilə yol daraldı,
Bu dünyadan hara çıxıb gedək ki?!

Zəng eləyib daha məni soruşma,
Yollarından silinibdir izim ki!
İndən belə bütün cəhdlər əbəsdir,
"Əzəlindən gətirmədi bizimki! "
Bu dünyadan hara çıxıb gedək ki?!

Bəxtimizin qulağı da kar imiş,
Yetməz daha bir səs-səda, ün bizə.
Demə, dünya sevənlərə dar imiş,
Harda doğar görən yaxşı gün bizə,
Bu dünyadan hara çıxıb gedək ki?!

*10 fevral 2022-ci il*

## KİMƏ AĞLAYIRSAN, QADIN?

Axşam-sabah bilmirsən heç,
Kimə ağlayırsan, qadın?
İçindəki hansı sarı
Simə ağlayırsan, qadın?

Aynaya bax dönüb hərdən,
Sızıldayıb pərdə-pərdə
Ürəyini oyan dərdə,
Qəmə ağlayırsan, qadın.

Sən oyaqsan – keçib gecə,
Ovundurum səni necə?
Vallah, bəndsən elə bircə
Himə, ağlayırsan, qadın!

Gültək solur dərdə uyan...
Bu qəmli yuxudan oyan,
Ömür sarayını oyan
Nəmə ağlayırsan, qadın.

Qəlbin titrək tülə dönmüş,
Hanı o bəxt – gülə dönmüş?
Pərvanəsi külə dönmüş
Şəmə ağlayırsan qadın...

*3 dekabr 2023-cü il*

## UZUN GECƏLƏRİ ÇOX AĞLAMIŞAM

Bu qalın divarlar içində ömrüm,
Bu yalın divarlar içində ömrüm,
Darıxıb, sıxılıb, əzilib yaman,
Taleyim bəxtimə verməyib aman...
Bir işıq düşməyən, bir səs gəlməyən,
Donanda bir isti nəfəs gəlməyən
Uzun gecələri çox ağlamışam.

Açmağa bir doğma qapım olmayıb,
Qaçmağa bir zərrə tabım olmayıb,
Atını dördnala çapıb qəm mənə,
Heç vaxt tapılmayıb bir həmdəm mənə.
Nə umu-küsümü bilənim olub,
Nə bir yol üzümə gülənim olub,
Uzun gecələri çox ağlamışam.

Məni bitirməyə tələsibdir dərd,
Salıb itirməyə tələsibdir dərd.
Beləcə bir ömrü illər aparıb,
Eşqimə uzanmış əllər aparıb.
Quşu uçub gedən budaq misalı,
Torpaqdan süzülən bulaq misalı...
Uzun gecələri çox ağlamışam.

Ocağı alovsuz, közsüz olmuşam,
Dodağı kəlməsiz, sözsüz olmuşam.
Çoxdan unudulmuş bir qəbir kimi
İçimdə gizlənmiş qərib sirr kimi,
İtib dalğasında sözün, söhbətin,
Hönkürüb dalınca bir məhəbbətin,
Uzun gecələri çox ağlamışam.

O mənəm taleyi sınıq, yaralı,
Sevinc deyiləndən xeyli aralı,
Şüşətək içində çiliklənən qız.
Belə ötüşübdür neçə yaz, payız,
Bu yalın divarlar içində ömrüm,
Bu qalın divarlar içində ömrüm...
Uzun gecələri çox ağlamışam.

Bir ömür yaşadım, görməmişəm yay,
Heç kimə qəmimdən verməmişəm pay.
Dərdi ürəyimdə əzən Aynuram,
Hər bir çətinliyə dözən Aynuram.
Baxma ki, dərdimi yıxıbdır gülüş,
Dərdimin sonuna çıxıbdır gülüş,
Uzun gecələri çox ağlamışam.

## DÜŞÜNƏK

Gəl dayazı  boş verib,
Dərin-dərin düşünək.
Atıb acı hissləri,
Şirin-şirin düşünək.

Sədləri elə keç ki,
Mane olmasın heç kim!
Yaşamağa bu eşqin
Şah əsərin düşünək.

Həsrət bac alammasın,
Eşqə "su" calanmasın,
Yollar haçalanmasın,
Ancaq birin düşünək.

Gecəni gündüzə qat,
Başından bu qəmi at.
Çətin olsa da həyat,
Gözəl yerin düşünək.

## AYNUR DA QOCALDI...

Qırdı qəlbimizi azı min dəfə
Dünya imtahana sərt çəkə-çəkə.
Yeritdi həmişə öz bildiyini
Hər vaxt qarşımıza şərt çəkə-çəkə.

Bir ovcumda ocaq, o birində kül,
Doldu da, daşdı da gözlərimdə "Kür",
Kölgəli olmadı gözüm, çox şükür,
Ucaldım yükümü mərd çəkə-çəkə.

Dəyməsin pis gözdən hər nəzər sənə,
Mənimtək səbirlə kim dözər sənə?
Daha güvənmirəm, daha, zər, sənə,
Nə qədər uduzum nərd çəkə-çəkə?!

İlahi, dincə qoy fələyi bir yol,
İncitmə bu gözəl mələyi bir yol,
Üzünə gülmədi taleyi bir yol,
Aynur da qocaldı dərd çəkə-çəkə.

*7 oktyabr 2022-ci il*

## TALEYİMƏ MİNNƏTDARAM

Taleyimə minnətdaram...
Unutmaram ömürboyu
elədiyi yaxşılığı,
Xoşdur mənə hər sığalı,
təbəssümü, hər qılığı.
O veribdir sinəmdəki
bu alovlu ürəyi də,
O veribdir halal-hümmət
qazanılan çörəyi də.
O veribdir yorulmayan
qanad mənə,
O veribdir polad kimi
inad mənə.
Səni mənə o veribdir,
ay sevgilim,
Taleyimin gülüşüylə gözəl keçir
ayım, ilim.
Yaşadığım şirin günlər
bir ənamdır taleyimdən,
Minnətdaram o ada mən –
Azərbaycan, bir çeşmədir taleyimdə,
– nur çeşməsi.
İlhamımın odlu, qaynar
gur çeşməsi.
Taleyimə minnətdaram yatanda da,

duranda da.
Ürəyimi pərvanətək
şölələrə vuranda da.
Taleyimə minnətdaram,
əriyibdir onun ilə
hər bir qəmim,
İç-içəyik: bir taleyim,
bir ürəyim,
bir qələmim.

*18 yanvar 2023-ci il*

## ÇÖLÜM ŞUMDUR, İÇİM DƏN

Ömrü bir bülbül kimi
Dar qəfəsdə keçirdim.
Qəlbimdən neçə dərdli,
Qəmli bəstə keçirdim.

Nə qalar bu biçindən?
Çölüm şumdur, içim dən.
Ağrıları içimdən
Dəstə-dəstə keçirdim.

Vurdum, çıxdım cəmini,
Biləmmədim çəmini.
Eşqin sətəlcəmini
Ayaqüstə keçirdim.

*13 sentyabr 2021-ci il*

## DÜNYAYA QONAĞAM MƏN

Nur baxışlı səhərəm
al-əlvan çiçəklərə,
Yeni nəfəs verirəm
döyünən ürəklərə.
Mənəm bu Yer üzünə
gülümsəyən bir səhər,
Gör necə canlanıbdır
Günəşimlə bu şəhər.
Yayıram öz nurumu
çölə, düzə, çəmənə,
Çiçəklərin, güllərin
duası bəsdir mənə.
Günəşli bir səhərəm
təpələrlə oynayan,
Dənizi qucaqlayan,
ləpələrlə oynayan.
Açılıbdır önümdə
geniş, əngin üfüqlər,
Günəşli bir səhərəm,
qol-qanadım şəfəqlər.
Coşqun qaynar bir həyat
çilərəm Yer üzünə,
Daim sevgi, məhəbbət
dilərəm Yer üzünə.
Kədərdən, küdurətdən,

nifrətdən uzağam mən.
İşıqlı bir səhərəm,
dünyaya qonağam mən.

*22 yanvar 2024-cü il*

## ÜZÜ DAĞLARA, DAĞLARA

Gəl əl-ələ tutub gedək
Üzü dağlara, dağlara.
Bir görək nədir bağlayan
Bizi dağlara, dağlara?

Dağ başından baxaq kəndə,
Ürəklənək sən də, mən də.
Qoşa salaq göy çəməndə
İzi dağlara, dağlara.

Gedib gəzək hər bir yanı,
Seyr edək çəni, dumanı.
Qonaq çağıraq Aranı,
Düzü dağlara, dağlara.

Aynurdur dərdindən halı,
Gedək sənlə aşaq yalı,
Eşqlə deyək ən mənalı
Sözü dağlara, dağlara.

*9 mart 2024-cü il*

## ÜRƏYİMƏ KƏND HAVASI DÜŞÜBDÜR

Qarlı dağlar əl eləyir uzaqdan,
Pay göndərir yuxumuza sazaqdan,
Keçib gedək Şəmkir, Tovuz, Qazaxdan,
İstilərə könlüm asi düşübdür,
Ürəyimə kənd havası düşübdür.

Bu bürküdən can qurtaraq, sovuşaq,
Sadə, gözəl adamlara yovuşaq,
Gedək bir az o cənnətə qovuşaq,
Burda könlün "dərd"i, "yas"ı düşübdür,
Ürəyimə kənd havası düşübdür.

Təbiətin ruhu şaddır, kefi çağ,
Aydın səma, şehli çəmən, güllü bağ,
Kəpəz, Murov, Avey, Murğuz, Babadağ,
Bəxtimizə harda hansı düşübdür?!
Ürəyimə kənd havası düşübdür.

Bizə kənddir son məqamda təsəlli,
Perikmişik ruhumuzdan küsəli,
Ataların dadlı, duzlu məsəli,
Xoş ülfəti, iltiması düşübdür,
Ürəyimə kənd havası düşübdür.

Dinləmişəm nəğməsini turacın,
Gedib tapaq dərdimizin əlacın,
Qapımızda şaxələnən ağacın
Başındakı quş yuvası düşübdür,
Ürəyimə kənd havası düşübdür.

Buz bulaqlar, axar çaylar gözəldir,
Nazla keçən illər, aylar gözəldir,
Kənd həyatı layla-layla gözəldir,
Ağ dumanı, ağ cunası düşübdür,
Ürəyimə kənd havası düşübdür.

Qoy söyləyim ürəyimin sözünü,
Arzuladım bulaqların gözünü,
Anaların göyə tutub üzünü
Yaradana min duası düşübdür,
Ürəyimə kənd havası düşübdür.

Kənddir bizim ömrümüzün əvvəli,
Üstümüzdə Tanrı əli, Haqq əli,
Yığ boğçanı, kəndə gedək, ay dəli,
Aynur üçün bax, səması düşübdür,
Ürəyimə kənd havası düşübdür.

*21 avqust 2023-cü il*

## SINDIRMAYIN QƏLBİMİ

Şaxtalı bir qış günü
Gəlmişəm bu dünyaya.
Şəfəq salmışam Günə,
Şəfəq salmışam Aya.

Bilib Tanrıdan gələn
Ən gözəl ənam məni.
Laylalarla böyüdüb
Gülüzlü anam məni.

Tale məni salsa da
Min çətinə, min dara.
Deməmişəm bəxtimə
Bircə dəfə də qara.

Danışmışam gül üstə
Düşən zərrin şeh ilə.
Bəzən xoşbəxt olmuşam
Bircə əsim meh ilə.

Şaxtalı bir qış günü
Gəlsəm də dünyaya mən.
Daim nur paylamışam
Hər kəsə ürəyimdən.

Qurbanam Vətənimə,
Odur könlümün yarı.
Hamı doğmamdır mənim,
Sevirəm insanları.

Ömür şirin yuxudur,
Bu yuxudan doymuram.
Xainliyi, pisliyi
Yaxınıma qoymuram.

Sındırmayın qəlbimi,
Mən bir zərif şüşəyəm.
Qar altından boylanan
Ətirli bənövşəyəm.

Qara qatı zülməti
Yarıb keçən nur mənəm.
Hamınızın ürəyi –
Mənəm, o Aynur mənəm.

*19 yanvar 2023-ci il*

## ÜRƏYİM ÇƏRPƏLƏNGDİR

Könlümdə xatirələr
Yenə çələng-çələngdir.
Ürəyim səmalarda
Uçan bir çərpələngdir.

Səadətin qapısı
Açılıbdır taybatay.
Sanki bütün nurunu
Ürəyimə səpir Ay.

Keçdiyim yolda, izdə
Gül açıb yenə ləklər.
Dağınıq tellərimdə
Nəşələnir küləklər.

Yarır boz dumanları,
Baş aparır atlarım.
Şəfəqlərdən od alır
Çiynimdə qanadlarım.

Qulağımda ən gözəl
Bülbüllərin səsi var.
Şirin yuxularımda
Baharın nəfəsi var.

Günəşə bələnmişəm,
Könül vermərəm qəmə.
Tanrım, məndən heç zaman
Sevgini əsirgəmə.

*14 yanvar 2023-cü il*

## YANASAN, AY DÜNYA, HARAN GÖZƏLDİ?!

Həsrət incidirsə könül mülkünü
Bir vaxt yaşanmışlar demək, özəldi.
Ömür son baharda yarpaq tökümü, –
Dünən yaşılıydı, bu gün xəzəldi.

Hamı kişidirmi, hamı ərdirmi,
Ağrı-acılara can sipərdimi?
Ay dəvə, belinə yığım dərdimi,
Yığım ki, donqarın, bəlkə, düzəldi.

Dağların başında qar qalaq-qalaq,
Çiçəklər içində kol, tikan, alaq.
Mənə güc gələrsə yastıyapalaq,
Yanasan, ay dünya, haran gözəldi?!

*22 yanvar 2021-ci il*

## BAĞLI QAPI

*Rüşvətxor məmurlara*

I

Neçəsini bədbəxt edib bu qapı,
Üzümüzə açılmır ki, açılmır.
Eşitmir ki, yalvarışı, xitabı,
Üzümüzə açılmır ki, açılmır.

Nə kasıba, nə bir qula açılır,
Him-cim ilə gəlir yola, açılır,
Ancaq elə yaxşı pula açılır,
Üzümüzə açılmır ki, açılmır.

İşim düşdü, gəlib döydüm, xatamı?
Qəlbi daşdır qapıdakı adamın,
Neynim axı, pulu yoxdur atamın?!
Üzümüzə açılmır ki, açılmır.

**II**

Nə bir ahdan, nə amandan qorxurlar,
Nə padşahdan, nə zamandan qorxurlar,
Rüşvət ilə, haram pulla bəslənib,
İstəyəndə neçə evlər yıxırlar,
Gör nələrin şahididir bu qapı,
Səhnələrin şahididir bu qapı.

Kimdən alım axı haqqım olanı?!
Danışdılar əlli cürə yalanı,
Ay arzumu gözlərimdə qoyan kəs,
Qalsın məntək qapılarda balanı!
Yana-yana o da desin: "Nə üçün
Mənə qapı açılmadı bəs bu gün? "

## SAXTA ADAMLAR

Nə sevgi hissi var, nə də mərhəmət,
Duyğudan kasaddır taxta adamlar.
Qorusun həmişə ləyaqətini,
Baxmasın zamana, vaxta adamlar.

Sağdan da, soldan da cinah kəsilib,
Sanki Allahdan da pənah kəsilib,
Hərə başımıza bir şah kəsilib,
Çıxıblar elə bil taxta adamlar.

Bağbanı olmasa, bağdan bağ olmur,
Qara əməllərin üzü ağ olmur.
İndi doğruya da inanmaq olmur,
Yaman çoxalıbdır saxta adamlar.

Aynur, sən ömrünü inamla yaşa,
Alçağı heç zaman ucaltma başa.
O qədər dəyib ki, ümidi daşa
İnanmır taleyə, baxta adamlar.

## YOLA VER GETSİN

Dalınca atlanan, düşən olanda,
Səbrindən ayrılma, yola ver getsin.
Adamlar hamısı şəkər, bal deyil,
Tez qaçıb sarılma, yola ver getsin.

Həmişə düz çıxmaz çəkdiyin bilet,
Nə bir haray qopar, nə şikayət et,
İldırım çaxanda üzdən ötür get,
İçindən yarılma, yola ver getsin.

Düşün gəl həyatın bir anlığını,
Çölünü, düzünü, viranlığını,
İlan yerə qoymaz ilanlığını,
Heç kimə darılma, yola ver getsin.

Düşdü ayaq altda, tapdandı vədlər,
Sağında əzablar, solunda dərdlər,
Düşəcək üstünə hər cür namərdlər,
Usanma, qırılma, yola ver getsin.

Aynur, heç yorulma, çalış ürəkdən,
Zəmisinə dönər bir zaman tək dən,
Bəzi adamları yola verməkdən,
Heç zaman yorulma, yola ver getsin.

*27 dekabr 2023-cü il*

## EY PUL

Çoxları adına "əl çirki" deyir,
Doğrudan, dünyanın kirisən, ey pul.
Balaca görünür səni sevənlər,
Həyatda onlardan irisən, ey pul.

Min nədir, milyonlar olub əsirin,
Bilən də yoxdur ki, açıla sirrin,
Varlının, kasıbın, yetim-yesirin
Ocağı, qibləsi, pirisən, ey pul.

Tutub çox gözləri şölən, görmüşəm,
Dünyanı böldürən, bölən görmüşəm,
Bütün güclüləri ölən görmüşəm,
Sən elə həmişə dirisən, ey pul.

Baxma ki, adicə kağızdır canın,
Nə bir ürəyin var, nə də ki qanın,
Amma ki, amma ki sən bu dünyanın,
Bəbiri, pələngi, şirisən, ey pul.

Sən göyün qatında, yerin təkində,
Aynur həqiqətin deyil şəkkində,
Yaşılbaş sonasan dollar şəklində,
Mələksən, hurisən, pərisən, ey pul.

*19 noyabr 2022-ci il*

## BİZ RƏHMƏTİ BU DÜNYADA QAZANAQ

Bəd əməllər ömrümüzdən silinmir,
O dünyada nə olacaq bilinmir,
Həyatımız yaxşılığa bələnmir,
Mümkün qədər "kor şeytan"ı az anaq,
Biz rəhməti bu dünyada qazanaq.

İnsan niyə insanlığı itirir?
Bilinmir ki, kim harda bənd götürür...
Son mənzilə bizi rəhmət ötürür,
Yatmışıqsa, bu yuxudan oyanaq,
Biz rəhməti bu dünyada qazanaq.

Bacardıqca adımızı ad edək,
Unutmayaq, doğmaları yad edək,
Ürəkləri bu dünyada şad edək,
Mərhəmətin keşiyində dayanaq,
Biz rəhməti bu dünyada qazanaq.

Dostlar ilə tikəmizi bölək tən,
Mayamızda olsun halal toxum-dən,
Düşünməyək, vaxt var ikən indidən
Saf niyyətə, düz əmələ boyanaq,
Biz rəhməti bu dünyada qazanaq.

Gözümüzdən qanlı-qanlı yaş gedər,
Bir qaydadır, boş gələnlər boş gedər,
Aynur, uca Tanrıya da xoş gedər,
Yaxşı olaq, yaxşılığı dost sanaq,
Biz rəhməti bu dünyada qazanaq.

*25 fevral 2024-cü*

## DOSTLUQ

Təcnis

Bir qızıl almadır həqiqi dostluq,
Dostun bir yarıdır, sən bir yarısan.
Canına can qatan dostun yoxdursa,
Özünü tam deyil, sən bir yarı san.

Ucal, ucalanda dostsuz ucalma,
Dostun sınağından beş al, üç alma.
İkisi dostundur – tapsan üç alma,
Qoy dost beş yarısın, sən bir yarısan.

Heç vədə dostundan kəsməz dost ara,
Köməyə dost yetər, düşsə dost dara.
Əzəl Rəbbə dost de, sonra dost ara,
Desinlər, Allahın sən bir yarısan.

*1 yanvar 2020-ci il*

## DOSTLARIN

Dostsuz bu dünyada heçik, heç kimik,
Deyək sağlığına bütün dostların.
Külək toxunmasın, tufan əyməsin,
Ucalsın bayrağı sütun dostların.

Bu gözəl həyatım bəsimdir, bəsim,
Dostlarla gur çıxır hər zaman səsim,
Kəsim, hər birinə mən quzu kəsim,
Könlümdə taxt quran mətin dostların.

Adları ruhumda, canımdadırlar,
Qanıma hopublar, qanımdadırlar.
Hər an dar ayaqda yanımdadırlar,
Sınar etibarı çətin, dostların.

Bəsimdir qapımdan düşsə kölgəsi,
Mən onu sanaram Dostluq ölkəsi.
"Hər şeyin təzəsi, dostun köhnəsi",
Aynur, bir dünyadır sənin dostların.

# Sevənlərə bir misalam

*Eşqin şəklini havaya*
*Əllərimlə çəkən lalam.*
*Bu dünyanın dərdləriylə,*
*Qəmləriylə həsbi-halam.*

## SƏNƏ BİR MƏKTUB YAZDIM

Sənə bir məktub yazdım, –
Bir sual və bir nida.
Bir də ölümdən betər
Param-parça "əl-vi-da"…

Heç peşman da deyiləm,
Yoxdur bir umu-küsüm.
Bir şəkil də qoymuşam, –
Gözyaşında təbəssüm.

Qapanıb otağına
Qapını bağlayarsan.
Sənə bir məktub yazdım,
Oxuyub ağlayarsan.

Buz kimi yatağından
Mənə də pay bölərsən.
Şərab qədəhlərində
Qurtum-qurtum ölərsən.

Sənə bir məktub yazdım,
Qürurumu çeynəyib.
Ünvanını bilmirəm,
Çatmayacaqdır, heyif.

Sənə bir məktub yazdım
Sözlər süzüldü yaştək.
Çatsa da nə faydası
Daldan atılan daştək…

## BİR MƏN OLUM, BİR DƏ MƏN

Dünya kimi qarışıb
Yenə mənim əhvalım.
İndi özüm özümün
Könlünü necə alım?
Elə yerə gedərdim,
Özümlə tənha qalım,
Başqa heç kim olmasın, –
Bir mən olum, bir də mən.

Dolanım illər boyu
Gəzim Sina dağında.
Qu olum, yuva qurum
Eşqimin budağında.
Hamıdan uzaqlarda –
Bir dəniz qırağında
Tutum bu eşqin yasın, –
Bir mən olum, bir də mən.

Xoşbəxtliyim olmayıb,
Yox, yox mənim bu adda.
Çıxıb gedərəm elə
Bu anda, bu saatda.
Heç nəyi istəmirəm,
Bu sevginin həyatda
Çox çəkmişəm bəlasın, –
Bir mən olum, bir də mən.

Yaşamadım, yaş gəldi
Ancaq yaşımın üstə.
Bir daş qoyan olmadı,
Öldüm daşımın üstə.
Məni öz anam kimi
Durub başımın üstə
Bircə bulud ağlasın, –
Bir mən olum, bir də mən.

Xatirə dəftəriyçün
Yazdım bu qəmli şeiri.
Qoy heç bir kəs bilməsin
Mənim olduğum yeri.
"O"nu da istəmirəm,
Qayıtmasın heç geri.
Yadımda qoy qalmasın, –
Bir mən olum, bir də mən...

## XƏTRİMƏ NİYƏ DƏYDİN?!

Mən səni hər görəndə
Gül açıb güllənirdim.
Ürəyinin ən incə
Telində dillənirdim, –
Xətrimə niyə dəydin?!

Gündüz Günəş, gecə Ay
Nur saçırdı üzümə.
Səndən ötrü qatırdım
Gecəmi-gündüzümə, –
Xətrimə niyə dəydin?!

Eh, o qədər olmayan
Gözəllik uydururdum.
Sənə əsən meh ilə
Eşqimi duydururdum, –
Xətrimə niyə dəydin?!

Nədir bu ölgün baxış,
Cavabsız sualmısan?
Dinmirsən, danışmırsan,
Ağzına su almısan, –
Xətrimə niyə dəydin?!

Köçəri quşlar kimi
Könlün hayanda gəzdi?
Səni tanımasaydım
Mənə yer eləməzdi, –
Xətrimə niyə dəydin?!

Aynur itdi yalanda,
Dünya düşdü gözündən.
Özünlə tək qalanda
Sörüşdunmu özündən, –
Xətrimə niyə dəydin?!

*28 avqust 2023-cü il*

## GÜNAHKAR İKİMİZİK

Günah qoxusu gəlir,
Hava da birtəhərdir.
Bizdə günah yoxdur ki,
Günahkar bu şəhərdir.

Günahkardır şəhərin
Mavi işıqları da.
Günahkardır yiyəsiz
Küçə uşaqları da.

Kim varsa ömrümüzdə,
Hamısı günahkardır.
Naləmizi eşitmir,
Bu şəhər niyə kardır?!

Şəhərdə nə günah var,
Dənizin  nə günahı,
O yolda nə günah var,
O izin nə günahı?

Heç nə dəyişməyibdir,
Həmin yol, həmin izdir.
Heç nə dəyişməyibsə,
Bəs niyə kimsəsizdir?

Bəs niyə sevgisizdir
Bu böyük şəhər belə?
İşləyib qanımıza
Ən acı zəhər belə.

Sənə elə gəlmirmi
Günahkar bu zamandır?
Zamanın zərbəsinə
Düçar olmaq yamandır.

Saatın əqrəbini
Lap min dəfə çək geri.
Çətin bir də qayıda
Ömrün ötən illəri.

Həyatlamı, bəxtləmi,
Taleləmi dalaşaq?
Hansı dəryadan keçək,
Hansı zirvədən aşaq?

Xatirən də qəlbimdə
Olubdur əzik-üzük.
Üç səhv bir düzü yedi,
İndi hansımız düzük?

Sənə elə gəlmirmi
Günah elə bizdədir?
Ayrı yerdə gəzməyək,
Bizim içimizdədir.

Günah həmin günahdır,
Biz də ki həmin bizik.
Yaxamızı çəkməyək,
Günahkar ikimizik.

*14 iyul 2023-cü il*

## BUNDAN O YANA DA VAR?

Ulduzumuz küsüşdü
Asimanda qəfildən.
Sübhə kimi yatmadım,
Qüssə içindəyəm mən.
Sıxır məni dörd divar,
Bundan o yana da var?

Könlümdəki sevginin
Sən idin ilk ovçusu.
Sənə gedən yolların
Başqasıdır yolçusu.
Göz yaşımdan oldum xar,
Bundan o yana da var?

Bir də mənim gözümdə
O məşəl yana bilməz.
Bu ağrı, bu nisgilə
Ürək dayana bilməz.
Ümidimə yağır qar,
Bundan o yana da var?

Ölüm nə cür olur ki,
İndi sənə nə yazım?
Necə sığdın həsrətə,
Yerə, Göyə sığmazım?
Dünya olub mənə dar,
Bundan o yana da var?

Bir budaqda oturub,
Min budağa əl atdın.
Səni sevən qəlbimi
Yaraladın, qanatdın.
Könlümdə min ahu-zar,
Bundan o yana da var?

Soruşsam çiyin çəkər,
Nə Göy bilər, nə də Yer.
Əgər ölməmisənsə,
Sualıma cavab ver,
Durma belə lal və kar,
Bundan o yana da var?

## OLAR, BİR SUAL VERİM?

Olar, bir sual verim?
Qəlbim səni görəndə
Niyə belə döyünür?!
Baxışlarım dən kimi
Yollarında üyünür.

Olar, bir sual verim?
Dilim yanar deməsəm,
Gəl tutulma sözümdən –
Niyə mənim hər gecə
Yuxum qaçır gözümdən?

Olar, bir sual verim?
Sevmisənmi haçansa
Məndən başqa birini?
Düzünü de, nə olar,
Ay ömrümün şirini.

Olar, bir sual verim?
"Eşq bir meydir" – deyiblər,
Mən bu meydən içimmi?
Gəlib sizin hər səhər
Küçənizdən keçimmi?

Olar, bir sual verim?
Baxışımdan qəlbinə
Sevgi səpsəm, olarmı?
Gecə Ay işığında
Səni öpsəm, olarmı?

Olar, bir sual verim?
Nəyinə bənd olmuşam,
Bu sevginin nəyinə?!
Nədən hakim olmusan,
Aynurun ürəyinə?!

## MƏNƏ YALAN DANIŞMA

Yalan danışmaq sənin
Çoxdankı adətindir.
Mənə bu yalanları
Həzm etmək çox çətindir.
Xəbərim yoxdur, bəlkə,
Bu sənin sənətindir?
Mənə yalan danışma.

Mənə adicə söz ver,
Sözünə təslim olum.
Zülmətimə Günəş ol,
Üzünə təslim olum.
Mənə düzünü söylə,
Düzünə təslim olum,
Mənə yalan danışma.

Biz bu eşqi bir zaman
Qanımızla yaratdıq.
Nəfəs verib, ruh verib,
Canımızla yaratdıq.
Ən müqəddəs, ən gerçək
Anımızla yaratdıq,
Mənə yalan danışma.

İstəmirəm hicranın
Yarası dərin olsun.
Yalanlarına görə
Aramız sərin olsun,
Heç olmasa, bircə yol
Xəcalət tərin olsun,
Mənə yalan danışma.

Aynuram, həqiqətdir
Mənim həyatda işim.
Dost-tanışlar bilir ki,
Yoxdur başqa vərdişim.
Budur səndən diləyim,
Budur səndən xahişim,
Mənə yalan danışma.

## ÜRƏK SƏNİ İSTƏYİR

Çöldə qopan tufanlar
Qəlbimin harayıdır.
Yaşatdığın həsrətin
Hələ ki ilk ayıdır.
Xatirələr üstümə
Gedib-gedib, qayıdır,
Ürək səni istəyir...

Heç kim bir də bizimtək
Sevib-sevilməyəcək.
Nə çəkirəm gecələr,
Heç kimsə bilməyəcək.
Yəni, bir də o günlər
Qayıdıb gəlməyəcək?!
Ürək səni istəyir...

Bir dibçək gülü kimi
Soluram, saralıram.
Havasız bir otaqda
Şam kimi qaralıram.
Sorağını hələ də
Ondan-bundan alıram,
Ürək səni istəyir...

Şəfəq çilə üstümə,
Acılara ol bədəl.
Həsrətini unutdur
Bir nəfəsə, əlbəəl.
Gözlərimi açınca
Bir göz qırpımında gəl,
Ürək səni istəyir...

Qəlbi qırıq adamam,
Bircə yol gəl insafa.
Doğru deyil aşiqə
Bu qədər cövrü-cəfa.
Axı özgə nə deyim,
Ay zalım, ay bivəfa,
Ürək səni istəyir...

Bircə aylıq həsrətin
Oldu ömürdən baha.
Aynur çıxır hər gecə
Göyləri seyrəngaha.
Ay Allahın cəzası,
Gəl çıx, bezmişəm daha
Ürək səni istəyir...

## SƏNLİ YUXULAR GÖRÜM

Dörd divar içindəyəm,
Tavanda bir damla yaş.
Qollarında olaydım,
Bu dəqiqə sənin kaş.

Yırğalanır ürəyim –
Mənim sevgi beşiyim.
Ulduzlar batmamışdan
Gəl çıx, evim-eşiyim.

Yorğun addımlarla gəl,
Gəl qayğısız, gəl rahat.
Sinəm yastığın olsun,
Nəfəsimə bələn yat.

Mənim qəlbim ağlayır
Uzaq düşəndə səndən.
Ağlıma min şey gəlir,
Küsməmisən ki, məndən?

Yandır yuxa könlümü,
Tüstüm ol, dumanım ol.
Təkcə sevgilim olma,
Canım ol, ey, canım ol.

Sənsən mənim qəlbimin
Ən igidi, ən əri.
Yandır qaranlıqlara
Mən adda bir fənəri.

Lap daş ol, lap kərpic ol,
Könül evimə hörüm.
Onunçün yatıram ki,
Sənli yuxular görüm.

## EH, NƏ İSƏ...

Bir də səni xatırlayıb
Vüsalına can atmaram.
Nə özümü, nə də səni
Şirin vədlə aldatmaram.
Ürəyimdə bir yara var,
Tez-tez açıb qanatmaram,
Eh, nə isə…

Göy üzütək tutulmuşam,
Bulud-bulud yağışım var.
Qarışıbdır dünyam tamam,
Nə baharım, nə qışım var.
Kimi necə başa salım?!
Yüz dostum var, tanışım var,
Eh, nə isə...

Günlərimi sənə verdim,
Özümə gün bəyənmədim.
Neyləyim ki, ağır gəldi,
Qürurumu əyəmmədim?
Sənə çoxlu sözüm vardı,
Cürət tapıb deyəmmədim,
Eh, nə isə...

Olan oldu, keçən keçdi,
Nə deyim mən indən sonra?
Günüm də bir gün deyil ki,
Ömrüm-günüm, səndən sonra.
Gedib kimə ürcah oldun,
Allah bilir, məndən sonra…
Eh, nə isə…

## OVCUMA SÖZÜMÜN QANI TÖKÜLÜR...

Gəl məni o şirin röyama qaytar,
Gəl məni o nağıl dünyama qaytar.
Eybi yox, o şirin yalanlar olsun,
Səkilər, küçələr, dalanlar olsun.
Ağlını başından alanlar olsun,
Səni öz toruna salanlar olsun.

Qızlara xəlvəti dönüb baxasan,
Onların dalınca sutək axasan.
Amma ki gözümün qabağında ol,
Odumun, közümün qabağında ol.
Yaman usanmısam bu ayrılıqdan,
Min dəfə yanmışam bu ayrılıqdan.

Gəl, qurtar bu soyuq kədərdən məni,
Gəl qaytar özümə, gəl hərdən məni.
Yaman yorulmuşam bu yükdən, yaman,
Nə vaxtdır çin olmur qəlbimə daman.
Solub gör necə də bənizim mənim,
Sənsizlik olubdur ömrümə qənim.

İsti xatirənlə ürəyim gülür,
Ovcuma sözümün qanı tökülür.
Könlümdə hisslərin qətliamıdır,
Gəl yandır, ürəyim "bayram şamı"dır.
Səni istəyirəm təzədən görüm,
Sevən ürəyimə təzədən hörüm.

Bəraət vermişəm hər bir səhvinə,
Dərdimi düzmüşəm ömür rəfinə.
Qəlbimi keçmişlə naxışlamışam,
Mən səni lap çoxdan bağışlamışam.
Gəl məni o nağıl dünyama qaytar,
Gəl məni o şirin röyama qaytar.

## YOLLARINA QURBAN OLUM, QAYIT GƏL

Günlər, aylar gəlib keçir birtəhər,
Yollarına qurban olum, qayıt gəl.
Sənsiz məni elə sıxır bu şəhər,
Yollarına qurban olum, qayıt gəl.

Yanıb-yanıb külə dönüb közlərim,
Dadsızlaşıb baldan şirin sözlərim,
Ağlamaqdan nurdan düşüb gözlərim,
Yollarına qurban olum, qayıt gəl.

Ağrı, həsrət yaman inlər içimdə,
Qaboy sızlar, kaman inlər içimdə,
Sənsiz keçən zaman inlər içimdə,
Yollarına qurban olum, qayıt gəl.

Bir gül kimi açıb-solur ürəyim,
Gah boşalır, gah da dolur ürəyim,
Sevincimə zindan olur ürəyim,
Yollarına qurban olum, qayıt gəl.

Damağımdan dadı getməz bu eşqin,
Ürəyimdən odu getməz bu eşqin,
Silsən belə, adı getməz bu eşqin,
Yollarına qurban olum, qayıt gəl.

*10 mart 2022-ci il*

## ARZULARIN DÜZÜMÜ

Dərdlərin sinəsinə
Söykəmişəm üzümü.
Boynumda həmayildir
Arzuların düzümü.

Sənə necə, bilmirəm,
Mənə belə də xoşdur.
Telefon susub qalıb,
Mesaj qutusu boşdur.

İndi mənim gözümdə
Danın diri çağıdır.
Xatirə kitabımı
Külək didib-dağıdır.

Gecənin də könlünü
Sarıbdır qüssə, kədər.
Əzbərlədim yolları
Dan ulduzuna qədər.

Gecədən bir səs dəyib,
Silkələdi ruhumu.
Sənə göndərmişəm, yat,
Mən öz şirin yuxumu.

*25 aprel 2023-cü il*

## KÖNLÜMDƏ MİNLƏRLƏ QIZILGÜL AÇIR

Sevgilim, sevincim birə min olub,
Çoxdan quruyubdur gözümdəki nəm.
Evimə hər yandan nəfəsin dolub,
Mən səni sevəndən yalqız deyiləm.

Ən gözəl nəğmələr məni tapırlar,
Ən gözəl çiçəklər məni seçirlər,
Ən gözəl xəbərlər mənə çapırlar,
Çaylar ürəyimdən axıb keçirlər.

Ağrıma məlhəmsən bu dünyada sən,
Nə ruhum inciyər, nə könlüm ağlar.
Mənimdir yol boyu uzanıb gedən,
Çiçəkli bağçalar, meyvəli bağlar.

Başqadır bu eşqin adı, başqadır,
İstəsən, qıyaram gözümün yağın.
Ləzzəti başqadır, dadı başqadır,
Sənintək ovçuya turac olmağın.

Yaxşı ki, qovuşduq, yaxşı ki, varsan,
Könlümdə minlərlə qızılgül açır.
Bircə nəfəsimdən məni duyarsan,
Baxışım günəştək təbəssüm saçır.

Sev məni, həmişə, gəl elə sev ki,
Ürəyim hicranı soraqlamasın.
Sev məni, sevgilim, sən elə sev ki,
Odlu baxışlarım buz bağlamasın.

*13 dekabr 2020-ci il*

## SEVƏNLƏRƏ BİR MİSALAM

Eşqin şəklini havaya
Əllərimlə çəkən lalam.
Bu dünyanın dərdləriylə,
Qəmləriylə həsbi-halam.

Var-gəl etmə sola, sağa,
Bir nəzər sal sən o dağa.
Bu dünyayla oynamağa
Hələ çatmır yaşın, balam.

Gözlərimdə həsrət bitib,
Qanadımı odlar ütüb,
Məndən neçə nəğmə ötüb,
Oxu sınıq köhnə valam.

Sığınmışam təmiz ada,
Əyilmərəm dosta, yada,
Mən Aynuram, bu dünyada
Sevənlərə bir misalam.

*3 oktyabr 2021-ci il*

## AYRILIĞIN SOBASINDA YANMIŞAM

Qaralmışam, seçilmirəm kömürdən,
Məhəbbətin tavasında yanmışam.
Qışda məni dondurubdur qar-sazaq,
Yayın isti havasında yanmışam.

Həyatımda rahat ömür sürmədim,
Bir bağ saldım, meyvəsini dərmədim.
Seçdim, sevdim, səfasını görmədim,
Nakam eşqin cəfasında yanmışam.

Bu fələyin hiyləsinə aldanıb,
Əl uzatdım qanqallara gül sanıb.
Mən bir eşqin həsrətiylə odlanıb,
Ayrılığın sobasında yanmışam.

Açılmayıb nə səhərim, nə danım,
Axıb gedib bulaq kimi hey qanım.
Elə dərdə tuş olub ki, bu canım,
Dərmanında, davasında yanmışam.

Harda olsam, məhəbbətim seçilib,
Eşq yolunda şirin candan keçilib,
Yurdum, yuvam, ev-eşiyim kiçilib,
Sanki bir quş yuvasında yanmışam.

Nə gün doğar, nə də ki dan sökülər,
Yerin dizi, Göyün beli bükülər.
Görmüşük ki, davada qan tökülər,
Mən bu sevgi davasında yanmışam.

*18 oktyabr 2021-ci il*

## QƏFİLDƏN AĞZININ DADIMI QAÇDI?!

Deyirdin: "Unutmaq könlümə yaddır! ",
Könlünün odunu nə tez unutdun?!
And içdin: "Sevəcəm ölənə kimi! ",
Ay zalım, andını nə tez unutdun?!

Mənimlə könlünmü, gözünmü acdı,
Səntək vəfasıza kim qucaq açdı,
Qəfildən ağzının dadımı qaçdı,
Bu eşqin dadını nə tez unutdun?!

Qəbrin od tutacaq keçsə yüz illər,
Bu bir eşq idi ki, unutmaz ellər.
Yoxsa, yaddaşını sildi gözəllər,
Dostunu, yadını nə tez unutdun?!

Gör başın üstündə Allahı sən də,
Bütün olanların günahı səndə,
Aynur qoymayacaq bu ahı səndə,
Sevdiyin qadını nə tez unutdun?!

## GƏLDİYİN YOLLARA QURBAN OLARAM

Olduğun zirvədən enib gələrsən,
Gəldiyin yollara qurban olaram.
Sevgi ünvanına dönüb gələrsən,
Gəldiyin yollara qurban olaram.

Duam var bir ovuc, Allaha çatsın,
Ömrümə həsrəti, dərdi yubatsın,
Başqa nə deyim ki, könlünə yatsın,
Gəldiyin yollara qurban olaram.

Mənə səndən yaxın bir özgə kim var?!
Küsüb barışmaqtək bir adətim var.
Qaytar, səndə mənim səadətim var,
Gəldiyin yollara qurban olaram.

Könlümü yolunda bir şam edərəm,
Eşqini yanğımla mən ram edərəm,
Sənin gəlişini bayram edərəm,
Gəldiyin yollara qurban olaram.

Adını etmişəm ürəyimə həkk,
Gəl etmə Aynurun bu eşqinə şəkk.
Sürünnəm yolunda qızıl ilantək,
Gəldiyin yollara qurban olaram.

*3 yanvar 2024-cü il*

## BİZ DƏ BİR AZ ADAM KİMİ SEVİNƏK

Deyirsən ki, darıxma, tez gələcəm,
Nə kəm-kəsir işin varsa bitir, gəl.
Biz də bir az adam kimi sevinək,
Qəlbindəki qüssə-qəmi itir, gəl.

Bu dünyanın çirkabına bulanma,
Gülürsənsə, ürəyincə gül, amma
Görüşümə ətir alma, gül alma,
Gəlsən özün həyatıma ətir gəl.

Bu məhəbbət min çiçəkdən yoğrulub,
Oddan keçib, sudan keçib doğrulub,
Ürəyimdə misra-misra doğulub,
Yaranıbdır neçə gözəl sətir, gəl.

Baxışından baxışıma ləl ələ,
Uzun yoldur, ürəyini al ələ,
Hara desən, tutub gedək əl-ələ,
Bizdən ötrü göy üzüdür çətir, gəl.

Ay işıqlı bir axşamın çağında,
Sarı, gözəl bir binanın sağında,
Gözləyirəm "Filarmonya bağı"nda,
Aynurunun sevgisinə xətir, gəl.

*30 dekabr 2023-cü il*

## SƏNSİZ OLMUR, E... OLMUR

Yaşadığım ömürləsən, günləsən,
Sənsiz olmur, sənsiz olmur, e… olmur.
İnan mənə, yuxuda da, mənləsən,
Sənsiz olmur, sənsiz olmur, e… olmur.

Göz işığım, ay könlümün zəngini,
Dəyişmisən həyatımın rəngini,
Gözləyirəm hər saniyə zəngini,
Sənsiz olmur, sənsiz olmur, e… olmur.

Heç demirsən: "Yaxşı, bəsdir, az deyin,
Hava xoşdur, çıx bir gəzək, dur geyin! ",
Sənsiz, vallah, dadı qaçıb hər şeyin,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

Məndən bir söz gizlətmə ha, hardasan,
Ya başına bir iş gəlib, dardasan?
Sən həmişə sevgin ilə vardasan,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

Qoyma ümid qapısını bağlayım,
Ürəyimi həsrətinlə dağlayım.
Az qalıram, dəli-dəli ağlayım,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

Açıq qalıb Aynurunun qolları,
Həyata bax, arzu yarı, yol yarı...
Qarğıyacam gəlmədiyin yolları,
Sənsiz olmur, sənsiz olmur, e... olmur.

*11 yanvar 2024-cü il*

## GƏLMƏDİN

İzimizdə qərənfillər əkdilər,
De, qarşına ölüm çıxdı, gəlmədin?
Eşqimizi seriala çəkdilər,
Adımıza film çıxdı, gəlmədin.

Bülbül kimi yuva qurdum kollarda,
Sən uyudun gedib başqa qollarda,
Həsrətindən qabıq qoydum yollarda,
İlan kimi dilim çıxdı, gəlmədin.

Xatirəni yastığımla bölürəm,
Quru canam, ayaq üstə ölürəm,
Demişdin ki, üç-dörd günə gəlirəm,
"Qırx"ım çıxdı, "il"im çıxdı, gəlmədin.

"Sən mənimsən, gözəl mələk! ",– demişdin,
"Ayırammaz bizi fələk!", – demişdin,
"Darda olsan, yandır lələk!", – demişdin,
Özüm yandım, külüm çıxdı, gəlmədin...

## ÖZÜMƏ DÖNMƏYƏ GÜC TAPAMMIRAM

Hər yan iztirabdır, hər yan əzabdır,
Dünyada rahat yer heç tapammıram.
Hardadır qırxıncı otağı eşqin?
Gəl də bu qapını aç, tapammıram.

Təbib kömək olmur ağrıyanda can,
Yoxdur o səadət, boyuna qurban.
Mən özüm elədim bu ömrü zindan,
Səndə bir dənə də suç tapammıram.

Gör necə çətindir, gör necə çətin,
Qaldım girovunda dəli həsrətin.
Hər gecə uzanır əli həsrətin,
Gedib gizlənməyə künc tapammıram.

Dərdlərim içimdə buz heykəl yonur,
Qəlbimin evinə bayquşlar qonur.
Hardadır səadət deyilən o nur?
Gəzirəm, gəzirəm, heç tapammıram.

Bu dünya, bu aləm puçdur gözümdə,
Aynuram, qalmışam bu dağ dözümdə.
Çoxdan, ey, lap çoxdan yoxam özüm də,
Özümə dönməyə güc tapammıram!

*10 sentyabr 2021-ci il*

## KÖNÜL DƏFTƏRİMƏ ADI "CAN" DÜŞÜB

Oynatdı qəlbimi daha dərindən,
İlahi, ömrümə gözəl an düşüb.
Onun ümid dolu nəzərlərindən
Bəxtimə eşq adlı bir ümman düşüb.

Günü xoş keçəcək bir səhərdəyik,
Görəm ikimiz də bir şəhərdəyik,
Onunla eşq adlı bir səfərdəyik,
Həsrətin, hicranın yolu yan düşüb.

Hərdənbir küsürəm, könlümü alsın,
Mən qalan küçədən yolunu salsın,
Açıb ağartmıram, qoy gizli qalsın,
Könül dəftərimə adı "can" düşüb.

Gör necə düşübdür bu eşq vaxtına,
Hökmdar elədim şahlıq taxtıma,
Mənim qismətimə, mənim baxtıma,
Elə nə yaxşı ki, bu oğlan düşüb.

Gör necə xoşbəxtsən, gör necə, Aynur,
Qoxlayır çiçəktək, ətrindən doymur,
Gözündən uzağa bir addım qoymur,
Deyir, uzaqlaşsan, bil ki, "qan düşüb".

*29 dekabr 2023-cü il*

## XATİRƏLƏRİN

Saçımı oxşayan səhərin mehi
Pıçıltı səsidir xatirələrin.
Quşların dilindən qopan şərqilər,
Həzin nəğməsidir xatirələrin.

Ömür deyilənin toyu, yası da,
Suların coşğuyla çağlaması da,
Körpə bir sevginin ağlaması da
Şirin nəfəsidir xatirələrin.

Yuvamdan ayrılmış köçəri quşam,
Nə zaman vəd verib söz tutmamışam?!
İllərdir, mən onu unutmamışam,
Bu qədər bəsidir xatirələrin.

Səsimə səs vermir, laldır daş-divar,
Həsrəti ömrümdən kim gəlib qovar?
Göynəyib sızlayan qəlbimiz ki var,
Bağlı qəfəsidir xatirələrin.

Aynuram, nurumla bənzərəm zərə,
Qəlbimi titrədir hər bir mənzərə.
Geri boylanmağı – ötən günlərə
Dönmək həvəsidir xatirələrin.

*8 yanvar 2024-cü il*

## BİR DƏ GÖRÜŞÜNƏ GƏLMƏYƏCƏM MƏN

Qəlbimə dəymisən sən dönə-dönə,
Bir də görüşünə gəlməyəcəm mən.
Artıq son sözümü deyirəm sənə,
Bir də görüşünə gəlməyəcəm mən.

Əlimi biryolluq səndən üzəcəm,
Tənha dolanacam, ayrı gəzəcəm,
Özüm darıxsam da, amma dözəcəm,
Bir də görüşünə gəlməyəcəm mən.

Hər saat kövrəlib doluxacaqsan,
Sozalıb həsrətdən sınıxacaqsan.
Yadına düşəcəm, darıxacaqcan,
Bir də görüşünə gəlməyəcəm mən.

Qəm, kədər alnına cığır salacaq,
Yol çəkən gözlərin yolda qalacaq,
Sənə mənsizliyim həmdəm olacaq,
Bir də görüşünə gəlməyəcəm mən.

Gecə keçəcəkdir, söküləcək dan,
Səninçün bir ilə dönəcək hər an,
"Gələcəm" desəm də sənə yalandan,
Bir də görüşünə gəlməyəcəm mən.

*1 noyabr 2022-ci il*

## ƏLLƏRİ QOYNUNDA BİR QIZ AĞLAYIR

Nə yazı bəllidir, nə qışı daha,
Pozulub ömrünün naxışı daha,
Dayanmır gözünün yağışı daha,
Qalıbdır tək-tənha, yalqız ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

Hardasan, hardasan, yerini bildir,
Küsüb taleyindən gör neçə ildir,
Bacarsan gözünü günəşə sildir,
İçində nisgilli payız ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

Bu eşq çox qədimdir, Leylidən qalan,
Zülməti doğruydu, işığı yalan,
Gecə də, gündüz də gözləri nalan,
Göz yaşı üzündə bumbuz ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

Qəm-qüssə əlində qalıbdır naçaq[1],
Zindana dönübdür bu ev, bu ocaq,
Ağlaya-ağlaya dəli olacaq,
Sanki kəhkəşanda ulduz ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

---

[1] *Kefsiz, xəstə kimi, süst, əzgin, xəstəhal, nasaz.*

İlahi, göylərə al, ey, bu qızı,
Apar cənnətinə sal, ey, bu qızı,
Baha tutmalıydı tale bu qızı,
Bəs niyə bəxtinə ucuz ağlayır?
Əlləri qoynunda bir qız ağlayır.

## SƏPİM SƏRÇƏLƏRƏ QƏLBİMİ DƏNTƏK

Kimsə öyünməzdi, – "mənimdir" deyə,
Gizli saxlamışdım qəlbimi bərk-bərk.
Bir gün heç bilmədən bəlalı eşqin,
Endi gözlərimə dumantək, çəntək.

Dərd alın yazımı oxuyub silər,
Yoluma buludlar göz yaşı çilər,
Qayıdıb yenidən kim ala bilər,
Eh, məni özümdən bir daha səntək?

Ayrılıq araya düşdü mərmitək,
Sənsiz nə gününə yaşasın ürək?
Didib, tikə-tikə eləyim gərək
Səpim sərçələrə qəlbimi dəntək.

Vardı səadətim, bəli, sən adda,
O gündən nələrsə qaldımı yadda?
Get ara, get axtar, gör bu həyatda
Kim çəkər bu qədər həsrəti məntək.

## ƏZƏLDƏN BAĞLIYMIŞ BAXTI BU EŞQİN

Ağlıma gəlməzdi eşqə düşməyim,
Şimşəyi gözümdə çaxdı bu eşqin.
Məni alovları pərvanə kimi
Yandırdı bu eşqin, yaxdı bu eşqin.

Dedim ki, sevərəm qatıb cana-can,
Ya bu gün, ya sabah, nə bilim haçan?!
Gedib vüsalına qovuşanacan,
Selləri gözümdən axdı bu eşqin.

Deyirdim: "Ən parlaq ulduzum odur",
Söndü içimdəki alovu, odu.
Gedib başqasının çırağı oldu,
İlahi, harası haqdı bu eşqin?

Yollara boylandım gözləri yaşlı,
Oyun oynayırmış o ikibaşlı.
Görə bilməmişəm mən başı daşlı,
Əzəldən bağlıymış baxtı bu eşqin.

Yoxdur bu həsrətin zülmətində nur,
Udur sevgiləri, gözləri doymur.
Yazısı beləymiş, neyləsin Aynur,
Başına çevrildi taxtı bu eşqin.

*4 iyul 2023-cü il*

## MƏNİ MƏNDƏN GƏL APAR

Ərimişəm, qarışmışam sənə mən,
Gəl də məni özününkü bil, apar.
Həsrəti heç yuxuda da görməyək,
Ayrılığı aramızdan sil, apar.

Qəlbim sənin işığına tağlanıb,
Qara günlər bircə-bircə ağlanıb,
Bax gör necə bağçalanıb-bağlanıb,
Yanağımdan gəl bir dəstə gül apar.

Bir yaram var, öz əlinlə sarı, gəl,
Gözləyirəm, gəl könlümün yarı, gəl,
Yetişməsən atəşinə, barı, gəl,
Bu ocaqdan bircə ovuc kül apar.

Dövr edirəm gecə-gündüz qanında,
Güdükçünəm günün hər bir anında.
Mən, sən – kimik bu sevginin yanında,
Bacararsan, məni məndən gəl apar.

Mən Aynuram, öz ağlıma gülürəm,
Az qalır ki, deyəm, özüm gəlirəm.
Çox asandır, dildə demək "ölürəm",
Ölə bilsən, öl dərdimdən, öl, apar.

## YAZMAQ İSTƏYİRDİM DƏRDİMİ GÖYƏ

Sən mənə nə əcəb zəng eləmisən?!
Səndən nə müddətdir soraq yox idi.
Ot-alaq basmışdı könül bağımı,
Biçib qurtarmağa oraq yox idi.

İndi o yollarda hər dəfə çaş, qal,
İçində ayrılıq, gözündə yaş qal,
Özün bilirdin ki, əlindən başqa
Mənim tellərimdə daraq yox idi.

Nə qarğıya bildim, nə də ki söyə,
Qaldım gözlərimi hey döyə-döyə.
Yazmaq istəyirdim dərdimi Göyə,
Qələm tapanda da varaq yox idi.

Qoymadım üstündən quş belə səkə,
Heç vaxt gətirmədim adıma ləkə.
Səni başqaları çəkirdi, bəlkə,
Məndə özgəsinə maraq yox idi.

Canımı buz tutdu o odlu yayda,
Aynuram, desəm də daha nə fayda!
Onda – həmin gecə batmışdı Ay da,
O zülmət gecəmə çıraq yox idi.

*23 oktyabr 2021-ci il*

## OYATMA BU ŞİRİN YUXUDAN MƏNİ

Mən sənə işığam, havayam, suyam,
Oyatma bu şirin yuxudan məni.
Yatıram eşqinin ətrini duyam,
Oyatma bu şirin yuxudan məni.

Sevgiyə möhtacdır binadan bəşər,
Girməsin araya nə şeytan, nə şər,
Oyansam araya ayrılıq düşər,
Oyatma bu şirin yuxudan məni.

Gəldi bahar kimi, ruhum oynadı,
Sehrdir, tilsimdir, xəyaldır adı,
Qaçmasın bu şirin yuxunun dadı,
Oyatma bu şirin yuxudan məni.

Razıyam hərdənbir inci də, küs də,
Amma bütün bunlar olsun kaş üzdə.
Bir ömür yataram qolların üstdə,
Oyatma bu şirin yuxudan məni.

Aynurtək sevimli bir gözəl hanı,
Gəzsən, taparsanmı heç bu dünyanı?
Yuxulu yaşayım qoy bu sevdanı,
Oyatma bu şirin yuxudan məni.

## YOXDUR SUALLARA BİRCƏ CAVABIN

Sən məni bir dəfə tərk etmədin ki…
hər yağmur yağanda, külək əsəndə,
hər tufan qopanda tərk etdin məni.
Buludlar qoşulub ayrılıqlara
gözümə hopanda tərk etdin məni.
Soyudu masamda buğlanan çayım,
canımı buz tutdu isti odamda.
Mən hansı səadət axtarırdım ki,
sənintək duyğusu buz bir adamda?!
Sən məni tərk etdin hər gün, hər saat,
ağlayan ürəyim kirimədi heç.
Birdən yolun düşsə xatirələrə,
o görüş yerindən keç, yavaşca keç.
Amma, yox, bir ayrı həvəsə düşmə,
sanma ki, gözünə bir də nur ollam.
Qayıtmaz təzədən o anlar dönüb,
nə də mən təzədən o Aynur ollam.
Xoşdur tənhalığım, təkliyim daha,
səndən söz düşəndə içim daralır.
Seyr edə bilmirəm uzaq yolları,
başım gicəllənir, gözüm qaralır.
Yoxdur suallara bircə cavabın,
səndən nə soruşum mən bu xəzanda?
Səni xatırlamaq istəmirəm heç,
mən tapdım özümü sən yol azanda.

## YADINDAMI O GÖRÜŞ

Yadındamı o görüş?
Hər şeyi unutmuşduq.
Titrək əllərimizdən
Necə möhkəm tutmuşduq.

Ulduzumuz barışan
O gözəl yay axşamı.
Bir sən idin, bir də mən,
Bir də göylərin şamı.

Gəldin onda sən mənə –
Həyat verməyə gəldin.
Bu eşqin havasına
Rəqs eləyirdi qəlbin.

Sonra yağış da yağdı,
Gizləndik bir çətirdə.
Əriyib bihuş olduq
Sevgi adlı ətirdə.

Elə vururdu qəlbim
Sinəmdə yeyin-yeyin.
İlk dəfə onda daddım
Sevginin şirinliyin.

İlk dəfə onda öpdün –
Yanağımdan ilk dəfə.
Anamdan qorxa-qorxa
Gəlmişdim o gün evə.

Yanırdı ürəyimdə
Odun, ocağın, közün.
Qulağımda hələ də
Səslənirdi o sözün:

"Bütün möcüzələrdən
Ən üstün möcüzəsən...
Gəl mənim həyatımı
Varlığınla bəzə sən".

Yadındamı o görüş?
Hər şeyi unutmuşduq.
Titrək əllərimizdən
Möhkəm-möhkəm tutmuşduq.

*25 yanvar 2024-cü il*

## MƏNƏ YOLSAN BİR CIĞIRLIQ

Əgər bütün dünya dəyişsə də, bil,
sənə məhəbbətim dəyişən deyil!
Bütün səhvlərini bağışlamışam…
Mən səndən sərxoş oluram
illah da ki baxışlarından,
Dəli oluram odlu öpüşünün yağışlarından.
Ürəyimə yük deyilsən, qələmimə ağırlıq.
Ömrüm boyu mənə yolsan bir cığırlıq.
Sənə baxdıqca duruluram,
saat kimi quruluram,
dönə-dönə vururam.
Beləcə qalmaq istəyirəm bir ömür boyu...
Beləcə buludlardan yuxarı,
dodaqlarımda dodaqlarının buxarı.
Ürəyim istəyən şəkildə oxşayıram səni;
Bəzən də balaca bir uşağa oxşadıram səni...
Birdən dost oluruq, birdən düşmən,
sevgili olan vaxtlarımız da olur.
Məncə günah çox vaxt
Aynur adlı qızda olur.
Səni inandırmaq asan, səni aldatmaq çətin.
Ürəyinə qurban olum,
özüsən bu məhəbbətin.

## MƏN SƏNİ BAŞQA CÜR SEVƏ BİLMƏDİM

Bitdim baxışında, itdim səsində,
Mən səni başqa cür sevə bilmədim.
Sevgi axtarmadım bir özgəsində,
Mən səni başqa cür sevə bilmədim.

Tanrıdan doğulan xilaskar əldin,
Batırdım, qəfildən Nuh kimi gəldin,
Sən mənə can kimi, ruh kimi gəldin,
Mən səni başqa cür sevə bilmədim.

Aldanıb atılmış qız kimi sevdim,
Yarama səpilmiş duz kimi sevdim,
Səni bir ilahi söz kimi sevdim,
Mən səni başqa cür sevə bilmədim.

Tapdım gül qoxulu, gül iyli eşqi,
Qopardım həsrətdən gileyli eşqi.
Sən Məcnun eşqisən, mən Leyli eşqi,
Mən səni başqa cür sevə bilmədim.

Kim deyir, sevginin məkanı dardı?!
Sevgi bənövşədi, sevgi bahardı,
Səni başqa cür də sevmək olardı,
Mən səni başqa cür sevə bilmədim....

*20 may 2022-ci il*

## QAÇMAQ İSTƏYİRƏM BƏZƏN ÖZÜMDƏN

İpək tellərimdə illər keçsə də,
Titrək əllərinin həniri durur.
Mən səni hər dəfə xatırlayanda,
Nəfəsin üzümə, gözümə vurur.

Aydın səmalara üzümü tutub,
Demək istəyirəm: "Adımı çağır!"
Ömrümə buz kimi küləklər əsir,
Qəlbimə buz kimi yağışlar yağır.

Təbiət özü də yorğun görünür,
Vaxt ötür, gün batır, qaralır axşam.
Yollara baxıram, istər-istəməz
Səni gözləyirəm masamda bir şam…

Sevincin mənimdir, kədərin mənim,
Adınla bağlıdır bu duyğu, bu hiss.
Qəlbimin tufanı yatıb içimdə,
Susub dayanıram, beləcə səssiz.

Qaçmaq istəyirəm bəzən özümdən,
Qaçmaq istəyirəm, qaça bilmirəm.
Məhəbbət, doğrudan, bir yuxu imiş,
Hələ də gözümü aça bilmirəm.

Bir bilsən könlümün istəklərini…
Sükuta qərq olub sinəmdə adın.
Boğulur həsrətin burulğanında
Bir zaman yolunda öldüyün qadın.

*26 oktyabr 2021-ci il*

## BİLMƏDİN YURDUN MƏNİ

Şəklini məndən asan,
Divarmı gördün məni?!
Mən bir "Qız qalası"yam,
Sən özün hördün məni.

Qürurumu sən əydin,
Mənimçün bir dənəydin.
Bir yaşılbaş sonaydım,
Gölümdə vurdun məni.

Susdun, qaldın lal kimi,
Qəlbimdəki xal kimi.
Bir sonsuz xəyal kimi
Uçurdun, qurdun məni.

Bir vaxt dilində vardım,
Səni ruhuma sardım,
Sənə "Vətən" olardım,
Bilmədin yurdun məni.

*22 may 2022-ci il*

## SƏNƏ GÖRƏ, SƏNƏ GÖRƏ, ÜRƏYİM

Dəyişmişəm, bax, saçımın rəngini
Sənə görə, sənə görə, ürəyim.
Zəng edirsən, ötürürəm zəngini
Sənə görə, sənə görə, ürəyim.

Başlayıbdır nəhs illəri ömrümün,
Çoxalıbdır kəsirləri ömrümün,
Qarışıbdır fəsilləri ömrümün
Sənə görə, sənə görə, ürəyim.

Gözlərimdə gah buluddur, gah yağış,
Qəmli baxır sən gördüyün o baxış,
Könlüm indi yarı yazdır, yarı qış
Sənə görə, sənə görə, ürəyim.

Güllü donum geyilməmiş köhnəlib,
Göz yaşımdan yanaqlarım şehlənib,
Bilirsənmi, bu qız niyə kövrəlib? –
Sənə görə, sənə görə, ürəyim.

Vüsalının mənzilinə çatmıram,
Həsrətindən gecələri yatmıram,
Evdən çölə bir addım da atmıram
Sənə görə, sənə görə, ürəyim.

Aynur indi hardan alsın dözümü?
Tapammıram bu müşkülə çözümü.
Unutmuşam, itirmişəm özümü
Sənə görə, sənə görə, ürəyim.

*19 sentyabr 2023-cü il*

## QADINAM

Taleyin dar ağacını
Boynunda çəkən qadınam.
Düyün düşən fikirləri
Beynində çəkən qadınam.

Keçdin məndən qisas kimi,
Yas görmədim bu yas kimi,
Dərdi geyib libas kimi
Əynində çəkən qadınam.

Yaşadım ən ağır günü,
Yandırdım Simurq tükünü,
Həyatın kişi yükünü
Çiynində çəkən qadınam.

## YOX, O SEVDİYİN QIZ MƏN OLMAMIŞAM

Yıxıldı başımdan eşqin dünyası,
Elə xəyal eylə sən, olmamışam.
Acıdan acıdır qəmin gözyaşı,
Sanki həyatda heç şən olmamışam.

Axı səninkiydi bu qurulu taxt,
Bu taxtın üstündə gülmədi bu baxt.
Günəşə dönmüşəm səninçün hər vaxt,
Sənintək sis, duman, çən olmamışam.

Gəldim xəyallardan təzə-tər sənə,
Oldum ləli-gövhər, simuzər sənə,
Nə qüssə vermişəm, nə kədər sənə,
Nə də ki saçında dən olmamışam.

Gözümdən şəfəqlər ələmişəm mən,
Hər kəsə xoşbəxtlik diləmişəm mən.
Bəhsi mələklərlə eləmişəm mən,
Özgə birisinə tən olmamışam.

Həsrət qaçılmazdır həyatda, bildim,
Adını dilimdən biryolluq sildim,
Mən bu cür sevgiyə layiq deyildim,
Yox, o sevdiyin qız mən olmamışam.

*16 noyabr 2021-ci il*

## SƏN ÖZÜN YAZ ÖZ EŞQİNLƏ ALIN YAZINI

Görüşəndə dalğın idi düşüncələrin,
Qəribəydi qəfil mənə sarılmağın da.
Gözlərində əks olunan payız soyuğu
Söndürmüşdü şöləsini son ocağın da.

Mən heç bir şey söyləmədim sənə o anda,
Uzaqları seyr elədim çiyninin üstdən.
Deyən salıb itirmişdin məni hardasa,
Yox, bu dəfə o deyildin, başqa idin sən.

Ürəyimi nişan almaq yerinə o gün,
Vurdun məni havalanan qanadlarımdan.
Sənə nə var, daşürəklim, sən hiss etmədin,
Dünya qopdu məvhərindən mənimçün o an.

Onda sənə nəsə demək istədim, ancaq
Dodaqlarım kilidləndi, yəni ki, boş ver:
"Mən bir göylər ulduzuyam, səmalar qızı,
Sənin isə məkanındır sadəcə bu Yer".

Yer adamı çətin duysun Göylər qızını,
Dəyəri yox o adamın bir yarpaq qədər.
Sən özün yaz öz eşqinlə alın yazını,
Qoyma məsud ürəyinə iz salsın kədər.

*5 dekabr 2022-ci il*

## HƏR SƏNİ DÜŞÜNƏNDƏ

Arzular xəyal qurur
Hər səni düşünəndə.
Ürəyim vurmur, durur
Hər səni düşünəndə.

Ayrılıq məni sıxır,
Qürurum məni yıxır,
Dünyam yadımdan çıxır
Hər səni düşünəndə.

Ruhuna tən oluram,
Bir ovuc dən oluram,
Çevrilib sən oluram
Hər səni düşünəndə.

Ömür mənə şam gəlir,
Könlümə ilham gəlir,
Ruhuma dad, tam gəlir
Hər səni düşünəndə.

Çox gileyli oluram,
Şeytan feyli oluram,
Dönüb Leyli oluram
Hər səni düşünəndə.

*26 may 2022-ci il*

## QAYIT GƏL

Yolda qalıb gözlərim,
Qulaqlarım səsdədi.
Hardasan, ay sevgilim?!
Könlüm səni istədi.

Mən bir az səbirliyəm,
Bir azca da qərarsız.
Qəlbim səni istəyir,
Səni və səni yalnız.

Sənsən könül həmdəmim,
Səndən özgə kimim var?!
Gen dünyanı başıma
Gedib eləmisən dar.

Həsrətindən sübhədək
Sıxılıram, qayıt gəl.
Eşqinin zirvəsindən
Yıxılıram, qayıt gəl.

Civə kimi heç yerdə
Qərar tutmuram bir an.
Nə olar, gəl sən məni
Qurtar bu sıxıntıdan.

*11 oktyabr 2021-ci il*

## SƏNİ BAĞIŞLAMAQ ÇƏTİNDƏN-ÇƏTİN

Xəbərsiz-ətərsiz çıxıb getmisən,
Ağlıma gəlməzdi bu hərəkətin.
Dünyanı üstümə yıxıb getmisən,
Sənin qayıtmağın çətindən-çətin.

İnana bilmirəm, yox-yox, hələ də,
Bir də görməyəcəm o nəvazişi.
Mənə gərək deyil məncə, belə də
Sözünün üstündə durmayan kişi.

Bu da bir dərs olsun, yaxşıca bir dərs,
Bu dərdi sevərək nuş eyləyərəm.
Mən bir də qəlbimi inanıb əbəs
Çətin ki namərdə tuş eyləyərəm.

Qüdrətin bu səddi yarmağa çatmaz,
Götürməz ürəyim o boş qılığı.
Yüz vulkan olsa da, qoparıb atmaz
Qəlbimdə doğulan peşmançılığı.

Xəbərsiz-ətərsiz çıxıb getmisən,
Ağlıma gəlməzdi bu hərəkətin.
Dünyanı üstümə yıxıb getmisən,
Səni bağışlamaq çətindən-çətin.

*3 may 2023-cü il*

## SƏN GETDİN...

Sən getdin, elə bil gəlməmişdin heç,
Yox oldun ömrümdən uzaqlar kimi.
Qalmadı o andan ürəyimdə güc,
Hönkürüb ağladım uşaqlar kimi.

Zirvələr gözümdən yıxıldı getdi,
Məndə nə ruh qaldı, nə ürək, nə can.
Bütün gözəlliklər yox oldu getdi,
Bütün ecazını itirdi cahan.

Sən mənim ömrümdən yel kimi keçdin,
Bir eşqin səadət çırağı söndü.
"Ayrılıq ölümdən betər!", – demişdin,
Bəs niyə adi bir xəbərə döndü?!

Dördgözlə gözlədim hər saat, hər an,
Hər sözüm, hər kəlməm səndən başladı.
Sən idin hər tərəf, sən idin hər yan,
İndisə ovunmur hicran yaşları.

Getmisən, özüm də özümə yadam,
Yoxdur qulağımda o səda, o səs.
Bir anlıq həsrətə dözməyən adam,
Bir ömür həsrətə necə dözür bəs?!

*6 mart 2023-cü il*

## MƏNƏ SÜBUT ELƏ ƏSL SEVGİNİ

Mənim ürəyimin dərinliyində
Bir gizli sevda var üzə çıxmayan.
Bəlkə, axıb getsin yeraltı çaytək,
Qazmağa cəhd etmə, hələlik dayan.

Girmə o ümmana, bata bilərsən,
Bəlkə, heç çağırmır bu mayak səni.
Heç zaman heç bir kəs saxlaya bilməz,
Mənə göndəribsə, əgər Haqq səni.

Doğmadır könlümə əsən küləklər,
Günəş də doğmadır, yağış da, hətta…
Qoy görüm nə deyir o falçı qadın,
Varmı taleyimdə kimsə sən adda?

Məni sevirsənsə, bu eşqə qol qoy,
Qəfil öz sevginlə utandır məni.
Mənə sübut elə əsl sevgini,
Məhəbbət dilində vəsf edim səni.

Əgər sevirsənsə, çəkinmədən de,
Məhəbbət kişidən cəsarət istər.
Məni misra-misra ruhuma hopdur,
Mənə gözlərində cənnəti göstər.

*25 avqust 2022-ci il*

## BARIŞA BİLMİRƏM HƏSRƏTİNLƏ MƏN

Qanadı qırılmış "qu"ya dönürəm,
Barışa bilmirəm həsrətinlə mən.
Hər gecə bir ovuc suya dönürəm,
Barışa bilmirəm həsrətinlə mən.

Saxlayır içimdə ismət, ar məni,
İkiyə qatlayıb intizar məni.
Sıxır səhər-axşam dörd divar məni,
Barışa bilmirəm həsrətinlə mən.

Xəyalım göylərdə sərgərdan gəzir,
Dilim topuq vurur, ürəyim əsir,
Məni ayrılığın soyuğu kəsir,
Barışa bilmirəm həsrətinlə mən.

Bayırda Günəş var, içimdə qışdır,
Dünyanı az belə qatıb-qarışdır.
Əgər bacarırsan, gəl də barışdır,
Barışa bilmirəm həsrətinlə mən.

Aynuram, könlümə yatmadı bu iş,
Ayrılıq hər yerdən diş qıcayır, diş.
Ölüm aramıza düşməmiş yetiş,
Barışa bilmirəm həsrətinlə mən!

## MƏN BİR EŞQ BÜRCÜNDƏNƏM

Bir kimsə duya bilməz qəlbimdəki ecazı…
Mən bir eşq bürcündənəm,
bu yazı Haqdan yazı.
Arzularım, xəyallarım
bircə özümə bəllidir,
Ümidim mənə mükafat vəd edən
tək təsəllidir,
şəfəqlər içindəyəm…
Günəş bir tel ayırıb ürəyimə
saçından,
Yığılmışam özümə
yolların ayrıcından.
Bu bürc lap uzaqlarda
yanan ulduza bənzər,
Pəncərədən yollara
boylanan qıza bənzər.
Mən bir eşq bürcündənəm,
heyva çiçəklərinin ətrinə bələnmişəm,
Bu sevdanın ovcunda
nartək dənələnmişəm…
Bu gün yaxınlaşdım
Sahil bağındakı yaşlı falçı qadına,
"Bir halıma bax, "– dedim,
"Bir falıma bax," – dedim,
"Gələcəkdən xəbər ver, nələr gözləyir məni?"

Dedi: "Aç ovcunu, baxım balaca dünyana".
Ovcumdakı xətlər gəldi cana,
hərəsi bir yola döndü,
hərəsi bir izə döndü,
Birisi səmaya,
birisi dənizə döndü.
Dedi: "Bürcünü söylə",
dedim: "Eşq bürcündənəm",
Başdan-ayağa süzdü,
hətta dodaq da büzdü:
"Belə də bürcmü olar,
yoxsa havalanmısan?
Bəlkə, pərvanə kimi
vaxtsız odda yanmısan?! "
– "Niyə də olmasın ki?
Var, əlbəttə, belə bürc.
Odur yalnız həyatda
mənə inam verən güc.
Mən bir eşq bürcündənəm,
odur səhər küləyi,
odur axşamın mehi.
Bu bürcü anlayacaq bircə kəs var həyatda,
o da sevgi dünyamda
Ürəyimin Fatehi.

*13 oktyabr 2022-ci il*

## SƏNİNÇÜN GƏLMİŞƏM BU DÜNYAYA MƏN

Qapanma dünyanın dərdi-qəminə,
Hər vaxt məhəbbətlə qaynasın qanın.
Mənimtək gözəlin gül qədəminə
Uzaq üfüqlərdə sökülsün danın.

Doyma təbiətin gözəlliyindən,
Çöl, çəmən rəngbərəng, çiçək-çiçəkdir.
Səninçün gəlmişəm bu dünyaya mən,
Ürəyin mənimlə döyünəcəkdir.

Qoyma ürəyinə həsrəti bir dəm,
Hər zaman xatırla, hər gün an məni.
İşığım olmasan, olmazdı kölgəm,
Sənin xəyalındır yaşadan məni.

Gör necə gözəldir qanadlı quştək
Eşqin havasıyla göylərə uçmaq.
Gör necə gözəldir yağıb yağıştək
Çaylartək qol açıb dünyanı qucmaq.

Sən mənim taleyim, sən mənim yazım,
Qoy bu saf sevgiyə ləkə düşməsin.
Budur bu dünyada ən şirin arzum –
Baharım xəzanla heç görüşməsin.

Araya girməsin nifrət, qəzəb, kin,
Qəfil sarsılmasın heç nədən ürək.
Gəl elə vuraq ki, möhrünü eşqin,
Dünyanı bir az da gözəlləşdirək.

*4 fevral 2023-cü il*

## SƏNİN ÜRƏYİNƏ KÖÇƏN AYNURAM

Görəndə gözünə toran gəlməsin,
Nə duman Aynuram, nə çən Aynuram.
Əhdinə, sözünə vəfalı yarın
Yolunda canından keçən Aynuram.

Uyu qollarımda, çəkim keşiyin,
Sənsən ilk eşqimin sevda beşiyi.
Atıb birdəfəlik evi, eşiyi,
Sənin ürəyinə köçən Aynuram.

Yoxdur vüsalından başqa həll mənə,
Yoxdur bir maneə, bir əngəl mənə.
Sən adi qız kimi baxma gəl mənə,
Məhəbbət meyini içən Aynuram.

Bizim aramızda gizli sirr olmaz,
Mənimtək gözələ kim əsir olmaz?!
Dediyim heç sözdə kəm-kəsir olmaz,
Hər şeyi yüz ölçüb, biçən Aynuram.

*26 dekabr 2022-ci il*

## BİR DAMLA YAŞ

Bir damla yaş düşdü gözümdən sənə,
Bu yaş qəmin idi, kədərin idi.
Dönüb dəniz oldu gözlənilmədən,
Bilməzsən, mənası çox dərin idi.

Həsrətin sinəmi dəlib keçirdi,
Qəlbin dərddən başqa yükü yox idi.
Məni bir quyuya tullamışdılar,
Yanımda bir Simurq tükü yox idi.

Qalayıb getmişdik könlümüzdə od,
Görüş yerlərimiz sönmüş ocaqdır.
Axı demişdin ki, bizim sevginin
Ömrü çiçək qədər olmayacaqdır.

Mən axı bilmirəm kimdir günahkar,
Kim bizi odlara yaxdı, bilmirəm.
Ayları, illəri qarışdırmışam,
Saatı bilmirəm, vaxtı bilmirəm.

Kaş bilə biləydin, necə sənsizəm,
Kaş bilə biləydin, necə yetiməm.
Mən sənin başına eşqimlə birgə
Dolanan yeganə planetinəm.

*7 sentyabr 2023-cü il*

## ÇALINSIN SEVGİNİN ZƏNGİ...

Səndən nə müddətdir səs gözləyirəm,
Çalınsın sevginin zəngi, gələcəm.
Gecikə bilərəm, səbrini bas, döz,
Oturub bir azca ləngi, gələcəm.

Mənəm qəlbindəki o ad – beş hərfdən...
Durnatək yol azıb qalmaram səfdən.
Qorxma, ömrüm-günüm, mənim tərəfdən
Pozulmaz bu eşqin rəngi, gələcəm.

Mənasız keçirdim illərimi mən,
Açmışam Tanrıya əllərimi mən,
Saz kimi kökləyib tellərimi mən,
Çalacam eşqimə "Cəngi", gələcəm.

Neylər eşqimizə qopsa tufanlar!
Can canın çəkdiyi ağrını anlar.
Könlündən axmasın qoy qara qanlar,
Əmin olmalısan, mən ki gələcəm.

Aynuram, könlümdə nə qədər zədə,
Çırpınır ürəyim sanki nizədə,
Məğlub olmayacam mübarizədə,
Eyləyib qələmi süngü, gələcəm.

*15 aprel 2022-ci il*

## GÜNLƏRİN BİR GÜNÜ...

Gözünü yandırma göz yaşı ilə,
Çəkəcəm zamanı geri, gələcəm.
Günlərin bir günü mənə zəng açıb
Deyərsən olduğun yeri, gələcəm.

Hardasa sıxırsa o istək səni,
Qoy durum mən özüm minnətə gəlim.
Sən çıxıb gedəndən buz bağlayıbdır,
Quruyub qalıbdır ayağım, əlim.

Gələcəm nə zaman könlün istəsə,
Qəlbimdə dağ boyda məhəbbət yüküm.
Gələcəm, gələcəm, gələcəm səni
Duyğuma bələyim, hissimə büküm.

Gəlim qollarında yaz yağışıtək,
Ağlayım, hönkürüm, durulsun içim.
Sənin ürəyinlə, mənim əlimlə
Bizə bu sevgidən yeni don biçim.

Gələcəm, hopacam ruhuna sənin,
Adımız gəzəcək bütün elləri.
Bir də əsməyəcək, əmin ol buna,
Heç vaxt aramızdan xəzan yelləri.

*19 yanvar 2024-cü il*

## ADINI QƏLBİMƏ BAŞDA YAZMIŞAM

Qəlbimdə çox arzu, güman bəsləyib,
Ümid dəftərinə "kaş ki..." yazmışam.
Sirrimi hamıdan pünhan bəsləyib,
Ən gözəl sözləri eşqə yazmışam.

"Ruhuma dad verib bahar yelləri",
Gözümdən axsa da payız selləri.
Mən öz qəlbimdəki zərif telləri
Üçdə sınamışam, beşdə yazmışam.

Şirin duyğulara məni aparan,
Ömrümdə fırtına, tufan qoparan,
İstərəm mən olum sənin can paran,
Bunları ən müdrik yaşda yazmışam.

Səadət bu gündür, dünən deyil ki,
Könlüm bu sevdadan dönən deyil ki,
Odum, hərarətim sönən deyil ki,
Nə olsun ömrümə qışda yazmışam.

Dünya bir yanadır, sən bir yanasan,
Sənə bu məhəbbət gəlməsin asan.
Aynuru özünə könül dostu san,
Adını qəlbimə başda yazmışam.

*21 fevral 2024-cü il*

## SƏNİ GÖZLƏYİRDİM

Mən elə bilirdim, o sənsən gələn,
Dayanıb durmuşdum yolayrıcında.
Səni gözləyirdim illərdir ki, mən
Həsrətin, hicranın ayaq ucunda.

Naxış da vurmuşdum, bəlkə, min yerdən
Qəlbimdə yüksələn eşq sarayına.
Bəs niyə gəlmədin, yetişmədin sən
Bu qızın bircə yol ah-harayına?

Heyif, öz bəxtini yazmayır hərə,
Niyə utanmalı axı üz haqdan?
Yuxuma girmişdin azı yüz kərə,
Səni tanıyardım gəlsən uzaqdan!

Möcüzə gözlədim, sehr gözlədim,
Qəlbimdə tutduğum bu saf niyyətdən.
İndi bu sirrimi kimdən gizlədim,
Sən gəlib çıxmadın əbədiyyətdən.

Səni gözləyirdim, səndən nə danım,
Sən mənim canımda, qanımda idin.
Zülmət gecəm idin, işıqlı danım,
Gecə də, gündüz də yanımda idin.

Yox idin, var idin – deyə bilmərəm,
Küsüb barışırdım xəyallarımla.
Məni içəridən çeynəsə də qəm,
Mən səni sevirdim öz hallarımla.

Gələydin ömrümün bahar çağında,
Nə bilim, qışında gəlib çıxaydın.
Əyləşib könlümün bir budağında,
Deyəydin: "Gəlmişəm, gözlərin aydın! "

*24 noyabr 2023-cü il*

## HEYKƏL QOYAQ BU SEVGİYƏ

Bilirsənmi, harda bitir
Bu sevginin sərhədləri?
Göz yaşıma səbəb olar,
Gəl unutma o vədləri.

Qopar qanlı qasırğalar,
Təsəllilər kömək etməz.
Sönər zərrin şəfəqlərim,
Gözlərimə çimir getməz.

Pozulmasın nəşəmiz heç,
Aydır, gündür doğar-batar.
Amma soyuq baxsan mənə,
Bircə anda qəlbim yatar.

Elə bil ki bir nağılsan
Keçmişlərdən qopub gələn.
Şirin-şirin, dadlı-dadlı
Ürəyimə hopub gələn.

Elə tutaq sirrimizi,
Özgələrə bilinməsin.
Bir-birindən gözəl günlər
Unudulub silinməsin.

Qarşılaşdıq qəfil bir gün,
Heç bilmirəm nədən, niyə?
Gəl bir ölməz heykəl qoyaq,
Qəlbimizdə bu sevgiyə.

*7 mart 2024-cü il*

## TƏNHALIQ

Səndən ötrü bu gecə
Yamanca darıxmışam.
Qapıdan boylanmışam,
Pəncərədən baxmışam.

Necə olur tənhalıq,
Mən bu gecə duymuşam.
Demək, sənsiz heçmişəm,
Demək sənsiz buymuşam.

Sanki heç bitməyəcək,
Gecənin qaranlığı.
Necə də xatırladır
Otağım viranlığı.

Gözüm qalıb qapıda,
Nə örtən var, nə açan.
Bu əziyyət, işgəncə
Axı bitəcək haçan?

Gecə də hey uzanır,
Qurtarmır ki, gələ dan.
Mənim yazıq canımı
Kim qurtarar əzabdan?

Pozulubmu həyatın
Tanrı yazan qanunu?
Bu qəlb sıxan gecənin
Olacaqmı bir sonu?!

Kaş elə bu andaca
Sən qapıdan girəydin.
Aynurun nə haldadır,
Gözlərinlə görəydin.

*25 oktyabr 2023-cü il*

## BAŞINI QOY SİNƏMƏ

Başını qoy sinəmə,
Dinlə qəlbimin səsin.
Bircə anda qarışsın
Nəfəsimə nəfəsin.

Tut eləcə, ayırma
Əllərini əlimdən.
Uzaqlaşaq bir azca
Dərddən, qəmdən, ələmdən.

Gəl birgə qalib gələk
Həsrət boyda qoşuna.
Yaşanacaq bir ömrü
Keçirməyək boşuna.

Başını qoy sinəmə,
Dinlə qəlbimin səsin.
Gör nə qədər sevgi var
İçində bu qəfəsin?!

Mənim üçün bu sevgi
Həyat qədər şirindir.
Başını qoy sinəmə,
Ora sənin yerindir.

Başını qoy sinəmə,
Qalaq elə beləcə.
Heç bilməyək nə zaman
Sona çatdı bu gecə.

## SƏNİNƏM

Küsüb hara gedirsən?
Öz qəlbini didirsən.
Niyə şübhə edirsən?
Səninəm.

Lap dünya dağılsa da,
Göy yerə yıxılsa da,
Sevənlər yığılsa da,
Səninəm.

Burda bir qız qarıdı,
Görən kimin yarıdı?
Meylim sənə sarıdı,
Səninəm.

Baxsan özgə adama,
Göndərərəm edama.
Sənsən dözən ədama,
Səninəm.

Sudan da dupdurunam,
Balığımsan, torunam.
Sevdiyin Aynurunam,
Səninəm. *1 iyun 2022-ci il*

## BƏLKƏ, YAXINDADIR, BƏLKƏ, UZAQDA...

Qəlbimdən kövrək bir titrəyiş keçir
Hər dəfə uzaqdan görəndə onu.
Özüm də bilmirəm, necə olacaq
Qəlbimi odlayan bu eşqin sonu.

Əriyir, yox olur könlümün buzu,
Hər gün qulağımda dinən səsində.
Çırpınıb qalıram balaca quştək
Onun gözlərinin cazibəsində.

Gözlərim dikilib getdiyi yola,
Bəlkə, yaxındadır, bəlkə, uzaqda...
Bu gizli eşqimi dilə gətirib,
Görəsən, nə yazım ona bu haqda?!

Unutsam, üstümə gələr divarlar,
Unutmaq çətindir, bu mümkün deyil.
İlahi, bu eşqi özgəyə qıyma,
Onsuz bu dünyada günüm gün deyil.

*7 mart 2023-cü il*

## YUXUMDASAN SÜBHƏ KİMİ HƏR GECƏ

Bu yaz günü ürəyimə bilmirəm,
Hansı duyğu, hansı hissdən gəlirsən.
Qurban olum, gir qəlbimdə günəşlən,
Bəlkə, çəndən, bəlkə, sisdən gəlirsən.

Bəzən durub öz-özümə gülürəm,
Bura qədər nə səhvin var, silirəm,
Suçlu-suçlu baxmağından bilirəm,
Sevgi dolu bir məclisdən gəlirsən.

Bu qismətdir, Tanrı yazıb neyləyim,
Bilirsən ki, təkcə sənsən taleyim,
Bir imkan ver, bircə söz də mən deyim,
Niyə axı belə üstən gəlirsən?!

Nail oldun bu qüdrətə sən necə?!
Yuxumdasan sübhə kimi hər gecə,
Xilas yoxdur bu sevgidən zərrəcə,
Həm ürəkdən, həm nəfəsdən gəlirsən.

Mən Aynuram, bu sevgidən doymaram,
Bir günümə həsrət-hicran qıymaram,
Səni heç vaxt dar ayaqda qoymaram,
Doğma ruhdan, doğma səsdən gəlirsən.

*30 mart 2023-cü il*

## SEVDİYİN QADINAM MƏN

Saatın xoş anında,
Görüşdük zamanında.
Bir eşqin kamanında
Ən həzin ladınam mən,
Sevdiyin qadınam mən.

Gör mən kimin yarıyam?!
Meyli sənə sarıyam,
Eşqinin nübarıyam,
Ləzzətin, dadınam mən,
Sevdiyin qadınam mən.

Elə sev, çaşdır məni,
Eşqə alışdır məni.
Dindir, danışdır məni,
Düşünmə yadınam mən,
Sevdiyin qadınam mən.

Qol-qanad aç üstümə,
Qorxma, yüyür tüstümə,
Dur gəl, qızın istimə,
Alovun, odunam mən,
Sevdiyin qadınam mən.

Düş gözümdən bəndə sən,
Görməmisən rəndə sən.
Məndəsən, e... məndəsən,
Ünvanın, adınam mən,
Sevdiyin qadınam mən.

*5 may 2021-ci il*

## AYNUR ANCAQ SÖZLƏRİNDƏ YAŞAYIR

Sənin odlu baxışların hələ də,
Ürəyimin közlərində yaşayır.
Arxasınca süründüyün o qızın,
Unutduğun gözlərində yaşayır.

O yolları, o izləri qar almış,
Dözəmmirəm, səbrim tamam daralmış.
Xatirələr albomlarda saralmış,
Şəkillərin özlərində yaşayır.

Oyat məni, uzun çəkdi bu yuxu,
Yox bu eşqin nə gəmisi, nə Nuhu.
Səndən sonra nə cismi var, nə ruhu,
Aynur ancaq sözlərində yaşayır.

*17 yanvar 2022-ci il*

## GÖZLƏYİRƏM MƏN SƏNİ

Kaş açaydım gözümü,
Yanımdasan, görəydim.
Yenə sənə vurulub,
Bir də könül verəydim.

Nur saçaydı gözlərin
Çöhrəmə bir işıqtək.
Hey atılıb düşəydim
Sevincimdən uşaqtək.

Bir də fürsət düşəydi,
Biz baş-başa qalaydıq.
Xatırlayıb keçmişi
Xəyallara dalaydıq.

Oturub şirin-şirin
Sevgidən danışaydıq.
Eşqimizin oduna
Bir yerdə alışaydıq.

Gözləyirəm mən səni,
Hardasan, gəl, sevgilim.
Gəl, qoy sənsiz keçməsin,
Bundan sonra bir ilim.

*18 yanvar 2022-ci il*

## MƏN BİR ÇİÇƏK QADINAM

Özün dər, qoxla məni,
Təzə açmış çiçəyəm.
Elə təravətliyəm,
Çiçəkdən də göyçəyəm.

Qonub ləçəyim üstə
Bal çəkir arı məndən.
Heç cür ağ ola bilməz
Dağların qarı məndən.

Gördüyün bu çəməndə
Mənəm güllərin xası.
Kəpənəyə göz vurur
Gözümün şeh damlası.

Şaxələnib tellərim,
Ləçək-ləçək qadınam.
Çiçəklərin içində
Mən bir çiçək qadınam.

Mən elə bir çiçəyəm,
Heç qışda da solmaram.
Sənintək bülbülüm var,
Başqasının olmaram.

*12 oktyabr 2023-cü il*

## QƏLBİN EVİMDİR MƏNİM

Məhəbbət yolu olan
Qəlbin evimdir mənim.
Sevgiylə dolu olan
Qəlbin evimdir mənim.

Ünvanı dilimdədir,
Eşq adlı filmdədir,
Açarı əlimdədir,
Qəlbin evimdir mənim.

Nahaq yerə küsmüşəm,
Mən pərvanə, sənsə şəm,
Qeydiyyata düşmüşəm,
Qəlbin evimdir mənim.

Dağım, düzüm, dərəmdir,
Hər bir dərdə çarəmdir,
Gözlərin pəncərəmdir,
Qəlbin evimdir mənim.

Şərəf-şan içindədir,
Toy-nişan içindədir,
Kəhkəşan içindədir,
Qəlbin evimdir mənim.

Həm işığam, həm nuram –
Taleyinə uğuram.
Qəlb verdiyin Aynuram,
Qəlbin evimdir mənim.

*1 may 2022-ci il*

**GEDİM**

Həsrətin qışında nə qədər əsim?
Olsun bahar kimi hər günüm, gedim.
Sənə uzaqlardan çatarmı səsim,
Yetərmi, sevgilim, bir ünüm, gedim?

Qıyma bu sevgiyə, dəlim, ay dəlim,
Unut bu sərtliyi həlim ol, həlim,
Təqvimindən mənə gün ayır, gəlim,
Ömründə bircə gün görünüm, gedim.

Sevgi ağacının budaqlarında,
Mənəm hər budağı əyən barın da.
Adımı zikr elə dodaqlarında,
Olduğun yerəcən sürünüm, gedim.

Nə olar sağında, solunda bitsəm,
Adımı adınla bəxtəvər etsəm?!
Aynuram, deyirəm haraya getsəm,
Sənin işığına bürünüm, gedim.

*8 iyun 2023-cü il*

## AYRILIQ

Səndə insaf, mürvət yoxmuş,
Ay məni sıxan ayrılıq.
Vüsalımın şirin vaxtı
Yoluma çıxan ayrılıq.

Heçmi yoxdur qorxun, hürkün?!
Geyibsən həsrətin kürkün,
Nolar gəlib keçə bir gün
Əlimə yaxan, ayrılıq.

"Canım",– dedin, "gözüm", – dedin,
"Sənsən mənim özüm! ", – dedin,
"Getsən, necə dözüm?! ", – dedin,
Arxamca baxan ayrılıq.

Pozacam kefini sənin,
Alacam kəfini sənin,
Yıxacam evini sənin,
Evimi yıxan ayrılıq.

Aynur qorxmur səndən qəti,
Çəkdirsən də müsibəti.
Yaşadığı məhəbbəti
Başıma qaxan ayrılıq.

*29 iyul 2023-cü il*

## ÜRƏYİMDƏ BİTƏN ÇİÇƏK

Göz yaşıyla sulanmısan,
Qəm tozuna bulanmısan,
Soldun ətrin yayılmamış,
Nədən belə tez yanmısan,
Ürəyimdə bitən çiçək?

İlk bahara tez inandın,
İtib getdi əhdin, andın,
Dəydi sənə səmum yeli,
Ürəyimlə birgə yandın,
Ürəyimdə bitən çiçək.

Burda qışdır, orda yazdır,
Saçıma bax, bəmbəyazdır.
Aç gözünü, ətrafa bax,
Bizim kimi sevən azdır,
Ürəyimdə bitən çiçək.

Vərəq-vərəq söz yüküsən,
Xatirəmin buz yükusən,
Necə çəkim, necə atım?
Həsrətimin duz yükusən,
Ürəyimdə bitən çiçək.

*27 iyul 2023-cü il*

## HARDAN GİRDİN GECƏ-GECƏ YUXUMA?!

Qırıq-qırıq, param-parça olmuşam,
Hardan girdin gecə-gecə yuxuma?!
Hissi sönük, fikri haça olmuşam,
Hardan girdin gecə-gecə yuxuma?!

Eşqin mənə bu oyunda mat verib,
Dərdim, qəmim qat üstündən qat verib,
Ürəyimin divarları çat verib,
Hardan girdin gecə-gecə yuxuma?!

Tutdurmazdın əllərimə yaxa sən,
Gəlmişdin ki, qəlb evimi yıxasan?
Ayrıca bir zamandaydın axı sən,
Hardan girdin gecə-gecə yuxuma?!

Dil tapmışdım özüm kimi naşıyla,
Barışmışdım gözlərimin yaşıyla,
Daşlaşmışdım həsrətinin daşıyla,
Hardan girdin gecə-gecə yuxuma?!

Acı qatdın şirin sözlü Aynura,
Hər söhbəti dadlı, duzlu Aynura.
Necə qıydın bulud gözlü Aynura,
Hardan girdin gecə-gecə yuxuma?!

*7 iyun 2023-cü il*

## İSTƏMİRƏM BU YUXUDAN OYANIM

Ürəyimə dərd tökmüsən alovtək,
Axı necə rəva bildin hey yanım?
Çıxıb getdin, məni qoydun tənha, tək,
Həsrətinə indi necə dayanım?!

Sənli günlər bir-birindən boyatda,
Unudulmaz, o yaddadır, bu yadda.
Səndən özgə kimim var ki, həyatda,
Bilmirsənmi, təkcə sənsən həyanım?!

Gözlərimi bənzədərdin ülkərə,
İnanmırsan, yaddaşını silkələ.
Heç ürəyin sızlamırmı bir kərə?!
Məni məndən gözəl bilib duyanım.

Qoy uyusun xatirələr, ayıltma,
Məni bir də nəfəsinlə bayıltma.
Daha gecdir, istəmirəm, qayıtma,
Məni qoyub başqasına uyanım.

Sanırdım ki, hər günümüz özəldir,
Baxdım, gördüm payız gəlib, xəzəldir.
Eşqin elə yuxu kimi gözəldir,
İstəmirəm bu yuxudan oyanım.

*17 oktyabr 2021-ci il*

## PLİZ

Gecə saat on iki...
prospekt tək, mən də tək.
Ətrafımda işıqlar
sayrışırlar rəngbərəng.
Bir sərxoş yorğunluq var canımda,
qəfildən bir maşın saxlayır yanımda.
"Buyurun əyləşin, miss"…
Gözaltı süzürəm onu mən,
ipə-sapa düzürəm onu mən,
üzürəm onu mən:
"Maşınını sür get, pis".
Seyrəlir küçədən maşınlar,
azalır get-gedə hərəkət.
Kövrəlmişəm, gözlərim bir himə bənd,
ağlasam hər yanı bürüyəcək sis.
Gecənin qaranlığı ruhumu titrədir,
bu gecə Tanrıdan könlümə fitrədir.
Tellərimi sərin küləklər tərpədir,
Türklər demiş: "Her taraf mis kokur, mis".
Ah, bu eşq narıncı başmaqda,
dalğalar sinəmdə coşmaqda,
bu sahildən o sahilə qoşmaqda.
Sən qayıq, mən dəniz...
Qanadlarım çıxmışdı, mələkdim,
Göylərin yaxasından bir ulduz çəkdim,
Mən onda da indikitək təkdim,

Gəldin və dedin ki, "pliz..."
Kövrəlib dolmuşdum bu az vaxtda,
ayıldım üzümə dəyən sazaqdan,
bir siqar qoxusu gəldi uzaqdan,
bürüdü qəlbimi qəribə hiss.
İndilik hər şeyə həvəssizəm,
səmada üzən Ay kimi səssizəm.
Sən getdin,
sanma ki nəfəssizəm.
Yaxşı ki, qovuşa bilmədik biz...
pis...

*22 avqust 2022-ci il*

## DƏNİZ

Ləpələr uşaq kimi atılıb-düşür
Ayın işığında,
Dəniz nağıl pıçıldayır qağayılara.
Bu sirli gecələrdə dəniz başqa cür olur–
Ləpələr bir-birini əzizləyir,
öpür hey...
Üzür xəyallarım da qoşulub qayıqlara...
Uzaqda bir şam yanır,
Bəlkə də, su pərisi məni qonaq çağırır
doğma bacılığıtək
öz "Dəniz vətəni"nə.
Bu sirli qaranlığı boğur hıçqırıqları
ağlayan buludların.

## GƏTİRƏN OLMADI HEÇ SORAĞINI

Silib-süpürürəm xatirələri,
Yuyuram qəlbimin hər bucağını.
Kimi gizlədibsən yenə sinəndə,
İndi kim isidir de, qucağını?!

Görən soruşurmu, sənə nə olub?! –
Gözümə ağlayan buludlar dolub,
Ağappaq bənizim saralıb, solub,
Üzüm xatırladır payız çağını.

Boynumda öpdüyün xalım darıxıb,
Fikirlər qarışıb, hisslər karıxıb,
Sənin həsrətini ağlıma taxıb,
Niyə çıxarıram, görən, ağını?!

Hisslərim dolaşıb, dönmüşəm keyə,
Yaman hirslənirəm indi hər şeyə.
Qayıdıb bu yerdən keçərsən deyə,
Seçmişəm nə vaxtdır yol qırağını.

Yığıb dərdi, qəmi sıralamışam,
Sənsiz qalan qəlbi yaralamışam.
Başımı qatmaqçün qaralamışam
Dəftərin bir neçə ağ varağını.

Eh, hasil olmadı arzum, muradım,
Az qalır yadımdan çıxsın öz adım.
Gələndən, gedəndən səni aradım,
Gətirən olmadı heç sorağını.

*16 noyabr 2022-ci il*

## QOŞALAŞAQ SƏNİNLƏ

Yumaq kimi diyirlənir arzular,
Məhəbbətim ilmə-ilmə toxunur.
Ürəyimdə şaxələnmiş naxışlar
Şeir kimi, nəğmə kimi oxunur.

Yollar, izlər misralara oxşayır,
Hər addımın bir hecadır yol boyu.
Əgər bilsəm, gələcəksən, oturub
Gəlişini gözləyərəm il boyu.

Min şövq ilə cəh-cəh vurur bağçada,
Bizim üçün dua edir bülbüllər.
Eşqimizin qış görməsin gülşəni,
İl boyunca bahar olsun fəsillər.

Dəf eyləyək hər çətini sevgiylə,
Dərə keçək, dağlar aşaq səninlə.
Bir məhəbbət qəzəlinin beytitək,
Gəl, əzizim, qoşalaşaq səninlə.

*29 mart 2022-ci il*

## PAYIZ AXŞAMLARI HƏSRƏT GƏTİRİR

Ürəyim nar kimi çatlayır mənim,
İntizar üstümdən adlayır mənim,
Ayrılıq qəddimi qatlayır mənim,
Yollar tikan əkir, tikan bitirir,
Payız axşamları həsrət gətirir.

Axıram, sönürəm bir ulduz kimi,
Ən ağır yük olur ömür duz kimi,
Donur əl-ayağım, olur buz kimi,
Qəlbim son ümidi salıb itirir,
Payız axşamları həsrət gətirir.

Ağappaq dünyama qara çəkilir,
Bilmirəm taleyim hara çəkilir,
Ürəyim axşamlar dara çəkilir,
Kədər qarşılayır, qüssə ötürür,
Payız axşamları həsrət gətirir.

Solur, xəzan olur gülüm, gülşənim,
Sənsizlik olubdur ömrümə qənim,
Heç nə ovundurmur könlümü mənim,
Nə çiçək qoxusu, nə qəm ətiri,
Payız axşamları həsrət gətirir.

Sənsiz keçməyəydi kaş ki bir anım,
Aynuram, nə qədər həsrətdə yanım?!
Gör nə zamandır ki, yox bır yığanım
Başımın üstündən bu qəm-çətiri,
Payız axşamları həsrət gətirir.

*12 oktyabr 2023-cü il*

## ƏZİZİM

Nə qədər ömrüm var, gərək yolunda
Daim bir şam kimi yanım, əzizim.
Arzumdur, həyatda sənsiz keçməsin
Mənim bir saatım, anım, əzizim.

Gəlmisən dünyaya nə xoş saatda,
Yoxdur Yer üzündə aşiq sən adda.
Sənsiz dövr eləməz, bu kainatda
Mənim damarımda qanım, əzizim.

Eşqində çağlayıb yaşa dolaram,
Xoşbəxt taleyinlə yaşıd olaram.
İstə, əsirgəsəm, namərd olaram,
Qurbandır yolunda canım, əzizim.

Mən Ayam, gecəmə Günəş kimisən,
Ağlımda, qəlbimdə, dilimdə də sən.
Sevən ürəyimin tək sahibisən,
Ey mənim sultanım, xanım, əzizim.

## EŞQDİR MƏNİ YAŞADAN

Dünya cənnət görünür,
Eşqdir məni yaşadan.
Qəlbim sənlə döyünür,
Eşqdir məni yaşadan.

On dörd gecəlik ayam,
Coşub çağlayan çayam.
Sevda yol, mən yolçuyam,
Eşqdir məni yaşadan.

Könlümü oda yaxdım,
Sutək qəlbinə axdım.
Eşqə pir kimi baxdım,
Eşqdir məni yaşadan.

Atəşinə küləm mən,
Bağına bülbüləm mən.
Xoş ətirli güləm mən,
Eşqdir məni yaşadan.

Ürək deyəni yazdım,
Yəni ki, səni yazdım.
Aynuram, yaşamazdım,
Eşqdir məni yaşadan.

## AYRILIQ

Səndə insaf, mürvət yoxmuş,
Ay məni sıxan ayrılıq.
Vüsalımın şirin vaxtı
Yoluma çıxan ayrılıq.

Heçmi yoxdur qorxun, hürkün?!
Geyibsən həsrətin kürkün,
Nolar gəlib keçə bir gün
Əlimə yaxan, ayrılıq.

"Canım",– dedin, "gözüm", – dedin,
"Sənsən mənim özüm", – dedin,
"Getsən, necə dözüm?! ", – dedin,
Arxamca baxan ayrılıq.

Pozacam kefini sənin,
Alacam kəfini sənin,
Yıxacam evini sənin,
Evimi yıxan ayrılıq.

Aynur qorxmur səndən qəti,
Çəkdirsən də müsibəti.
Yaşadığı məhəbbəti
Başıma qaxan ayrılıq!

*29 iyul 2023-cü il*

## BACARA BİLSƏYDİM ÜRƏYİMLƏ MƏN

Qəlbimi sarmazdı qüssə, kədər, qəm,
Bacara bilsəydim ürəyimlə mən.
Zindana dönməzdi mənə bu aləm,
Bacara bilsəydim ürəyimlə mən.

Ömrüm başdan-başa çiçək olardı,
Həyat göyçəkdən də göyçək olardı,
Şirin xəyallarım gerçək olardı,
Bacara bilsəydim ürəyimlə mən.

Həsrət karvanına qoşulmazdım heç,
Qanadı qırılmış quş olmazdım heç,
Töhmətə, tənəyə tuş olmazdım heç,
Bacara bilsəydim ürəyimlə mən.

Belə çəkilməzdi yuxum göylərə,
Qalxmazdı amanım, ahım göylərə,
Uçardı eşq ilə ruhum göylərə,
Bacara bilsəydim ürəyimlə mən.

Özüm öz bəxtimə bir quyu qazdım,
Bu eşqin dolaşıq yolunda azdım.
Aynur, heç bu qədər unudulmazdım,
Bacara bilsəydim ürəyimlə mən.

*28 aprel 2023-cü il*

## YƏQİN Kİ, HEÇ SƏN DƏ UNUTMAMISAN

Şəhər şirin-şirin yatırdı onda,
Təkcə oyaq qalan ikimiz idik.
Axıb damarından qatı zülmətin
Gecədə yox olan iki iz idik.

Bir ülvi eşq idi bizi aparan,
Qəlbimiz, ruhumuz sevincqarışıq.
Sənin gözlərinin alovu idi
Çox-çox uzaqlardan gələn bir işıq.

Almışdı ağlımı sözün, söhbətin,
Sənə qısılmışdım körpə qu kimi.
Sanki bir doyulmaz yuxuydu həyat,
Vaxt axıb gedirdi axar su kimi.

Başımız üstündə ulduzlu göylər,
Könlümü lalətək açmışdım sənə.
O gecə hər kəsi yuxuya verib,
Hamıdan xəlvətcə qaçmışdım sənə.

Üstündən nə qədər gör illər keçib,
Gəlib ömrümüzün qızıl payızı.
Yəqin ki, heç sən də unutmamısan,
O gözəl gecədə o gözəl qızı.

*24 oktyabr 2022-ci il*

## ÖMRÜM BURULĞANDAN AXINA DÜŞÜB

Olubdur nə vaxtsa bu yuxu gerçək,
Ömrüm burulğandan axına düşüb.
Məndən göylər qədər uzaq bir istək
Ovuc içi qədər yaxına düşüb.

Cavab ver sözümə ruhun qalıbsa,
Keçərmi sonacan ömür nəşəli?
Nə vaxt gözlərimi duman alıbsa,
Olmusan qəlbimin odu, məşəli.

Mən gözəl bilirəm, nədir səadət,
Varmış qismətimdə bu səddi aşmaq.
Bəlkə də, o imiş ən gözəl adət,
Başqa bir aləmmiş küsüb-barışmaq.

Dönmüşəm çiçəyə, düşmüşəm şehə,
Dalmışam xəyala nəğmə səsində.
Könlümü açmışam sərin bir mehə,
Şirin ağrıların əhatəsində.

Bəzən də qaçmışam hüznlü, ürkək,
Özümdən dünyanın o başınacan.
Sinəmdə çırpınıb quş kimi ürək,
Eşq üçün tökülən göz yaşınacan.

Tez-tez boylanırsan o ötən çağa,
Dönməyə, gəlməyə varmı qürurun?!
Nurun içindəyəm başdan-ayağa,
Sənin Aynurunam, sənin Aynurun.

*16 yanvar 2023-cü il*

## ADIN NƏĞMƏ OLUB DODAQLARIMA

Nə vaxtdır bir yerdə qərar tutmuram,
Yandırır saldığın köz ürəyimi.
Hər gün bir alovlu misra eləyib,
Sənə göndərirəm söz ürəyimi.

Adın nəğmə olub dodaqlarıma,
Yolunu kəsərdim, gəlir arıma.
Qoyma ki, xal düşsün etibarıma,
Mən sənə vermişəm öz ürəyimi.

Çiçəklə bəzənib bu eşqin önü,
Batmasın içində harayı, ünü,
Sevgilim, sən mənim bu bahar günü
Nə incit, nə də ki üz ürəyimi.

Bağban ol Aynurun könül bağına,
Çıxma Fərhad kimi hicran dağına,
Mən dözə bilmərəm ayrılığına,
Həsrətin eləyər buz ürəyimi.

*16 aprel 2021-ci il*

## XƏZƏRİN SAHİLİNDƏ

Yenə könlüm rəqs edir
Bir eşqin havasında.
Qağayılar uçuşur
Ruhumun səmasında.

Düşüb gedir ürəyim
Balıqların izinə.
Layla çalır dalğalar
Qəlbimin dənizinə.

Atıb-tutur arzular
Məni bir gəmi kimi.
İslanıbdır kirpiyim
Sahilin nəmi kimi.

Sahili döyəcləyən
Gilavarın səsiyəm.
Yaşıl yosun donlu bir
Gözəl su pərisiyəm.

Qəlbim sevdayla dolub,
Yorulmaz könlüm mənim.
Aparar uzaqlara
Məni sevgi yelkənim.

Bu gün həyat mənimlə
Danışır su dilində.
Eşqim ilahiləşir
Xəzərin sahilində.

*19 mart 2023-cü il*

## YUXUDA YETİRƏM MURADIMA MƏN

Al-əlvan geyinib gələn baharım,
Könlümə nəğmələr oxudur yenə.
Şükür, dəyişməyib torpağın ətri,
Həminki ilahi qoxudur yenə.

Var olsun həsrətin gözünü yuman,
Yaxşı ki, itməyib sabaha güman,
Dağların döşündə sürünən duman
Göylərin oyanmış ruhudur yenə.

Açıq de, qəlbində nə varsa sən də,
Körpə bənövşəyəm, düşmüşəm bəndə.
Gözyaşım çoxalır çox sevinəndə,
Könlümü ayrılıq qorxudur yenə.

Kölgə salmamışam gül adıma mən,
Aynur, sirr vermərəm hər adama mən.
Yuxuda yetirəm muradıma mən,
Bəlkə, bu səadət yuxudur yenə.

*30 mart 2023-cü il*

## SƏN NECƏ DARIXDIN

Ay mənim dərdimdən dəli olanım,
Sən necə darıxdın, de, məndən ötrü?
Bəlkə, mən başına gəlim, dolanım,
Sən necə darıxdın, de, məndən ötrü?

Səbəbi mənəmmi sınıxmağının,
Yarı yolda çaşıb karıxmağının,
Çək göndər rəsmini darıxmağının,
Sən necə darıxdın, de, məndən ötrü?

Mənsiz üşüdünmü, soyuqladınmı,
Dünyanı gözündə ayaqladınmı,
Gecələr yuxuda sayıqladınmı,
Sən necə darıxdın, de, məndən ötrü?

Axşamlar gec yatıb, erkən duranım,
Fəryad qoparanım, matəm quranım.
Ay məni gözləyib, boyun buranım,
Sən necə darıxdın, de, məndən ötrü?

Özünü yordunmu suallar ilə,
Həlli çətin olan misallar ilə,
Yanıma uçdunmu xəyallar ilə,
Sən necə darıxdın, de, məndən ötrü?

Qısası, bir kəlmə sözüm var sənə,
Bir dürüst cavab ver, deyim yar sənə?
Məzara döndümü dörd divar sənə,
Sən necə darıxdın, de, məndən ötrü?

*19 yanvar 2021-ci il*

## KÜLƏKLƏR SAÇIMDA DARAQ GƏZDİRİR

Sənin ayrılığın, sənin həsrətin
Könlünü könlümdən iraq gəzdirir.
Eşqinin tükənməz şöləsidir ki,
Gözümdə sönməyən çıraq gəzdirir.

Xəyalda gör neçə xatirə dindi,
Göz yaşım əyilib köksümə sindi.
Sənin əllərinin yerinə indi
Küləklər saçımda daraq gəzdirir.

Bu dərdin yanında nədir ki ölüm?!
Hardasan, qayıt gəl, başına dönüm.
Köçündən ayrılmış durnadır könlüm,
Çöllərə hay salıb, soraq gəzdirir.

Bu da xatirədir illərə bizdən,
Soraqla Aynuru keçdiyin izdən.
Dərd elə həmişə can evimizdən
Bizi vurmaq üçün yaraq gəzdirir.

*7 avqust 2022-ci il*

## MƏNİM ÜRƏYİMİN GÜNAHI NƏDİR

Məhbəsə salmısan, həbs eləmisən,
Mənim ürəyimin günahı nədir?
Təmiz sevgisinə toz çiləmisən,
Mənim ürəyimin günahı nədir?

Üstümə tək səni deyib qayıdır,
Qəddimi kamantək əyib qayıdır,
Arzusu daşlara dəyib qayıdır,
Mənim ürəyimin günahı nədir?

Ovub can evimin divarını qəm,
Bahar yağışıdır yanağımda nəm,
Hələ də özümə gələ bilmirəm,
Mənim ürəyimin günahı nədir?

Qırmadı ömründə heç bir insanı,
Xoş günlər istədi ulduzlar sanı,
Düşüb qəm yaşımın altda islanır,
Mənim ürəyimin günahı nədir?

Eşqi qanad açdı hicrana, dərdə,
Bağladı gözünü bir qara pərdə,
Boğulur havasız xatirələrdə,
Mənim ürəyimin günahı nədir?

Fərhadı yorulmuş, dağ çapa bilmir,
Aynur şimşəklərdən od qapa bilmir,
Özünə heç yerdə yer tapa bilmir,
Mənim ürəyimin günahı nədir?!

*8 oktyabr 2023-cü il*

## DƏRDLƏ QOŞADIR SELFİM

Nə ünüm yetir sənə,
Nə səsim gedib-gəlir.
Yellə həmdəməm, o da
Bir əsim gedib-gəlir.

Bir anım dinc an deyil,
Ləl deyil, mərcan deyil,
Daşıdığım can deyil,
Qəfəsim gedib-gəlir.

Dərdlə qoşadır selfim,
Özümdə qalıb heyfim,
Çoxdan açılmır kefim,
Həvəsim gedib-gəlir.

Bir qaranlıq gecəyəm,
Qurdam, quşam, böcəyəm,
Yazırsan ki, necəyəm?! –
Nəfəsim gedib-gəlir.

## BAHAR HAVASINA KÖKLƏNİB KÖNÜL

Söhbət eləyirəm Günəşlə, Ayla,
Qəlbimdə məhəbbət, dilimdə layla,
Könlünə nə zaman nəğmə düşərsə,
Təkcə məni çağır, məni harayla,
Bahar havasına köklənib könül.

Üfüq buludlardan sıyrılıb çıxır,
Qartal yuvasından qıy vurub çıxır.
Tək bircə özünün bildiyi yolla,
Bulaq dağ döşündən qıvrılıb çıxır;
Bahar havasına köklənib könül.

Ötür şirin-şirin budaqda bülbül,
Bəzəyir çəməni min çiçək, min gül.
Baharın eşqindən doymayır əsla,
Ürəyim sinəmdə açılır tül-tül;
Bahar havasına köklənib könül.

Ən yaxşı dərmandır ümid yaraya,
Ümidlər həmişə çatır haraya.
Külək pəncərəmi döyür aramla,
Ayrılıq düşməsin gərək araya,
Bahar havasına köklənib könül.

İçindən uzağa boylanır bir qız,
Əlləri qoynunda beləcə yalqız...
Aynur, səndən küsüb gedən sevgilin,
Qayıdıb gələcək yenə bu payız;
Bahar havasına köklənib könül.

## SƏNİN KEŞİYİNDƏ DURUR ÜRƏYİM

Soyuqdan soyuqsan, hissləri qarsan,
Buna necə dözsün məğrur ürəyim?
Mən səni sevirəm, yaxşı ki, varsan,
Sənin varlığınla vurur ürəyim.

Hansı zamandayıq, hansı saatda,
Ömrümə yazıldın ən gözəl adda,
Heç bir çətinlikdən qorxma həyatda,
Sənin keşiyində durur ürəyim.

Uçdum, qanadlandım şirin vədinlə,
Min səsin içindən səsimi dinlə,
Sənin eşqin ilə, məhəbbətinlə
Özünü təzədən qurur ürəyim.

Aynuram, islandım göz yaşlarında,
İmzam var ömrümün naxışlarında,
Mənə həyatımın yoxuşlarında
Hər zaman yaşadıb qürur ürəyim.

## BELƏ SEVİRƏM SƏNİ

Yorulmadan oyna sən,
Oyna, mənim nazımla.
Uyudaram bir anda
Səni könül sazımla.

Ətrini çək sinənə
Yazdığım şeirlərin.
Qəlbimdə tək sən varsan,
Könlünü saxla sərin.

Bizi qoşa görənlər
Həsəddən yanacaqlar.
Bizi hamıdan xoşbəxt,
Bəxtəvər sanacaqlar.

Bəxtəvər sanacaqlar
Görən kəslər bizləri.
Paxıllıq edənlərin
Qoy kor olsun gözləri.

Qırma şüşə könlümü,
Uşaqtək ərköyünəm.
Sənin yerdə Yerinəm,
Sənin göydə Göyünəm.

Sonu deyil sevgimin,
Hələ sevirəm səni.
Deyəcəm ki, sonda bax,
Belə sevirəm səni.

*1 aprel 2023-cü il*

## BU SƏNİN YALAN EŞQİN

Neçə vaxtdır çəkilmir
Yola ağ salan gözüm.
Sən gəlməsən yığışmaz
Yollarda qalan gözüm.

Səbrim tamam daralıb,
Nəyim varsa, yar alıb.
Artıq kökdən saralıb
Mənim can alan gözüm.

Nədən qəlbin yumşalmır,
Xəyallarım baş almır.
Boşalmır ki, boşalmır,
Buludtək dolan gözüm.

Yoxdur yanımda heç kim,
Ruhum didərgin, köçkün.
Bu sənin yalan eşqin,
Bu mənim nalan gözüm.

## SƏNƏ QURBAN OLARAM

Lap uzaqda da olsan,
hər zaman yanımdasan.
Mənə elə hopmusan,
ruhumda, canımdasan.
Damarımı yoxlasan,
görərsən qanımdasan.
Evimdə, eşiyimdə,
mənim ünvanımdasan,
Sənə qurban olaram...
Bakı küləyi kimi
mənim hər halımdasan.
Arıtək min çiçəkdən çəkmişəm,
balımdasan.
Gecə yuxularımda,
gündüz xəyalımdasan.
İşığına uçuram,
ən xoş əhvalımdasan,
Sənə qurban olaram…
Dodağımda gülüşsən,
ürəyimdə arzusan.
Mənim qış taleyimin
baharısan, yazısan.

Özündənmi, söylə bir,
mənDənmi narazısan?!
Başqa nə cür olur ki?!
Sən həyatın özüsən,
Sənə qurban olaram…
Onda niyə könlümün
sevincini soymusan?!
Sənə ömür qıyanı
intizarda qoymusan.
Ürəyimi bu eşqin
neştəriylə oymusan.
Cavab tapa bilmirəm,
bəlkə, məndən doymusan?!
Səni sevən insana
bunu necə qıymısan?!
Arzum budur ki, məndən
olmayasan uzaqda.
Mən nə deyim, sən özün
yaxşı düşün bu haqda.
Sən mənə qıydığını
sənə heç vaxt qıymaram.
And olsun ki, mən səni
dərd çəkməyə qoymaram,
Sənə qurban olaram…

*19 mart 2023-cü il*

## YOX DAHA GÜLÜZLÜ AYNURUN SƏNİN

Eybi yox, qəlbindən silinsin izim,
Denən o qız daha uzaq kəsimdir.
Təki xoş xəbərin gəlsin, əzizim,
Sənin xoş xəbərin mənim bəsimdir.

Qoruya bilmədin, bilərdin ancaq,
Sən məni hicranın yağışlarından.
İndi heç olmasa, məni sağ burax
Toruna düşdüyüm baxışlarından.

Təki işıq olsun, nur olsun yolun,
Bütün istədiyin arzulara çat.
Sən məni düşünmə, qurbanın olum,
Məni imtahana çox çəkib həyat.

Sən mənim sahilim ola bilmədin,
Mən sənin dənizin olmuşdum amma.
Eləcə susub get, nə danış, nə din,
Sən məni düşünüb halıma yanma.

Unudum o şirin xatirələri,
Bol olsun həyatda uğurun sənin.
Bir də üz çevirib qayıtma bəri,
Yox daha gülüzlü Aynurun sənin.

*17 oktyabr 2023-cü il*

## GERİ QAYTARAQ

Bizim haqqımızda heç nə deməsin,
O ağzı yamanı geri qaytaraq.
Könlümüz qovuşsun nəğmələr ilə,
O neyi, kamanı geri qaytaraq.

Allah da bilir ki, könülcə birik,
Sən orda, mən burda xiffət edirik.
Niyə göz yaşında batıb gedirik?
Tutmağa samanı geri qaytaraq.

Dağlanıb kədərdən, qüssədən ürək,
Axı necə dözsün bu yükə kürək?
Bütün ömrümüzü sevincə verək,
Düzümü, sahmanı geri qaytaraq.

Başında nə varsa yetər, tulla gəl,
Ürək sol yandadır, gəl də sola gəl.
Mən də yola gəlim, sən də yola gəl,
Gözləri damanı geri qaytaraq.

Düşüb küçələrə, düşüb tinlərə,
Aynur göz dağıdır batan ünlərə.
Gəl yenə qayıdaq ötən günlərə,
O ötən zamanı geri qaytaraq.

*29 iyun 2023-cü il*

## MƏN SƏNİN SEVDİYİN "SARI GƏLİN"ƏM

Daima damarda dövr edən qanın,
Nur saçan şəfəqin, açılan danın,
Nəfəsin, ürəyin, adın, ünvanın,
Qaynayan təbinəm, ötən dilinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Mən mələk misallı, sən eşq xəstəsi,
Sən bir alıcısan, mən gül dəstəsi,
Bir eşq bəstəsiyəm, bir eşq bəstəsi,
Kamanda bəminəm, neydə zilinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Dadaq bu sevginin doyunca dadın,
Adımla yanaşı çəkilsin adın,
Ən doğman, əzizin, yaxının, yadın,
Yurdun, diyarınam, oban, elinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Bir az səbrin olsun, çox demədim ki,
Könlümü yandırıb, yax, demədim ki,
Naz etdim, mən sənə "yox" demədim ki,
Səni sevindirən şirin "bəli"nəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Mən həm cəfalıyam, həm də vəfalı,
Bir azca sakitəm, bir az davalı,
Aynuram, dəlisov, başı havalı,
Sənin şıltağınam, sənin dəlinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

## SEVDİM SƏNİ

Körpə kimi əzizləyib,
Öpə-öpə sevdim səni.
Ürəyimi yollarına
Səpə-səpə sevdim səni.

Sübh şəfəqim, dan üzümsən,
Daim gülər bənizimsən,
Dalğalanan dənizimsən,
Ləpə-ləpə sevdim səni.

Şükür olsun bu günlərə,
Bələnibdir könül zərə,
Yamac-yamac, dərə-dərə,
Təpə-təpə sevdim səni.

Mən Aynuram, diləkləndim,
Saf eşqinlə mələkləndim.
Qəfil düşdüm, çiliкləndim,
Qəlpə-qəlpə sevdim səni.

## ƏGƏR SƏN OLMASAN...

Sənindir məndəki bu eşq, bu həvəs,
Sənindir sinəmdə bu qaynar nəfəs,
Sənindir bu nəğmə, sənindir bu səs,
Hər yerdə dil açıb söyləyərəm mən,
Əgər sən olmasan, neyləyərəm mən?!

O sənsən saçımda nazlanan mehim,
Sübh çağı qönçəmdə parlayan şehim,
Mənim güvən yerim, mənim zirehim.
Canına can qurban eyləyərəm mən,
Əgər sən olmasan, neyləyərəm mən?!

Sənsən gözlədiyim ən şirin payım,
Ruhumu doyduran çörəyim, çayım,
Özün de, hansını – birini sayım?
İlləri yolundan əyləyərəm mən,
Əgər sən olmasan, neyləyərəm mən?!

Aynuram, həmişə təzə-tər qızam,
Zümrüdəm, yaqutam, simuzər qızam,
Səninlə hər şeyə səfərbər qızam,
Eşqin bir çiçəkdir, iyləyərəm mən,
Əgər sən olmasan, neyləyərəm mən?!

*8 may 2023-cü il*

## BU GECƏ O QƏDƏR RAHAT YATMIŞAM

Dəniztək qabarıb çəkilib sinəm,
Bu gecə o qədər rahat yatmışam.
Nə bir ağrım olub, nə gözümdə nəm,
Bu gecə o qədər rahat yatmışam.

Yox, yox, unudulmaz o cənnət qoxu,
Bihudə keçibmiş ömrümün çoxu,
Mənə İlahidən gəlib bu yuxu,
Bu gecə o qədər rahat yatmışam.

İpə çəkilirdim, darda olurdum,
Sızlayıb Leylitək zarda olurdum,
Hər gecə tufanda, qarda olurdum,
Bu gecə o qədər rahat yatmışam.

Qəlbimi uşaqtək oynadıb atma,
Ahım ağır olar, günaha batma,
Gördüm yuxumdasan, dedim: "Oyatma",
Bu gecə o qədər rahat yatmışam.

Sənə vurulmuşam, eh, necə danım,
Aynuram, eşqindən alışım, yanım.
Sənin məktubunu oxuyub, canım,
Bu gecə o qədər rahat yatmışam.

*30 iyun 2023-cü il*

## DAYANMIŞDIQ SAHİLDƏ

Uyuyurdu mavi sular,
yuxudaydı qağayılar…
Dayanmışdıq biz sahildə,
danışırdı gözlərimiz eyni dildə.
Heyrət idik, maraq idik, sual idik,
ikimiz də arzu idik,
ikimiz də xəyal idik.
Gözümüzdə sonsuz idi Göy də, Yer də,
qovuşmuşduq bir nəğmədə, bir şeirdə.
Mürgüləyən yarpaqları oyadırdı külək hərdən,
Dedin: "Bəlkə, çıxıb gedək bu şəhərdən?! "
Gedək uzun yollar boyu,
gedək uzaq illər boyu.
Bir cüt işıq sayrışırdı gözlərində,
bir cüt ümid göyərirdi sözlərində.
Sığınmışdım qucağına,
dodağımda zümzümələr,
Alıb məni qanadına aparmışdı nələr… nələr.
Xəyalımda xoşbəxt günlər, xoşbəxt aylar,
o mən idim – coşan yellər, axan çaylar.
Dedim: "Gedək, əlini ver, çıxıb gedək,
qara zülmət dünyaları yıxıb gedək.
Qarşı gələk eşqimizə mane olan hər adətə,
çıxıb gedək dan üzlü bir səadətə".
Uyuyurdu mavi sular,

yuxudaydı qağayılar…
Dayanmışdıq biz sahildə,
danışırdı gözlərimiz eyni dildə…

## MƏNƏ YAZ

Baxışların soyumaz ürəyimdə,
sökülər yaxam əllərində dan yeri kimi.
Ruhuma hopan xatirələrin
silinməz qan yeri kimi.
Bu dünyada hər şey səndən başlar:
ağaclar, çiçəklər, quşlar,
küləklər, yağmurlar, tufanlar.
Heç bir rənglə bəzənməz
səninlə keçirdiyim anlar.
Bir eşq havası dönür başımda,
bir az ılıq, bir az odlu.
Mənə axı nə oldu?
Sən kimsən axı?! De mənə.
Bu sirli həyat təkcə bizə bəlli,
ikimizə bəlli.
Gözümü yummuram ki, surətin itər birdən,
agah elə məni bu sirdən.
Mənə nəsə yaz...
bahardan, çiçəklərdən.
Sevda içindəyəm bir doyulmaz,
... mənə yaz.

*2 iyun 2023-cü il*

## MƏNDƏ BİR QIZ AĞLAYIR

Ağlıma gələnləri
Hər gün gətirib dilə,
Səni tez-tez yoruram
Boş-boş suallar ilə.

Diksinirsən niyə sən,
Hər telefon zənginə?
Qəfil sarılıq çökür
Birdən-birə renginə.

Gözlərində yüz dəfə
İtirəm, tapılıram.
Mən də yəqin, onunçün
Şübhəyə qapılıram.

"Başqası varmı? "  – deyə,
Könlüm qara bağlayır.
Sənin eşqinə sadiq
Məndə bir qız ağlayır.

Əzizim, mən sarıdan
Get arxayın dolan, gəz.
Səni unutmaq əsla,
Mənim ağlıma gəlməz.

*25 noyabr 2022-ci il*

## BİR XƏSTƏ CAN İÇİNDƏYƏM

Nəyə gərək yerim, yurdum,
Çölüm, dağım, düzüm sənsiz.
Həsrətindən yanar könlüm,
Bir an gülməz üzüm sənsiz.

Hicran pozdu yaddaşımı,
Dərdimlə qatdım başımı,
Nə vaxtadək göz yaşımı
Yanağıma düzüm sənsiz?!

Bir xəstə can içindəyəm,
Zənni-güman içindəyəm,
Tüstü-duman içindəyəm,
Od-ocağım, közüm sənsiz.

Bir gölüydüm, daş atdığın,
Nə günüm var, nə şadlığım,
Nədir mənə yaşatdığın,
Məcburammı dözüm sənsiz?!

Aynur, könlüm para-para,
Nə çəkdim mən günü qara?!
Baxıb ağaran yollara,
Kor olubdur gözüm sənsiz.

*3 dekabr 2021-ci il*

## UNUT

Unut məni, unut məni,
gündüzümü gecə bilim.
Unut məni, unutmasan,
sevdiyimi necə bilim?!
Sənə olan inam getsin,
sənə olan ümid getsin,
Tellərimi, əllərimi,
gözlərimi unut getsin.
Unut məni, unut məni,
bir quş kimi dənsiz qalım.
Unut məni özgəsiylə,
unut məni, sənsiz qalım.
Öyrət məni ayrılığa,
vüsalının həsrətinə,
Sənsizliyə öyrət məni,
qoy öyrəşim hər çətinə.
Dustaq olum səhər-axşam,
dörd divarın arasında,
Məhəbbətin solub getsin,
ürəyimin yarasında.
İndi sınıq bir ürək var,
bir ürək var məndə cəmi,
Bir də dəli külək kimi
döymə mənim pəncərəmi.
Unut məni, unut daha
həsrət ucuz, ölüm baha.

Unut məni, unut məni,
yetim qalsın bu nəğmələr,
Atım yansın alovlara
bu məktublar, bu namələr.
Unut məni, unut məni,
o verdiyin vədi unut,
o verdiyin sözü unut,
Unut getsin, qurban olum,
Aynur adlı qızı unut.

## YADINA SALIRAM ÖTƏN GÜNLƏRİ

Qaytarıram öz ilk şirinliyinə,
Dadına salıram ötən günləri.
Hərdənbir yandırıb dəli həsrətin
Oduna salıram ötən günləri.

Əzəldən boş imiş bu eşqin himi,
Köhnə bir sandıqtək töküb içimi,
Yazıb misra-misra bir məktub kimi
Adına salıram ötən günləri.

Qara gün ağ olmaz bir ağ yamaqla,
Sürmədik bu ömrü keflə, damaqla,
Aynuram, hərdənbir xatırlamaqla
Yadına salıram ötən günləri.

*12 may 2022-ci il*

## SAATTƏK QURDUM SƏNİ

Nə qədər böldüm səni,
Nə qədər vurdum səni.
Rəqəmlər arasında
Elə hey yordum səni.

Quşamsa, dən olmusan,
Qəlbimə tən olmusan,
Mənə Vətən olmusan,
Bilirəm yurdum səni.

Ağlaram için-için,
Ölərəm sənin üçün,
Nə vaxt tükəndi gücün,
Saattək qurdum səni.

Gəldin doğma səs kimi,
Əziz, müqəddəs kimi,
Sinəmə nəfəs kimi
Çəkdim bir udum səni.

Könlüm toxdur, gözüm tox,
Həyat eşqim çoxdur, çox,
Ölməyə qoymaram, yox,
Heç vaxt, umudum, səni.

Aynuram, çox dolmuşam,
Unutmusan, solmuşam,
Çevrilib sən olmuşam,
Necə unudum səni?!

*19 may 2023-cü il*

## GÖRÜŞ YERİMİZƏ "ƏLVİDA" DEDİM

Mən səni yormadım suallar ilə,
"Bəsindir son nöqtə, son nida!", – dedim.
Yağışlı bir gündə göz yaşlarımla
Görüş yerimizə " Əlvida!", – dedim.

Hər axşam yuxumun qonağı idin,
Gözümdə gördüyüm uyğular öldü.
Qurudu yarpağı yaşıl sevdalar,
Sənə bəslədiyim duyğular öldü.

Görüşdük, ayrıldıq səksəkələrlə,
Dözmədik bir ovuc çovğuna, qara.
Səni üşüməyə qoymaz bir daha
Mənim qəlbimdəki bu isti yara.

Bitdi bu sevgi də, bitdi qəfildən,
Ağlıma gəlməzdi yoraram səni.
Nə vaxtsa, qayıdıb yadına düşsəm,
Arayıb-axtarma, qıraram səni.

*6 dekabr 2021-ci il*

## HƏYAT BİR SUAL KİMİ

Ayın işığı düşür
Gecə mavi sulara.
Yol gedirəm mən yenə
Ən uzaq arzulara...

Xəyalın ağuşunda
Yenə səni gəzirəm.
Payız soyuqluğundan
Əsim-əsim əsirəm.

Necə qurtarım yaxa
Ürək yaxan kədərdən?
Gözyaşıma qarışır
Yağış damcısı hərdən.

Düşür yağış damcısı,
Ayrılıram xəyaldan.
Acılar çəkdirsə də,
Sevgi şirindir baldan.

Ulduzlar biganədir
İçimdəki naləmə.
Sən məndən ayrılandan
Dünya qərq olub qəmə.

Dolaşıram, gəzirəm
Qərib bir xəyal kimi.
Yorub durur beynimi
Həyat bir sual kimi.

Göylər indi mənimçün
Arzu asimanıdır.
Zaman bir güzgü kimi
Məni mənə tanıdır.

Ayın işığı düşür
Gecə mavi sulara.
Yol gedirəm mən yenə
Əlçatmaz arzulara.

*22 yanvar 2024-cü il*

## SƏN ÖMÜR SƏRGİMİN ŞAH ƏSƏRİSƏN

Sən bulud içində sanki bir Günəş,
Zərrənə qoşulub hər an yanıram.
Yoxdur ürəyimdə həyəcan, təlaş,
Mən sənə özümdən çox inanıram.

Sənin o yazdığın məktubları mən
Alıram ən gözəl bir təbrik kimi.
Sən ömür sərgimin şah əsərisən,
Asmışam qəlbimdən təbərrik kimi.

Dünyanın ən soyuq həsrəti gələ,
İşığa aparan bu izi silməz.
Yağışlar, küləklər, tufanlar belə
Səni əllərimdən qopara bilməz.

Tükənmir heç səni sevmək inadım,
Durmuşam səninlə çiyin-çiyinə.
Açılır görəndə səni qanadım
Səmaya, günəşə, buluda yenə.

Hər kəsə bəllidir bu ülvi sevda, –
Hər yerdə hamıya söz açmışam mən.
İnan ki, sevgilim, bu məhəbbətə
Səni sevən gündən göz açmışam mən.

*17 may 2023-cü il*

## MƏHBUS BİR QIZIYAM MƏN BU SEVGİNİN

Sən məni sevirdin dünənə qədər,
İndi nə olub ki, kənar gəzirsən?!
Nə ayrılıq vardır, nə də ki kədər,
Yazıq ürəyimi niyə əzirsən.

Dünən həyatının mənası idim,
Bu gün nə dəyişdi, nə baş verdi bəs?!
Axı deyirdi ki, sənsən ümidim,
Mənim ürəyimdən qopub gələn səs.

Biz ki xoşbəxt idik, hamıdan xoşbəxt,
Bəs niyə qəlbindən silindi izim?!
Gücünü toplayıb deyərsən bir vaxt:
"Sənə neyləmişdim, mənim əzizim?!"

Qəlbimi gül bilib kimə göndərim?!
Sənə, ya torpağa, buyur, özün seç.
Könlünü üzmürmü xatirələrim,
Səni incitmirmi göz yaşlarım heç?!

Getdin, tərk elədin bu sevən canı,
Demədin nəyədir acığın, kinin?!
Çəkib qurtaracam tale yazanı,
Məhbus bir qızıyam mən bu sevginin.

*15 may 2023-cü il*

## MƏNİM EHTİYACIM TƏK ELƏ SƏNSƏN

Hopmusan su kimi könlümə haqdan,
Mən sənə nə qədər baxım uzaqdan?!
Dodağım nar kimi çat-çat olubdur,
Adını anmaqdan, xatırlamaqdan,
Mənim ehtiyacım tək elə sənsən.

Durnatək yolunda qoy lələk salım,
Hicranım, həsrətim, dərdim, məlalım.
Gecə də, gündüz də, bir onu bil ki,
Sənə qovuşmaqdır fikrim, xəyalım,
Mənim ehtiyacım tək elə sənsən.

Bilsən səni necə özləmişəm mən,
Yolunu həmişə gözləmişəm mən.
Heç vaxt tək olmayıb sinəmdə ürək,
Axı səni orda gizləmişəm mən,
Mənim ehtiyacım tək elə sənsən.

Canımda dincəlmir heç ağrım, acım,
Yol ver, ürəyinin qapısın açım.
Yəni, görmürsənmi mənim dünyada
Axı yox nəyəsə bir ehtiyacım?!
Mənim ehtiyacım tək elə sənsən.

Bir gözəl nəğməsən sən bu bəstədə,
Səninçün sağalar bil, bu xəstə də.
Şəklini sıxıb da dodaqlarına
Aynur deyəcəkdir son nəfəsdə də:
"Mənim ehtiyacım tək elə sənsən!"

## GİZLƏNİB

Könlümdə gül açan baharın, yayın
İçində şaxtalı bir qış gizlənib.
Çıxıb getdiyintək qayıt ömrümə,
Gözümdə bir bulud yağış gizlənib.

Həsrətin, hicranın ömrə yağıdır,
Köçən durnaların dönən çağıdır,
Eşqim bir sevdanın göyqurşağıdır,
İçində min dənə naxış gizlənib.

Bu necə hicrandır, başına dönüm,
Çatmır özümə də heç səsim, ünüm,
Sənin gedişində, ay ömrüm-günüm,
Axı sən bilmirsən, çox iş gizlənib.

Aynur sevən gündən özünü danır,
Tək səni düşünür, tək səni anır,
Deyimmi ürəyim nə üçün yanır?! –
İçində bir odlu baxış gizlənib.

## MƏN TƏKCƏ SƏNİ SEVDİM

Mən öz sevda yolumu
Hər dumanda azmaram.
Ümid verən bir işıq
Görməyəndə yazmaram.

Xəyalımın dumanlı
Aynasını silmişəm.
Səadət nə deməkdir,
Səndən sonra bilmişəm.

Bu əbədi eşq ilə
Könlüm daim yanası.
O qədər xatirə var
Sənli xatırlanası.

Bir yerdə dəf elədik
Neçə yaman dilləri.
Səninlə xatırlanır
Ömrün gözəl illəri.

Heç bir zaman solmayan
Yaşıl budağım oldun.
Sevda ilə qaynayan
Qaynar bulağım oldun.

Mən təkcə səni sevdim,
İnan, yalnız tək səni.
Şair necə demişdi?!
"Sutək, havatək səni!"

Mənim kövrək qəlbimi
Başqa bir kəs ovutmaz.
Sənə "can qurban" desəm,
Ürəyimi soyutmaz.

Sənsən bu ömrə bəzək,
Bu taleyə yaraşıq.
Zülmət qaranlıqlarda
Ümid verən bir işıq.

Xəyalımın dumanlı
Aynasını silmişəm.
Səadət nə deməkdir,
Səndən sonra bilmişəm.

*30 may 2023-cü il*

## SƏN MƏNİM CANIMSAN, MƏN SƏNİN CANIN

Bu sevgi dünyatək var oldu yoxdan,
Sən mənim canımsan, mən sənin canın.
Bir fikir dolaşır qəlbimdə çoxdan,
Sən mənim canımsan, mən sənin canın.

Təzədir sevincim, köhnədir dərdim,
Yolları saçımtək ağ-qara hördüm,
Şirin yuxudaydım, ayıldım, gördüm,
Sən mənim canımsan, mən sənin canın.

Nə səbrin tükənsin, nə də boyun bük,
Həsrəti tutmadıq qəlbimizdə yük,
Xoşbəxtlik olarmı, de bundan böyük?!
Sən mənim canımsan, mən sənin canın.

İllərdən ömrümə haray kimisən,
Əlvan çilçıraqlı saray kimisən,
Mən Günəş kimiyəm, sən Ay kimisən,
Sən mənim canımsan, mən sənin canın.

Ruhuma uyğunsan, qəlbimə tənsən,
Aynurun gözünün işığı sənsən,
Mən elə sənmişəm, sən elə mənsən,
Sən mənim canımsan, mən sənin canın.

*13 iyun 2023-cü il*

# NARAHATLIQ

Ayağım yerimir başqa tərəfə,
Dönüb sən tərəfə meyillənirəm.
Küçə uşağına dönmüşəm artıq,
Gəlib məhlənizdə veyillənirəm.

Dəlitək danışıb özüm-özümlə,
Özüm də bilmirəm, hara gedirəm.
Bir yerdə durmağa tutmur qərarım,
O başa, bu başa var-gəl edirəm.

Xəyallar alıbdır məni cənginə,
Sanki gözü koram, qulaqları kar.
Söylədi küçəni süpürən qadın:
"Ay bala, kənar dur, sənə toz olar".

Kənardan boylanıb gülür kimisi,
Kimisi kövrəlib acıyır mənə.
Qalmışam taleyin sıxıntısında,
Sanki həyat olub mənə məngənə.

Biz onu bilmərik, bir Allah bilir,
Hansımız nahaqdır, hansımız haqdır.
Əgər həsrətinlə ölsəm, ruhum da
Dünyada narahat yaşayacaqdır.

## HƏSRƏT

Həsrət çəkən gözlərim
Yaş tökəcək, gəlməsən.
Tanrı göydən başıma
Daş tökəcək, gəlməsən.

Mənim ahım içimi,
Odum səni yandırar.
Öz varlığım özümü,
Adım səni yandırar.

Qulağına səs gələr
Səs olmayan yerdə də.
Nə bir canlı, nə də bir
Kəs olmayan yerdə də.

İçindəki inadın
Daim göynədər səni.
Xəyallar canavartək
Dağıdar, didər səni.

Mən bilirəm, sevirsən
Məni dünyalar qədər.
Canım çıxar, dözərəm,
Olsa da həsrət, kədər.

Dilim gəlməz qarğıyam,
Dərd səndən uzaq olsun.
Gəlsən də, gəlməsən də
Təki canın sağ olsun.

**DE...**

Sən mənim könlümün bahar yerisən,
Heç sənə bədxahlıq diləremmi, de?!
Gözümün oduyla yazmışam ora,
Adını könlümdən silərəmmi, de?

Doğmamış günəşəm, gül bətndəyəm,
Müşkülə düşmüşəm, çox çətindəyəm,
Ayların, illərin həsrətindəyəm,
Mən sənsiz bir ömür gülərəmmi, de?!

Gör necə sızlayır bir bax o tara?!
Bir kərə zəng elə, mesaj yaz, ara,
Bir payız axşamı minib qatara,
Gəlsən, sevincimdən ölərəmmi, de?!

Aynuram, bir günüm ötdü il kimi,
Solub quruyuram qərənfil kimi,
Ötüb həsrətindən anadil kimi,
Keçmişi qaytara bilərəmmi, de?!

## SƏNİ ÜRƏYİMDƏ DAŞIYACAM MƏN

Qəlbimdə kök atdın fidanlar kimi,
Səni ürəyimdə daşıyacam mən.
Lərzəyə gətirdin kövrək qəlbimi,
Səni ürəyimdə daşıyacam mən.

Mənə gərək deyil, yox özgə bir pay,
Açaram istəsən könlümü lay-lay,
Mən bulud olacam, sən sinəmdə Ay,
Səni ürəyimdə daşıyacam mən.

Məhəbbət tükənməz qarla, yağışla,
İstər baharla gəl, istərsə qışla,
Aldın ürəyimi bircə baxışla,
Səni ürəyimdə daşıyacam mən.

Qəlbimə hakimsən o vaxtdan bəri,
Dönmərəm dediyim sözümdən geri,
Sənə saxlayıbdır ürək bu yeri,
Səni ürəyimdə daşıyacam mən.

Qaydadır, dünyaya hər gələn gedər,
Çalış yaşanmasın ömür-gün hədər,
Aynuram, onu bil, ölənə qədər
Səni ürəyimdə daşıyacam mən.

*15 yanvar 2023-cü il*

## SEVGİYƏ BƏLƏNİB BU SƏHƏR DƏNİZ

Günəş nazlı-nazlı baxır səmadan,
İşıqdan "ələnib" bu səhər dəniz.
Bir ülvi sevgidir başdan-ayağa,
Sevgiyə bələnib bu səhər dəniz.

Bu səhər bulaqtək şirindir suyu,
Bu səhər başqadır dadı dənizin.
Əyilib öpərəm hər ləpirindən
Qumların üstündə qoyduğun izin.

Bu yanvar günündə gün hardan çıxıb,
Baharmı qayıdıb gəlib dənizə?
Hardandır bu qədər məhəbbət hissi?
Baxır sevgi ilə dalğalar bizə.

Gəl bu gün bir günlük qağayı olaq,
Dənizdən səmaya yol salıb uçaq,
Birlikdə Tanrıya salam aparaq,
Buludu, günəşi, səmanı qucaq.

Gəl bu gün hərəmiz bir dalğa olaq,
Sonra da birləşib dəniz olarıq.
Həyatı başqa cür gözəlləşdirib,
Dünyada hamıdan təmiz olarıq.

*21 yanvar 2023-cü il*

## ÜRƏYİMİ BÖLƏ BİLƏM

Ürəyimin lövhəsindən
Kaş adını silə biləm.
Sənə niyə sevdiyimi
Bir düşünüb bilə biləm.

Araya söz-söhbət düşüb,
Bir sağalmaz həsrət düşüb,
Dərdlə, qəmlə üzülüşüb,
Bir doyunca gülə biləm.

Yollar uzun, ömür kəsə,
Tamarzıyam bir xoş səsə.
Çətin bir də kiminləsə
Ürəyimi bölə biləm.

Ağrılarım gəlməz saya,
Dözməz buna dağ, daş, qaya.
Dönüb bir də bu dünyaya
Mən təzədən gələ biləm.

Zərimdən "şeş" istəyirəm,
Gözəl dost-eş istəyirəm,
Elə bir eşq istəyirəm,
Ondan ötrü ölə biləm.

*22 iyul 2023-cü il*

## ADINA NAMƏLƏR VAR

Mənim sınıq könlümdə
Bilirsənmi nələr var? –
Səmalara yüksələn
Ahlar var, nalələr var.

Yarama səpildi duz...
Ömür şaxta, həyat buz,
Ağlaram ulduz-ulduz,
Gözümdə jalələr var.

Getdim azdım izində
Lap günün gündüzündə,
Həsrətimin düzündə
Od tutmuş lalələr var.

Oxu, qəlbini yarsın,
Səni səndən qoparsın.
Kimə verim aparsın?
Adına namələr var.

Gəzim xəyallarında,
Can verim qollarında.
Qayıt gəl, yollarında
Aynur kimi mələr var.

## APAR MƏNİ UZAQLARA

Ürəyimdə bir arzum var:
Apar məni uzaqlara.
Tut əlimdən, sevgili yar,
Apar məni uzaqlara.

Məhəbbətin bəsdir mənə,
Qurban olsun canım sənə,
Əzizintək sıx sinənə,
Apar məni uzaqlara.

Dili şəkər, sözləri bal,
Qollarının üstünə al,
Körpə kimi bir layla çal,
Apar məni uzaqlara.

Bu sevgini sutək içim,
Yoxdur məndə başqa seçim,
İstəsən, lap candan keçim,
Apar məni uzaqlara.

Quru canam, ruhum yoxdur,
Sənsiz mənim yuxum yoxdur,
Sən varsansa, qorxum yoxdur,
Apar məni uzaqlara.

Son ver könlümdə hüzünə,
Qat gecəni gündüzünə,
Uçur məni  Göy üzünə,
Apar məni uzaqlara.

Ürəyimi salma qana,
Dözəmmirəm bu hicrana,
Qoy qalsınlar yana-yana,
Apar məni uzaqlara.

Buludları yara-yara,
Apar qərib bir diyara,
Aynur deməz: "Bura hara?!"
Apar məni uzaqlara.

*21 fevral 2023-cü il*

## ÜRƏYİM DƏNİZLƏDİR

Ulduzlarla doludur
Sentyabr axşamı.
Yolunu gözləyirəm,
Yandırmışam ağ şamı.

Pəncərədən baxıram
Mavi gözlü Xəzərə.
Eşqimiz bir dənizdir,
Gətirməyək nəzərə.

Gecə alıb qoynuna
Kədərimi gizlədir.
Sənə üzən qayığam,
Ürəyim dənizlədir.

Qırçın-qırçın ləpələr
Mavi sətin donumdur.
Gəl yubanma, sevgilim,
Zənn elə ki, sonumdur.

Səndən çox nigaranam,
Bir çimir dinc yuxum yox.
Sənsiz ölü kimiyəm,
Bədənim var, ruhum yox.

Gəl sevindir yolları,
Həsrət çəkim mən nədən?
Sənə çələng hörərəm,
Gəlsən min-min nəğmədən.

Ulduzlarla doludur
Sentyabr axşamı.
Yolunu gözləyirəm,
Yandırmışam ağ şamı.

*9 oktyabr 2023-cü il*

## SAĞ YANIM DİVARDIR, SOL YANIM QƏFƏS

Oynayır telimdə ötəri bir meh,
Titrədir könlümdə açan gülləri.
Üzümdə qəm-qüssə, dilimdə giley,
Salıram yadıma ötən günləri.

Mən necə ovudum bu "kür qız"ı bəs?!
Könlüm ayrılığa düşübdür əsir.
Sağ yanım divardır, sol yanım qəfəs,
Həsrətin hər yandan yolumu kəsir.

Bir vaxtlar səmada çaxan şimşəklər
Mənim ürəyimdən od alardılar.
Sanıb sübh şəfəqi güllər, çiçəklər
Mənim gözlərimə aldanardılar.

Ağlıma gəlməzdi ayrılıq, həsrət,
Hər zaman hər yerdə yanında idim.
Göz-gözə, söz-sözə, can-cana nisbət,
Könlündə, ruhunda, qanında idim.

Döndümü sinəndə ürəyin daşa?!
Unutdun ürəyi talan Aynuru.
Bir də heç bir qüvvə qaytarmaz başa,
Köz kimi kül altda qalan Aynuru...

*3 fevral 2023-cü il*

## İNANA BİLMİRƏM MƏN

Necə inanım məni
Tərk edib getdiyinə?
Sinəndə eşqin odu
Qalanmayacaq yenə?

Bir yol xatırla məni,
Bir yol zəng elə, barı.
Bu günümü unudub,
Dönüm keçmişə sarı.

İnadkar olma, gəl tök
Ətəyindən daşları.
Öpür payız küləyi
Gözümdəki yaşları.

Pəncərədən baxıram
Uzaq-uzaq yollara.
Heçmi acımadın sən
Bu qurumuş qollara?

Hər dəfə görüşünə
Açılardı qanadtək.
Niyə susub qalmısan
Nə müddətdir inadtək?

Dağ boyda eşqimizdən
Heç nə qalmayıb daha?
Qayıt gəl, ömrüm-günüm,
And verirəm Allaha.

*10 sentyabr 2021-ci il*

## UÇUB GƏLƏRƏM

İstər səadətə, istər ölümə –
Haraya çağırsan, qaçıb gələrəm.
Qoymaram qalasan zülmət içində,
Günəştək nurumu saçıb gələrəm.

Eşqinə özümü kəniz saxlaram,
Gözümdə tufanlı dəniz saxlaram,
Adımı səninçün təmiz saxlaram,
Üzüağ, alnı da açıq gələrəm.

Baxma, qar-yağışa, dumana, çənə,
Qurbandır bu ömrüm, həyatım sənə,
Əgər bircə kəlmə "gəl" desən mənə,
Bütün qapıları açıb gələrəm.

Aynuram, eşqimlə qoşa dönərəm,
Əhdimi unutsam, daşa dönərəm,
Adımı çağırsan, quşa dönərəm,
Sən olan dünyaya uçub gələrəm.

## MƏNİM NƏFƏSİMLƏ QABARSIN KÖKSÜN

Sakitlik gəzmirəm, dinclik gəzmirəm,
Yorulmaq istəyir qanadım elə.
Bu qaynar həyatdan heç vaxt bezmirəm,
Bərkiyib, daşlaşıb inadım elə.

Zülməti qovlayan səhər kimiyəm,
Tacımda bir odlu günəş parlayır.
Qarışqa misallı şəhər kimiyəm,
Ürəyim dünyaya səadət yayır.

Sən də gəl qoynuna bu burulğanın,
Heç sual vermədən, heç dinmədən gəl.
Qəfil bir eşq ilə coşanda qanın,
Sən mənim ömrümə çəkinmədən gəl.

Demirəm Aya bax, ulduza boylan,
Səndən kəhkəşanlar ummuram əsla.
Dönüb qəlbindəki o qıza boylan,
Gəl sevgi adında odlu libasla.

Olsun, lap yağmurlu, dumanlı bir gün,
Üfüqdə lap azca işıq görünsün.
Olaq fırtınalar qoynuna sürgün,
Mənim nəfəsimlə qabarsın köksün.

Sakitlik gəzmirəm, dinclik gəzmirəm,
Yorulmaq istəyir qanadım elə.
Bu qaynar həyatdan heç vaxt bezmirəm,
Bərkiyib, daşlaşıb inadım elə.

## KÜSMƏRƏM

Gözlərindən üzülməsin göz yaşın,
Acı-acı süzülməsin göz yaşın,
Yanağına düzülməsin göz yaşın,
Dözmərəm.

Qanadımı oda, suya vuraram,
Yuvamızı ulduzlarda quraram,
Ölənəcən qulluğunda duraram,
Bezmərəm.

Şirin-şəkər bal edərəm dilimi,
Qaytararam səhralardan dəlimi,
Tanrım billəm, ətəyindən əlimi
Üzmərəm.

Bilirsənmi? Ürəyimdə var yerin,
Bu hisslərim həm təmizdir, həm dərin,
Tək sən varsan, səndən başqa mən birin
Gəzmərəm.

Əlimdədir həyatının uğuru,
Məndən saçır Günəş nuru, Ay nuru,
Yaxına gəl, bəyənməsən Aynuru
Küsmərəm.

## DURNALAR CƏNUBA UÇMAMIŞ QAYIT

Saraldı həsrətdən gözümün kökü,
Ağırdır, sevgilim, tənhalıq yükü.
Yoxdur yandırmağa bir Simurq tükü,
Bir azdan düşəcək qarlı qış, qayıt,
Durnalar cənuba uçmamış qayıt.

Saxladı yolundan hansı an səni?
Səni istəyirəm, ay insan, səni!
Göyə aparmamış bu fəğan səni,
Gör bir nə düzgündür, nə yanlış, qayıt,
Durnalar cənuba uçmamış qayıt.

Harda daşa döndün, torpağa döndün,
Yarpağı tökülmüş budağa döndün?!
Mənimçün əl çatmaz bir dağa döndün,
Qonmaz o zirvəyə hətta quş, qayıt,
Durnalar cənuba uçmamış qayıt.

Köçündən ayrılıb, de, hara düşdün,
Kimin həsrətinin odunda bişdin?
Bir vaxtlar sən mənə "durnam" demişdin,
Yol var aramızda bir qarış, qayıt,
Durnalar cənuba uçmamış qayıt.

Bu sevən qəlbimin min yarası var,
Yarıb bax, salamat gör harası var?!
Aynuram, könlümdə xal qarası var,
Mənə tənə vurur dost-tanış, qayıt,
Durnalar cənuba uçmamış qayıt.

## DİLİNDƏ ƏN ŞİRİN SÖZƏ DÖNÜRƏM

Getmisən, bir yerdə qərar tutmuram,
Hər gün xəyalımda "biz"ə dönürəm.
Quruyub qalıram xatirələrdə,
Getdiyin cığıra, izə dönürəm.

Nə qədər həsrət var ürək dağımda,
Solur çiçəklərim könül bağımda.
Hər axşam oyanıb buz yatağımda,
Alova dönürəm, közə dönürəm.

Gəl də qoy çəkilsin bu qara pərdə,
Tapşırıb gedibsən sən məni dərdə.
Hicranım gül açan xatirələrdə
Mən səni axtaran gözə dönürəm.

Bülbül naləsi var ahu-zarımda,
Çiçəklər açılmır duyğularımda.
Sənə qovuşuram yuxularımda,
Dilində ən şirin sözə dönürəm.

## BÖLMÜŞDÜM SƏNİNLƏ TƏN ÜRƏYİMİ

Yayın istisində dumana düşüb,
Bürüyüb bir çiskin, çən ürəyimi.
Başqası görməsə, incimərəm heç,
Nə üçün görmürsən sən ürəyimi?

Qayıdan deyiləm ötən günlərə,
Qaçıb küçələrə, düşüb tinlərə.
Çıxardıb atacam göyərçinlərə,
Quşlar dən bilsinlər, dən, ürəyimi.

Söylə, bəllidirmi heç halım sənə?
Dönməsin qayıdıb xəyalım sənə.
Daha nə verəydim, ay zalım, sənə,
Bölmüşdüm səninlə tən ürəyimi.

Kiçik bir təpəydin, öyüb dağ etdim,
Bəlkə, güvənməkdə sənə ağ etdim.
Ucuz bir sevgiyə oyuncaq etdim,
Qoruya bilmədim mən ürəyimi.

Arzuya yetmisən, kama yetmisən,
Aynuru hər iki gözdən etmisən.
Gör necə xaraba qoyub getmisən,
Mənim toy-büsatlı şən ürəyimi.

## UNUTMUSAN...

Dediklərin əfsanəymiş, yalanmış,
Unutmusan, unutmusan sən məni.
Mənə ancaq xatirələr qalanmış,
Unutmusan, unutmusan sən məni.

Tək elədi, bu sevginin cəmi tək,
Qovruluram gün altında zəmitək.
Limanını tərk eləmiş gəmitək
Unutmusan, unutmusan sən məni.

Özğələrə ayrılanda gülürdük,
Ayrılırdıq, qovuşmaqçün ölürdük,
Bir çətirdə daldalana bilirdik,
Unutmusan, unutmusan sən məni.

İndi hansı bağça, bağa yağırsan?!
Kimliyini məlum etdin axır sən.
O şəkildən niyə yad-yad baxırsan?
Unutmusan, unutmusan sən məni.

O zaman ki məhəbbətə acardın,
"Aynur" deyib tez yanıma qaçardın.
Əhsən sənə, unutmağı bacardın!
Unutmusan, unutmusan sən məni.

*4 sentyabr 2023-cü il*

## XATİRƏLƏR ADASINA GEDİRƏM

Bir səs məni ötənlərə çağırır,
O illərin sədasına gedirəm.
Sevgi adlı bir gəmiyə minmişəm,
Xatirələr adasına gedirəm.

Pozulmayıb ürəyimin düzəni,
Üzəcəyəm ürəyimi üzəni,
Mən bir eşqin gəlin kimi bəzənib,
Sualına, nidasına gedirəm.

Ah, bu istək xeyir-şərmi, görəsən,
Xəyalımız görüşərmi, görəsən,
Ortalığa qan düşərmi, görəsən? –
Məhəbbətin xatasına gedirəm.

Dəli-dəli baş götürüb qaçmışam,
Əllərinin sığalına acmışam,
Arzu-arzu, çiçək-çiçək açmışam,
Yuxuların butasına gedirəm.

Gəl Aynurun həsrətindən göynəmə,
İndən belə heç nə gəlmir eynimə,
Geyinmişəm küləkləri əynimə,
Son görüşün vidasına gedirəm.

*2 fevral 2024-cü il*

## ÜRƏYİM

Mən ki ilk bahara könül vermişəm,
Heç zaman sinəmdə qış olmaz daha.
Gözəl duyğuların evidir ürək,
Yəqin ki, sevgidən boş olmaz daha.

Yüyürməz kor kimi əl havasına,
"Can" dedim mən onun hər nəvasına,
Bağlanıb qurduğu yurd-yuvasına,
Ürəyim köçəri quş olmaz daha.

Ürək tufanların ötər yanından,
Bir ülvi eşq üçün keçər canından,
Üzüağ çıxmışam imtahanından,
Bir də vəfasıza tuş olmaz daha.

Batsa da dünyanın qəm-qübarında,
Ötür bir sevginin könül tarında.
Ürəyim təkcədir etibarında,
Aynurun köksündə daş olmaz daha.

*30 aprel 2023-cü il*

## TƏKCƏ MƏNİM ÜÇÜN

Mənim gözişləyən genişliyimsən,
Çalış ki, ömrümə dar olma, eşqim.
Mənim ürəyimdə ballan, bəhərlən,
Başqa bir budaqda bar olma, eşqim.

Gəlmə heç tufanla, boranla, qışla,
Söndürmə odumu qarla, yağışla,
Bəzə taleyimi min cür naxışla,
Əldə parçalanan nar olma, eşqim.

Adını yazdırram daşımın üstə,
Yüz il də yaş gəlsə yaşımın üstə,
Bayraq ol, dalğalan başımın üstdə,
Heç vaxt el içində xar olma, eşqim.

Aynuram, şipşirin sözəm, şeirəm,
Mən sənin uğrunda alov geyirəm,
Təkcə mənim üçün "var ol", deyirəm,
Məndən başqasına var olma, eşqim.

*23 iyun 2023-cü il*

# XOŞBƏXT QADIN

Aç qəlbinin qapısın
Sevirsənsə, sən məni.
Eşqinin zirvəsi bil,
Tut göylərə tən məni.

Qəlbim çırpınır eşqdən
Əsl sevgi yaşında.
Mənə bir isti yer ver
Ürəyinin başında.

Çıxım şahlıq taxtına,
İşvələnim, nazlanım.
Qanad da ver uçmağa,
Quş kimi pərvazlanım.

Şəfəq saçsın qoy Günəş,
Qucaq açsın Ay bizə.
Sevgi nəğməsi desin
Bulaq bizə, çay bizə.

Yaşat mənə doyulmaz
Məhəbbətin dadını.
Özümü bu dünyanın
Sanım xoşbəxt qadını.

*13 avqust 2023-cü il*

## GƏLƏCƏM

Bu gün sənlə görüşə mən
Bir gülər üzlə gələcəm.
Məhəbbətlə, qucaq dolu
Söhbətlə, sözlə gələcəm.

Eyləyəcəm fikrimi cəm,
Qorxu-qaytaq bilməyəcəm.
Təzə izlə gəlməyəcəm,
Lap köhnə izlə gələcəm.

Öz adətim, vərdişim var,
Gələcəyim, keçmişim var.
Dağda, daşda nə işim var?!
Rahatca düzlə gələcəm.

Gələcəm mən andırmağa,
Sevgi nədir qandırmağa,
Vücudunu yandırmağa,
Alovla, közlə gələcəm.

Görəcəksən ülfətimi,
Doğruldacam niyyətimi,
Artıracam sürətimi,
"Saatda yüzlə" gələcəm.

*25 avqust 2023-cü il*

## DAHA BU EŞQ İLƏ BİR DƏ ÜZÜLMƏ

Daha bu eşq ilə bir də üzülmə,
Qəm-kədər yediyin bəsdir, ürəyim.
Bəlkə də, bilmirik, o vəfasızın
Bizi öldürməkdir qəsdi, ürəyim.

Həyat ayrı şeylər öyrətdi bizə,
Xəyal aləminə bir də cummayaq.
Heç nə verməyəcək o ölgün həvəs,
Söyüd ağacından meyvə ummayaq.

Həyatda qardaşdır sevinclə kədər,
Bir gün sevinc düşər, bir gün dərd düşər.
Bu qədər əzabdan sonra yəqin ki,
Bizə də bir damcı səadət düşər.

Nə nəğmə tükənər, nə söz, nə sevgi,
Bizim öz dünyamız özəl deyilmi?
Bir korun ocağın yanmağındansa,
Bir şimşək çaxışı gözəl deyilmi?

Bizim ömrümüzün çiçəkli yazı
Qalsın öz əfsunlu yaraşığında.
Bütün ağrıları, üzüntüləri
Əridək sevginin gur işığında.

Daha bu eşq ilə bir də üzülmə,
Qəm-kədər yediyin bəsdir, ürəyim.
Bəlkə də, bilmirik, o vəfasızın
Bizi öldürməkdir qəsdi, ürəyim.

*16 fevral 2024-cü il*

## MƏHƏBBƏTƏ LAYİQƏM

Könlüm bir gülüstandır, daha bir qurd ulamır,
Dayanıbdır göz yaşım, yanağımı sulamır,
Sənə gedən yolda toz üst-başımı bulamır,
Niyə olsun bu eşqin günü kədər, ayı qəm?
Mən həyatda ən təmiz məhəbbətə layiqəm.

Bəndə könül verməzmi, Tanrı özü seçmişə,
Könlündə öz eşqini yüz ölçüb, bir biçmişə?!
Nağıllar aləmində gedib çıxdım keçmişə,
Özümü Həvva sandım, səni də bildim Adəm,
Mən həyatda ən təmiz məhəbbətə layiqəm.

Sirli görüşümüzün ilk şahidi Yarasa,
Ürəyimlə bir yerdə uçub getdi harasa.
Sükut susub gecəyə, inanma Aynur susa,
Ay gecəyə həmdəmdir, gecə ulduza həmdəm,
Mən həyatda ən təmiz məhəbbətə layiqəm.

*27 noyabr 2023-cü il*

## HƏR GECƏ MƏNİMÇÜN BİR ULDUZ YANIR

Hər gecə mənimçün bir ulduz yanır
uzaq səmaların dərin qatında,
adım nəğmələnir xatiratında.
Hər gecə mənimçün bir ulduz yanır,
gəlir qaranlıqdan səsi, harayı,
işığa qərq olur könül sarayı.
Sıyrılır gecələr qara dumandan,
sıyrılır bir itmiş arzu-gümandan.
Hardasa mənimçün bir ulduz yanır,
könlümü bir həzin neyə aparır,
məni Yerdən alıb Göyə aparır.
Mən Göylər qızıyam, məsum, utancaq,
o ulduz mənimçün daim yanacaq.
İsinir işıqda tərli pəncərəm,
mən də bu işıqda bir ovuc zərəm.
Hər gecə sabaha ruhum inanır,
hər gecə mənimçün bir ulduz yanır.
Mən üzü göylərə dua edirəm,
hər gecə göylərə çıxıb gedirəm.
Hər gecə mənimçün bir ulduz yanır...

*01 iyun 2023-cü il*

## SORUŞ

Mən necə yanıram şam kimi dərddən,
Odumdan xəbər al, közümdən soruş.
Həsrətin sinəmi şuma döndərib,
Mən nələr çəkirəm, dözümdən soruş.

Vurdu xəzan yeli ilk nübarımı,
Qoruya bilmədim könül barımı,
Sənə ilqarımı, etibarımı
Hər gecə ağlayan gözümdən soruş.

Bu boyda sədaqət var özgə kimdə?!
Ötürsən könlümdə tək sarı simdə,
Səni düşünürəm hər şeirimdə,
Səni sevdiyimi sözümdən soruş.

Gümanlar min yerə azıb-itir də,
Gizli deyiləm ki, bir məchul sirdə,
Məni başqasından soruşma bir də,
Yadına düşəndə özümdən soruş.

Boşuna cəhd etmə gəl quru-quru,
Qəlbimin atəşi, gözümün nuru,
Axtarmaq fikrinə düşsən Aynuru,
Bir gün unutduğun izimdən soruş.

*21 avqust 2023-cü il*

## SEVİNƏ-SEVİNƏ SEVMİŞƏM SƏNİ

Arzumun önünə şərt çəkməmişəm,
Sevinə-sevinə sevmişəm səni.
Mən səni sevəndə dərd çəkməmişəm,
Sevinə-sevinə sevmişəm səni.

Bilmişəm şah oğlu şah olduğunu,
Görmüşəm vüqarlı dağ olduğunu,
Duymuşam çiçəkli bağ olduğunu,
Sevinə-sevinə sevmişəm səni.

Sənin varlığınla sevincə tuşam,
Sən elə sanma ki, köçəri quşam.
Sənə misra-misra şeir olmuşam,
Sevinə-sevinə sevmişəm səni.

Aynura İlahi yazan yazısan,
Sevgidən düzələn könül sazısan.
Sən mənim eşqimin dan ulduzusan,
Sevinə-sevinə sevmişəm səni.

*1 iyul 2023-cü il*

## ARZULARIN ÖLDÜ CƏMİ, SORUŞMA

Taleyimi gözlərimdən oxu, bil,
İçimdəki qüssə-qəmi soruşma.
Niyə belə tez saraldı baharda
Arzu dolu yaşıl zəmi? Soruşma!

İndi daha dərddən, qəmdən gözüm tox,
Dərd quyusu çox dərindir, bəyim, çox,
O çağların dönməyinə ümid yox,
Getdi ömrün gözəl dəmi, soruşma.

Bəxt yoluma işığını salmadı,
Ağız büzdü, salam verdim, almadı,
Ürəyimdə tək biri də qalmadı,
Arzuların öldü cəmi, soruşma.

Bundan belə Aynur gərək çalışsın,
Sevinməyən taleyiylə barışsın.
Qoy payızın leysanına qarışsın
Gözlərimi tutan nəmi, soruşma.

*22 oktyabr 2021-ci il*

## XOŞ GƏLİB SƏFA GƏTİRDİ

Gözlərindən doğan şəfəq
Əhdimə vəfa gətirdi.
Bu payızda ürəyimə
Başqa bir hava gətirdi.

Bu qəlb evin, bu can sevgin,
Gəldi mənə acan sevgin,
Çiçək kimi açan sevgin
Dərdimə dəva gətirdi.

Özgəsində yoxdur gözün,
Özün oldun, ancaq özün,
Şirin dilin, şirin sözün
Məni insafa gətirdi.

Oldun bir bəstə, könlümə,
Eşqin güldəstə, könlümə,
Gəldi də xəstə könlümə,
Ömürlük şəfa gətirdi.

Taleyimiz gətirməz bəd,
Olmaz qara tikan, əlbət,
Aynur deyir, bu məhəbbət
Xoş gəlib səfa gətirdi.

*5 oktyabr 2023-cü il*

## MƏNİM RUH ƏKİZİM

Gələndə ömrümə günəş kimi gəl,
Yayılsın şəfəqi pəncərəmizdən.
Dünyada "Leyli və Məcnun"dan əvvəl
Sevənlər öyrənsin sevgini bizdən.

Mən sənin Göyünəm, səmanam hər dəm,
Sən mənim ulduzum, Ayım ol, yetər.
Bizim qəlbimizi tanımasın qəm,
Bir ovuc səadət payım ol, yetər.

Keçib gəl tufandan xilaskar kimi,
Gəl mənim ömrümün sahibi, adam.
İşığa həsrətəm mən bir kor kimi,
Səni gözləyirəm, özgəyə yadam.

Gəl mənim ömrümə yaz səhəri, gəl,
Üfüqlər qızarıb alışan zaman.
Sil mənim qəlbimdən bu qəhəri, gəl,
Yaman darıxmışam səninçün, yaman.

Yalandır dünyada səndən başqası,
Öz könül səsimi gərək dinləyəm.
Ömrümə, günümə yazılan yazı,
Mənim ruh əkizim, mən səninləyəm.

*7 noyabr 2023-cü il*

# O dəlinin biri sənsən,
# biri mən

*İki dəli eşq meyindən dəmdir ki,*
*İki dəli iki kövrək simdir ki,*
*Ən ağıllı iki dəli kimdir ki?! –*
*O dəlinin biri sənsən, biri mən.*

## SALAMLARIM VAR

Sizə min-min ətirli
Güldən salamlarım var.
Dağdan, düzdən, dərədən,
Çöldən salamlarım var.

Dərdin sizdən oxu yan,
Kimdir eşqə çox uyan?
Qular nəğmə oxuyan
Göldən salamlarım var.

Nə yerdədir hal-əhval?
Düşməsin heç qəlbə xal.
Ən şirin, ən şəkər, bal
Dildən salamlarım var.

Mənəm salam gətirən,
Dərdi, qəmi itirən.
Mərd oğullar yetirən
Eldən salamlarım var.

*24 may 2022-ci il*

## GƏL SƏNƏ QUZU KƏSİM

Dayanmışam yolunda –
Sağında, gah solunda.
Lap divanə halında
Əsirəm əsim-əsim,
Gəl sənə quzu kəsim.

Eşq dağımdır, eşq dərəm,
Bu bəndimdir, o bərəm.
Heç vaxt ruhdan düşmərəm,
Tükənməzdir həvəsim,
Gəl sənə quzu kəsim.

Demişdin ki, gəlirəm,
Lap dərdindən ölürəm.
Gəldiyini bilirəm,
Tələs, mən də tələsim,
Gəl sənə quzu kəsim.

Canım, gözüm, ürəyim,
Kəsilibdir kələyim.
Üşüyürsən, bələyim?
Bələyindir nəfəsim,
Gəl sənə quzu kəsim.

Sözünə "can" demişəm,
Bunu hər an demişəm.
Mən bir qurban demişəm,
Qoyma ki, çox mələsin,
Gəl sənə quzu kəsim.

*13 iyun 2022-cü il*

## MƏN ÖLMÜŞ

Axtaranda tapammıram mən səni,
Bağlayacam sən ölmüşü mən ölmüş.
Bir gün gəlib öldürəcəm, sonra da
Ağlayacam sən ölmüşü mən ölmüş.

Dərd veribsən, qəm veribsən bolundan,
Çıxardıbsan ürəyimi yolundan,
Sallanacam zəli kimi qolundan,
Saxlayacam sən ölmüşü mən ölmüş.

Xəyalını qaytaracam dünənə,
Yanıq verib deyəcəyəm: "Mənə nə?!"
Çalın-çarpaz dağ çəkəcəm sinənə,
Dağlayacam sən ölmüşü mən ölmüş.

## O DƏLİNİN BİRİ SƏNSƏN, BİRİ MƏN

İki dəli xatırlansa hardasa,
O dəlinin biri sənsən, biri mən.
İki dəli bir-birinə yardırsa,
O dəlinin biri sənsən, biri mən.

Su vermişik gözümüzdən güllərə,
Qular kimi qanad açdıq göllərə,
İki dəli eşqdən düşsə çöllərə,
O dəlinin biri sənsən, biri mən.

Daş da dönüb çiçək açar diləsən,
Deyirəm ki, eşidəsən, biləsən,
Mən bir dəli, sən bir dəli iləsən
O dəlinin biri sənsən, biri mən.

Ruhum sənin ruhun üçün acıbdır,
Ürəyimin qapısını açıbdır,
Deyirlər ki, iki dəli qaçıbdır,
O dəlinin biri sənsən, biri mən.

İki dəli eşq meyindən dəmdir ki,
İki dəli iki kövrək simdir ki,
Ən ağıllı iki dəli kimdir ki? –
O dəlinin biri sənsən, biri mən.

Aynur, salma ötən günü çox yada,
Aramızda dava-dalaş, qan-qada,
İki dənə zır dəli var dünyada,
O dəlinin biri sənsən, biri mən.

## DƏLİ KİMİ

Başımda eşq havası,
Oynadım dəli kimi.
Şirin gəldi nəvası,
Doymadım dəli kimi.

Ürəyi dağa döndüm,
Bal ilə yağa döndüm.
Qəfil irmağa döndüm,
Qaynadım dəli kimi.

Döndü gənclik çağları,
Şəfəq tutdu bağları,
Dəlib keçdi dağları
İnadım dəli kimi.

Hardasan, gəl çıx, harda?
Qalmasın könlüm darda.
Çırpınır səmalarda
Qanadım dəli kimi.

*18 fevral 2022-ci il*

## UNUDASAN

Bu dünyada bu dünyanın özünü
Bir diz ola, unudasan baş qoyub.
Olanların, bitənlərin üstünə
Birdəfəlik, unudasan daş qoyub.

Xəyalların arxasınca çapasan,
Qismətini it ağzından qapasan.
İşlənməmiş bəxt üzüyü tapasan,
Qaşı üstə, unudasan qaş qoyub.

Odlanasan bir ürəyin közündən,
Hər dinəndə bal süzülə sözündən,
Ümidlərin məzarına gözündən
İki damla, unudasan yaş qoyub.

Qəmzələnə, nazlanasan qoynunda,
Sevmək üçün sazlanasan qoynunda,
Gündüzləri yazlanasan qoynunda,
Gecələri, unudasan çaş qoyub.

Açıldıqca qol-qanadın, budağın,
Kəkliyinə çevriləsən bir dağın,
Dodağına toxunduqca dodağın
Nəyin varsa, unudasan kaş qoyub.

Günəşlənə, yağışlana tellərin,
Hara desən gedib çata əllərin,
Bir-birindən gözəl keçə illərin
Yaş üstünə, unudasan yaş qoyub.

Xəyaldakı bu toy dönə əsilə,
Aşıqlar da oxuya zil səs ilə,
Kəbinimiz Göy üzündə kəsilə,
Qazmaq altda, unudasan aş qoyub.

*28 yanvar 2022-ci il*

## MƏN SƏNİN RUHUNAM

Sənin həsrətinlə yanan könlümün
Alovu gözəldir, közü gözəldir.
Mənə dayanmadan "sevirəm" desən,
Görərsən, "sevirəm" sözü gözəldir.

Hər şeyin qəlbi var, daşın da, hətta...
Saxla adın kimi sən bunu yadda:
Naxələf iş tutmaz heç vaxt həyatda,
Kimin ki ürəyi, gözü gözəldir.

Könlümü xoş sözə tutub uyutma,
Mən sənin ruhunam, məni unutma.
Qaşını, gözünü tərifə tutma,
Aynur başdan-başa özü gözəldir.

## BU QIZ SƏNİ ÖLDÜRƏCƏK, BİLƏSƏN

Çevirmisən köhnə valı, gəzirsən,
Bu qız səni öldürəcək, biləsən.
Görürəm ki, çox havalı gəzirsən,
Bu qız səni öldürəcək, biləsən.

Qəlbin, ruhun təzəmidir, tərmidir,
Dediyin söz altunmudur, zərmidir?!
Sevən qəlbi partlamamış mərmidir,
Bu qız səni öldürəcək, biləsən.

Dərddən, qəmdən neçə paltar geyirsən,
Niyə belə ürəyini yeyirsən?
Nə çox elə "bu qız", " bu qız" deyirsən,
Bu qız səni öldürəcək, biləsən.

Didələrin qan-yaş ilə dolacaq,
Gülüstanın bircə günə solacaq,
Bu qız sənin Əzrayılın olacaq,
Bu qız səni öldürəcək, biləsən.

Fələk nə vaxt biz sayanı sayıbdır?!
Yaxşı düşün, el-obadan ayıbdır,
Demirsənmi, cavan canın hayıfdır?!
Bu qız səni öldürəcək, biləsən.

Qərib durna köç eyləyər payızda,
Gedən dönməz, nə inildə, nə sızla,
Nə tapmısan Aynur adlı bu qızda,
Bu qız səni öldürəcək, biləsən.

*9 oktyabr 2022-ci il*

## BİR DƏLİ ŞEYTAN DEYİR...

Bir dəli şeytan deyir,
Getmə bu gün görüşə.
Görə ki, gəlməmişəm,
Araya qırğın düşə.

Bir dəli şeytan deyir,
Heç açma telefonu.
İki-üç zəngdən sonra
Acıqlı dindir onu.

Bir dəli şeytan deyir,
Buraxma həyatına.
Uzaqdan baxsın elə,
Qoy minsin cin atına.

Bir dəli şeytan deyir,
Həsrətə məhkum elə.
Salam vermə görəndə,
Sevincdən məhrum elə.

Bir dəli şeytan deyir,
Güldür elə, aləmə,
Bir dəli şeytan deyir,
Yox, elə iş eləmə!

Bir dəli şeytan deyir...
Yox, Aynur, belə olmaz.
Şeytanı boş ver, canım,
Ürəyinə qulaq as.

*19 iyul 2023-cü il*

## GƏZDİR ƏL ÜRƏYİMƏ

Fikir etmə, çox fikir,
Adamı yıxar, oğlan.
Səni sıxan dərd-kədər
Məni də sıxar, oğlan.

Hər sonun var əzəli,
İşlər görmə məzəli,
Səni sevən gözəli
Gəl eləmə xar, oğlan.

Bu Leyli him-cimidir,
Qəlbim kaman simidir,
Fürsət də quş kimidir,
Əlindən çıxar, oğlan.

Ələ ləl ürəyimə,
Gəzdir əl ürəyimə,
Tez ol, gəl ürəyimə,
Bu ömür axar, oğlan.

Qoy alışım, köz ver ki,
Ayrılığa döz, ver ki,
Bəribaşdan söz ver ki,
Mənimsən axır, oğlan.

Özün edib çəp işi,
İncitmə bu "çəpiş"i,
Adam da heç öpüşü
Başamı qaxar, oğlan?!

Baxma dalınca yadın,
Aynurdur qol-qanadın,
Elə edərəm adın
Yadından çıxar, oğlan.

*4 oktyabr 2021-ci il*

## BİZDƏN BİZƏ KİM DÜŞƏ

Gəlib sizə dəyərdim,
Tezdən bizə kim düşə?
Qapınızı döyərdim,
Sizdən bizə kim düşə?

Qoy deyim sözarası:
"Sağalmaz söz yarası",
Ürəyimin parası,
Sözdən bizə kim düşə?

Nə qışı, nə də yayı
Keçirməyək havayı,
Axı bizdən savayı
Bizdən bizə kim düşə?

Mənə bir söz ol boyun,
Çıxıb gedək qol-boyun,
Saldığımız yol boyu
İzdən bizə kim düşə?

Qəfil gələk üz-üzə,
Qaş oynaya, göz süzə,
Deyəmmərəm mən sizə,
Bizdən sizə kim düşə!

*14 sentyabr 2021-ci il*

## AĞUŞUNDA GİZLƏNİM

Gəl gizlənpaç oynayaq,
Baxışında gizlənim.
Odlu öpüşlərinin
Yağışında gizlənim.

Taleyimə doğan gün,
Yoxdur səndən bir səs, ün,
Yaşadığın bir ömrün
Naxışında gizlənim.

Bu sevda yollarında
Dindim könül tarında.
Özün de, baharında,
Ya qışında gizlənim?

Ay bu sevgiyə susan,
Nə var ki, bundan asan?!
Axtarıb tapmayasan,
Ağuşunda gizlənim.

Gəl gizlənpaç oynayaq,
Baxışında gizlənim.
Odlu öpüşlərinin
Yağışında gizlənim.

*21 may 2022-ci il*

## SEVGİNİN ÜNVANIYAM

Oğlan, yıxaram səni,
Bir eşq pəhləvanıyam.
Hər kimə məğlub olsam,
Onun da cananıyam.

Cana yığaram səni,
Oda yaxaram səni,
Eşqlə sıxaram səni,
Gözəllər sultanıyam.

Gəl eyləyim sənə naz,
Ruhun eyləsin pərvaz.
Məktub yazsan mənə yaz,
Sevginin ünvanıyam.

Bəstələ bir bəstə sən,
Oxu həzin səsdə sən.
Əgər bilmək istəsən,
Şəkinin ceyranıyam.

Bir sonayam gölündə,
Qoyma hicran çölündə.
Aşıqların dilində
Məhəbbət dastanıyam.

Məni qəlbdən istəsən,
Gəl bu mənəm, bu da sən.
Dilin quruyar desən:
"Aynurun heyranıyam?! "

*10 dekabr 2022-ci il*

## ÖZÜNÜ QOYUBSAN DAĞIN BAŞINA

Dedi: "Nə durmusan, gəl qoşa gedək!"
Dedim ki, deyəsən, havalanmısan?!
Dedi: "Zarafata salma sözümü,
Könlümdə quş kimi yuvalanmısan".

Dedim: "Boğazında qalsın iştahın,
Yetməsin göylərə fəryadın, ahın! "
Dedi: "Çox olsa da, sənin günahın,
Hər zaman dilimdə dualanmısan".

Dedim: "Sağ çıxmazsan eşq savaşından,
Çöllərə düşübsən neçə yaşından?
Elə bil çıxıbdır ağlın başından,
Sən harda bu qədər şüalanmısan?! "

"Nə sənə baxaram, nə göz yaşına,
Özündən betəri çıxsın qarşına.
Özünü qoyubsan dağın başına,
Kəpəzmi, Murovmu, Savalanmısan?! "

## SƏN DÜŞMÜSƏN PÜŞKÜMƏ

Qanadlanıb uçacam
Məhəbbətdən quş kimi.
Dövrə vurub səmadan
Yağdıracam eşqimi.

Yağdıracam başına
Məhəbbəti nur kimi.
Onda tanıyacaqsan
Aynuru Aynur kimi.

Axı eşq paylananda
Sən düşmüsən püşkümə.
Heç vaxt şübhən olmasın
Mənim ülvi eşqimə.

Sinəndə çırpınacam
Ürək kimi, can kimi.
Damarından axacam
Odlu cərəyan kimi.

Sevgi yaş tanımır ki,
Fərq etməz, nə yaşdasan.
Tanıdığım bir yer var,
Orda da sən başdasan.

Gələcəm, ayrılığın
Olsa üzü boz belə.
Sənə olan eşqimə
Qonmayacaq toz belə.

*4 iyul 2022-ci il*

## SƏNƏ GƏLƏN MƏNƏ GƏLSİN

Uzaq olsun səndən azar,
Sənə gələn mənə gəlsin.
Ay sevgilim, bir arzum var,
Sənə gələn mənə gəlsin.

Bir ney kimi, nəva kimi,
Nəfəs kimi, hava kimi,
Dərman kimi, dəva kimi,
Sənə gələn mənə gəlsin.

Ruha keçir, qana hopur,
Eşqin candan-cana hopur,
Dilimdən bir dua qopur,
Sənə gələn mənə gəlsin.

Sözümə pərdə tuturam,
Bükürəm, zərdə tuturam,
Pulu nəzərdə tuturam,
Sənə gələn mənə gəlsin.

## BAYRAM HƏDİYYƏSİ

Mən bu eşqin, məhəbbətin
Havasına oynayıram.
Ona görə dayanmadan
Bulaq kimi qaynayıram.

Qoy bir az da qanadlanım,
Qoy biraz da havalanım.
Keçən yaz da havalıydım,
Qoy bu yaz da havalanım.

Çalış bir az iti tərpən,
Bu fürsəti vermə yelə.
Mənəm sənin şəkərburan,
Paxlavan da mənəm elə.

Gəl atlanaq tonqal üstən,
Qalmasın bir ağrı-acı.
Aynur kimi bir gözəli
Et özünə sən baştacı.

Gah "keçəl" ol, gah da "kosa",
Mənsə bayram yumurtası.
Qoy heybənə apar məni,
Apar günün günortası.

Yaşıl donlu bahar qızam,
Kimdir mənə nə deyəsi?!
Bu gün özüm olmalıyam
Sənə bayram hədiyyəsi.

*21 mart 2023-cü il*

## SƏNİ VERƏNƏ QURBAN

Taleyimə gün doğub,
İlahidən barat var.
Heç kimə söyləmərəm,
Ürəyimdə bir ad var.

Günəş doğar, ay batar,
Səsim hər yana çatar,
Gələcəkdir o qatar,
Ay var, gün var, saat var.

Sevgidən bihuş olub,
Ürək sanki quş olub,
Durnalara qoşulub
Uçmaq üçün qanad var.

Aynur yaranıb nurdan,
Heç yerə getmə burdan,
Səni verənə qurban,
Sən varsansa, həyat var.

*17 mart 2023-cü il*

## AÇ DİLİMİN DÜYÜNÜNÜ, AÇ GÖRÜM

İpək telim gülab ətri qoxuyub,
Qəlbim sənə eşq çələngi toxuyub,
Ürəyimi gözlərimdən oxuyub,
Günəş kimi işığını saç görüm,
Aç dilimin düyününü, aç görüm.

Demirəm ki, kədərim ol, ahım ol,
Gündüz Günəş, gecələr də mahım ol,
Gəl ki mənim sultanım ol, şahım ol,
Bu sevgini başımızda tac görüm,
Aç dilimin düyününü, aç görüm.

Yad aparar, uzaq qoyma gözündən,
Yanım gedim pərvanətək közündən,
Bir busə al, əminsənsə özündən,
Yanağımda, dodağında maç görüm,
Aç dilimin düyününü, aç görüm.

Ağatlıtək evimizə çapasan,
Məni məndən bir yaz günü qapasan,
Çətin məntək vəfalı yar tapasan,
Eşq oxunu ürəyimə sanc görüm,
Aç dilimin düyününü, aç görüm.

Əlin yanar, əl uzatma qora, bəy,
Saçı dümağ, bəxti isə qara bəy,
Elə salıb Aynur səni tora, bəy,
Oğulsansa, indi məndən qaç görüm,
Aç dilimin düyününü, aç görüm.

*22 iyun 2023-cü il*

## NƏ DİLİM, DİLİM

Bir yemiş istədim yar bostanından,
Nə bütövü gəldi, nə dilim, dilim.
Yara gözəl  baxdım, gözəl danışdım,
Nə gözüm yoruldu, nə dilim, dilim!

Yar gərək könlünü peşkəş edəydi,
Etmədi, bilmədim fikri nədəydi?
Mən yazıq nə dedim könlünə dəydi,
Doğrana bu dilim nə dilim-dilim!

Elə yar istədim mənə bab ola,
Könlü açılmamış bir kitab ola,
Alışıb yanmağa məndə tab ola,
Nə ruhum göynəyə, nə dilim, dilim.

## DESİNLƏR Kİ, BU QIZ DƏLİ OLUBDUR

İstəyirəm ilk baxışdan vurulum,
Desinlər ki, bu qız dəli olubdur.
Bu sevgiyə saat kimi qurulum,
Desinlər ki, bu qız dəli olubdur.

Qönçə olum budağından dərilim,
Kaman olum, oxu üçün gərilim,
Axşam-sabah yollarına sərilim,
Desinlər ki, bu qız dəli olubdur.

Diyar-diyar dolaşmağa qalınca,
Bal tapmazlar şirinlikdə balımca,
Lağa qoyub gülüşsünlər dalımca,
Desinlər ki, bu qız dəli olubdur.

Məhəbbətdə çoxu zəlil olurdu,
Dəliliyə sübut-dəlil olurdu,
Bundan qabaq oğlan dəli olurdu,
Desinlər ki, bu qız dəli olubdur.

Soruşmayın taleyimi, yaşımı,
Atın mənim uzaqlara daşımı,
Dəli kimi alım gedim başımı,
Desinlər ki, bu qız dəli olubdur.

Taleyimə yazılıbdır bu yazı,
Mən Aynuram – torpağımın şən qızı,
Başdan-başa geyinim al qırmızı,
Desinlər ki, bu qız dəli olubdur.

*25 iyun 2023-cü il*

## DURARAM SƏN GƏLƏN YOLLARIN ÜSTDƏ

Bəzənib geyərəm al üstdən alı,
Tökərsən qanını alların üstə.
Görsən Aynur adlı bir qızılgülü,
Qonarsan bülbültək kolların üstə.

Gələrəm, duraram gərdəni mina,
Sənə dərman bulmaz heç İbn Sina,
Eşqindən güc alıb gedərəm, inan,
Bütün "olmaz"ların, "ol"ların üstə.

Sevgi yarasıdır ən dərin yara,
Anında gələrəm çağırsan hara.
Baxmaram borana, şaxtaya, qara,
Duraram sən gələn yolların üstdə.

Elə çağlayır ki, sinəmdə ürək,
Aynuru sən başa düşəsən gərək,
Onu bu dünyanın o başınadək,
Alıb aparasan qolların üstdə.

*7 iyun 2023-cü il*

## MƏN ÇOX XƏTALI GÖZƏLƏM

İşim, peşəm can almaqdır,
Nazlı, ədalı gözələm,
Daima sözlü, söhbətli,
Səsli, sədalı gözələm.

Soyuğum var, alovum var,
Eşq bərəmdə bir ovum var,
Sənin kimi girovum var,
Mən çox xətalı gözələm.

Sözdən xalı toxuyuram,
Gül, bənövşə qoxuyuram,
Ürəyini oxuyuram,
Dərdindən halı gözələm.

Söylə varmı məntək pərin?
Çox düşünmə dərin-dərin,
Çəmənlərin, çiçəklərin,
Güllərin balı gözələm.

Qəlbim, ruhum tam sənədir,
Eşqimdə bu tam sənədir,
Göylərdən butam sənədir,
Sənə butalı gözələm.

Axır gəldin ayağıma,
Tuş olmamış qınağıma.
Tanrı qoyub yanağıma
Sevdiyin xalı, gözələm.

## ELÇİLƏRİ GÖTÜR GƏL

Gözləməkdən gözlərimə qan damıb,
Ay insafsız, həsrətdəyəm, gəl də gəl.
Kəsilmişəm iştahadan, yeməkdən,
Bir dilbilməz möhnətdəyəm, gəl də gəl.

Çoxdur, budey... məndən ötrü ölənlər,
Ürək ancaq səni deyib zarıyır.
Ayaqların qırılmaz ha, tez gəlsən,
Axı burda bir gözəl qız qarıyır.

Yanıb-yanıb kül olacam, gəlməsən,
Odlanırsan ürəyimdə qor kimi.
Elə tutub gözlərimi bu sevgi,
Əlim gəzir əllərini kor kimi.

Axşam-axşam göy üzündə Ay doğub,
Ay deyil ki, Aynurunun baxtıdır.
Sabah səhər elçiləri götür gəl,
Oğlan, artıq "hə" deməyin vaxtıdır.

*21 iyun 2022-ci il*

## DUR, QADASIN AL BUNUN...

Dərdimin əlacıdır,
Həsrəti çox acıdır,
Gah gözümün düşməni,
Gah başımın tacıdır.
Nə yazım buna dair?!
"Bir dəli şeytan deyir,
Dur, qadasın al bunun".

Bir butadır, nədir bu?
Bilir qiymət, qədir bu.
Haçan xətrimə dəysə,
Gəlib səcdə edir bu,
Qarşımda da baş əyir,
"Bir dəli şeytan deyir,
Dur, qadasın al bunun".

Danışıb mətləbə gəl,
Dərmana gəl, həbə gəl.
Ürəyimi oxşayır,
Sanki deyir, təbə gəl,
Qələm götür, yaz şeir,
"Bir dəli şeytan deyir,
Dur, qadasın al bunun".

*23 aprel 2021-ci il*

## GÖZLƏRİM

Gözlərinə qıyqacı
Baxacaqdır gözlərim.
Səni yandıracaqdır,
Yaxacaqdır gözlərim.

Hiss kimi, duyğu kimi,
Çırpınacaq qu kimi.
Durulanıb su kimi
Axacaqdır gözlərim.

Varmı yəni, şübhə-şəkk?!
Gözəllikdə mənəm tək.
Başında ildırımtək
Çaxacaqdır gözlərim.

Öyünmə bu həvəs də
Gedər bircə nəfəsdə.
Səni bir dar qəfəsdə
Sıxacaqdır gözlərim.

Hələ ki sür keyfini,
Üzə vurmam səhvini,
Bir gün səndən heyfini
Çıxacaqdır gözlərim.

*5 sentyabr 2023-cü il*

## ÇATINCA YARA KİMİ

Eşqim üçün gedərəm,
Bilirsən hara kimi?!
Hətta lazım gələrsə,
Hələbdə dara kimi.

Bircə biləydin kaş ki
Sənintək olmaz heç kim.
Ömrü xərclərəm, eşqim,
Pul kimi, para kimi.

Dilin qənd olan gündən,
İşin fənd olan gündən,
Sənə bənd olan gündən,
Qaldım avara kimi.

Ya bu eşqdə edam ol,
Ya könlümdə müdam ol.
Bunu deyir Xudam,  ol,
Yoxdan gəl vara kimi.

Dinləməsən sözümü,
Yumub eşqə gözümü,
Bil, ataram özümü
Sellərə Sara kimi.

Zaman nədir, su ömrü,
Bir nəğməlik qu ömrü.
Gedəcəyəm bu ömrü
Çatınca yara kimi.

## RUHU DA, QƏLBİ DƏ GÖZƏLƏM, OĞLAN

Getməyib ömrümün çiçəkli yazı,
Sanma ki, quru bir xəzələm, oğlan.
İlahi nəqqaşın əlindən çıxan,
İlk eşqin özütək əzələm, oğlan.

Tut məni dördəlli, əlindən salma,
Könül rübabında yad hava çalma,
Özgə baxışlarda ilişib qalma,
Səninçün hamıdan özələm, oğlan.

Nə sözü saxtayam, nə qəlbi daşam,
Sevib-sevilməkdə hamıdan başam,
Sevgimi çinartək düz saxlamışam,
Əyilməmişəm ki, düzələm, oğlan.

Toran gətirməsin, gözlərini sil,
Aynur öz sözünün ağasıdır, bil,
Təkcə bu dünyada zahirən deyil,
Ruhu da, qəlbi də gözələm, oğlan.

*20 may 2023-cü il*

## GİZLƏNPAÇ

Uşaqlıqdan sevirəm
Gizlənpaç oynamağı.
Özümə yuva seçib
Çölü, çəməni, bağı.

Onda – hər axşamüstü
Gün qüruba enəndə,
Ürəyim atlanardı,
Çıxardım evdən mən də.

İstər bahar, yay olsun,
İstər soyuq, şaxta, qar.
Bir evin ətrafında
Cəm olardı uşaqlar.

"Yeddişüşə", "Rezinka",
"Əl üstə kimin əli",
Bir də " Ortadaqaldı",
"Klas-klas",  "Ənzəli.

Səhərdən axşamadək
Olardıq qovan, qaçan,
Özümüz də bilməzdik
Düşüb qaranlıq haçan.

Şirin günlərin onda
Sayı-hesabı çoxdu.
Oynamaqdan savayı
Başqa dərdimiz yoxdu.

Biz bilməzdik doğma, yad,
Elə əzizlənərdik.
Ayağımız tutunca
Qaçardıq, gizlənərdik.

Susuzluqdan hər dəfə
Ciyərimiz bişərdi.
Nə yemək yada düşər,
Nə su yada düşərdi.

Qayğısız günlər idi...
Xəyallara dalardıq.
Xallı kəpənək kimi
Uçub qanad çalardıq.

Hərəmiz bir bağçanın
Çiçəkli yazı idik.
Eh, uşaqlıq, biz səndən
Necə də razı idik.

İndi tez-tez göynəyir
Qəlbim o günlər üçün.
Xatirəyə çevrilən
O səslər, ünlər üçün.

O şən uşaqlığımı
Necə qaytarım geri?
Yenidən yaşayardım
Kaş o xatirələri...

Gizlənpaç oynamışam
Demə, uşaqlıq ilə.
O da qaçıb gizlənib,
Tapa bilmirəm hələ.

*19 yanvar 2024-cü il*

## GÖZLƏ MƏNİ, GƏLƏCƏM

Görəcəksən gəlmişəm
Dayanmışam yanında.
Gəzəcək cərəyantək
Məhəbbətim canında.

Nəfəsimi, ətrimi,
İstimi duyacaqsan.
Canındakı həsrətin
Tozunu yuyacaqsan.

Dözəcəksən nazıma,
Dözəcəksən ədama.
Səni baxışlarımla
Göndərəcəm edama.

Yanacaq alov-alov
Qollarının arası.
Sağalacaq gecələr
Ürəyinin yarası.

Gerçəyə çevriləcək
O şipşirin xəyalın.
Arı kimi içində
Üzəcəksən sən balın.

Gələcəm e... mən sənə
Odlu bir vulkan kimi.
Məhəbbətim könlünə
Axacaq bir qan kimi.

Gələcəm, ay sevgilim,
Bitəcək həsrət sona.
Bürünəcək dünyamız
Qızıl şəfəqli dona.

*13 avqust 2022-ci il*

## ÇİÇƏYİNƏM, APARIB ƏK

Yolun üstdə dayanmışam,
Qismətinəm, götür məni.
Apar, bir görən olmasın,
Bu məkandan itir məni.

Əzizləyib nazımı çək,
Gültək açım ləçək-ləçək.
Çiçəyinəm, aparıb ək,
Ürəyində bitir məni.

İlıq bahar nəfəsiyəm,
Kaman ahı, ney səsiyəm,
İlahinin nəğməsiyəm,
Yazıb sətir-sətir məni.

Bu eşq adlı ocaq sönsə,
Ovudammaz məni kimsə.
Ürəkdən sev, sevirsənsə,
Saf eşqimə xətir məni.

Gəl baş çəkib yoxla hər gün,
Sevib, təzə saxla hər gün,
Tellərimi qoxla hər gün,
San özünə ətir məni.

*30 dekabr 2022-ci il*

## QALIBDIR

Sənə tərəf uzanan
Əlim göydə qalıbdır.
Qulağım nə vaxtdır ki,
Səsdə, küydə qalıbdır.

Sənsən əhlim, əyalım,
Haray çəkim, hay alım.
Ağlım, hissim, xəyalım
Səntək bəydə qalıbdır.

Sənsiz yolum daradı,
Sənsiz günüm qaradı,
Könlümün nəqəratı
Həzin neydə qalıbdır.

Eşq sazına pərdəyəm,
Qəmdəyəm, qəhərdəyəm.
Mən özüm şəhərdəyəm,
Yarım köydə qalıbdır.

Eşq məclisi qursalar,
Sıralanıb dursalar.
"Aynur hanı? " – sorsalar,
Deyin: "Öydə qalıbdır".

## DOĞMA CİLDİNDƏ YADIM

Gözlərini görəndən
Aldanıb gözüm sənə.
Qulağını aç, eşit,
Çoxdur, ey, sözüm sənə.

Sənsən qorxum, təlaşım,
Yan-yörəndə dolaşım.
Gərək yanım-alışım,
Lazımdır közüm sənə?

Könlüm eşqdən çox umur,
Soyuqluğun toxunur.
Baxışımdan oxunur
Yalanım, düzüm sənə.

Dilin susur, nədir ki,
Bu od, bu su, nədir ki,
Qoyun-quzu nədir ki?
Qurbanam özüm sənə!

Doğma cildində yadım,
Yadımdan çıxıb adım,
Ay mənim can cəlladım,
Mən necə dözüm sənə?!

*4 iyul 2022-ci il*

## AY CAN, AY CAN

Eşq havası çalındı,
Oynadım, ay can, ay can.
İliyimə işlədi,
Doymadım, ay can, ay can.

Könlüm ucaldı dağtək,
Canım əridi yağtək,
Qaynadım bir bulaqtək,
Qaynadım, ay can, ay can.

Səsim bir azan kimi,
Oxudum ozan kimi,
Hicranı cəzan kimi
Qıymadım, ay can, ay can.

Çıxdım yüz keşməkeşdən,
Yarıdım dostdan, eşdən,
Gördüm, çıxıbdır eşqdən
Qanadım, ay can, ay can.

Yarı çəkdim sınağa,
Düşməz adı qınağa,
Başqasına baxmağa
Qoymadım, ay can, ay can.

*16 fevral 2022-ci il*

## SƏN OLMAĞA GƏLİRƏM

Bax gələcəm bu axşam
Könlünü ovutmağa.
Bir iynəboyu qalıb,
Gəlib sənə çatmağa.

Bilsən ki, yol üstəyəm,
Gözünə getməz yuxu.
Sənə mesaj yazmışam,
Aç isti-isti oxu.

Demişdim yazı gözlə,
Artıq yazdır, gəlirəm.
Özüm də darıxmışam,
Səbrim azdır, gəlirəm.

Gəlirəm nəfəsimlə
İsidim nəfəsini.
Musiqitək ruhuma
Hopdurmağa səsini.

Gəlirəm ki, oxusun
Baxışımı baxışın.
Gözlərinə həkk edim
Gözlərimin naxışın.

Yamanca kədərliyəm,
Şən olmağa gəlirəm.
Başdan-başa, büsbütün
Sən olmağa gəlirəm.

*30 aprel 2023-cü il*

## SEVDANIN ƏZƏLİYƏM

Mən bir ustad şairin
Qoşması, qəzəliyəm.
Eşqim təzə eşq deyil,
Sevdanın əzəliyəm.

Ruhum min hava çalır,
Qəlbdən-qəlbə yol salır.
Dinləyənlər zövq alır,
Söhbəti məzəliyəm.

Dünya sevənlərindir,
Eşq ümmanım dərindir,
Ləhcəm baldan şirindir,
Şəkinin gözəliyəm.

Bilirsənmi, ay adam,
Həm nazım var, həm ədam.
Mən can alan cəlladam,
"Qılınclı", " nizəli"yəm.

## RUH KİMİ CANINDAYAM

Niyə gileylənirsən?!
Ruh kimi canındayam.
Sənin hər dəqiqəndə,
Vaxtında, anındayam.

Odun könlümü qarsar,
Çıxardar məni Marsa.
Eşqdə nə qanun varsa,
Bil ki, o qanundayam.

Eşqinlə öyünmüşəm,
Qəlbində döyünmüşəm.
Ağappaq geyinmişəm,
Gəlinlik donundayam.

"Yox eşqin dadı" – demə,
"Unut bu adı" – demə,
"Bu qız hardadı?!" – demə,
Adında, sanındayam.

Sonatək gölündəyəm,
Söz kimi dilindəyəm.
Ceyranam, çölündəyəm,
Bax, budur, yanındayam.

*14 fevral 2023-cü il*

## ÜNVANINA YOLLANMIŞAM

Məhəbbətin şərabından
Nuş eyləyib hallanmışam.
Dəli kimi baş götürüb,
Ünvanına yollanmışam.

Çıxdım dərdin çuxasından,
Ürəyim var yuxasından,
Mən bu eşqin yaxasından
İkiəlli sallanmışam.

Kəhərini bəri çöndər,
Keçən günü geri döndər,
Alıb qızıl üzük göndər,
Demişdin ki, pullanmışam.

Nə dağdayam, nə düzdəyəm,
Gül nəfəsdə, gül üzdəyəm,
İki-üç günə sizdəyəm,
Artıq arxı tullanmışam.

Gözəlinəm, göyçəyinəm,
Həqiqətin, gerçəyinəm.
Aynuram, dağ çiçəyinəm,
Sənin üçün ballanmışam.

*2 iyun 2023-cü il*

## HƏKİM

Yanına gəlmişəm əlac qılasan,
Ürək ağrısıdır göynədən məni.
Məqsədin, deyəsən, başqadır, həkim,
Sorğuya çəkirsən gör nədən məni.

Həkimlik sənətin çıxıbdır yaddan,
Zəhmət çək, müqəddəs elminə qatlan,
Mənim xoşum gəlmir şit zarafatdan,
Sən ki tanıyırsan köhnədən məni.

Söndümü peşənə olan həvəsin?
Titrəyir əllərin, dəyişir səsin.
Başqa gözəllərə ağlın getməsin,
Başqa xanımlara tutma tən məni.

Özgə birisinə bağlıyam candan,
Çalış qoruyasan özünü qandan,
Elə qəbuluna girdiyim andan
Tutdu duman məni, tutdu çən məni.

Sözləri incitək reseptə düzmə,
Yazıqsan, bu qədər canını üzmə,
Qaşını oynatma, gözünü süzmə,
Sən ala bilməzsən özümdən məni.

Ayrı mənadadır söhbətin, sözün,
Nədənsə özünə yığışmır gözün,
Belə baxıram ki, xəstəsən özün,
Çətin sağaldasan, həkim, sən məni.

*17 iyul 2022-ci il*

## QAÇARAM

Sən ağlına başqa şeylər gətirib,
Elə sanma bu sevgidə naçaram.
Dillərinin kilidini, ay oğlan,
Bircə dənə təbəssümlə, açaram.

Məhəbbətin istiotu, duzuyam,
Göy çəməndə qumral telli quzuyam,
Mən dünyanın günəş donlu qızıyam,
İşığımı hər tərəfə saçaram.

Aynur üçün gecə-gündüz çəkmə sədd,
Yol taparam, hansı işim getsə bəd,
Bilsəm, yoxdur  Yer üzündə məhəbbət,
Bu dünyadan baş götürüb qaçaram.

*23 noyabr 2022-ci il*

## SƏNİ BAXIŞIMLA ÖLDÜRƏCƏM MƏN

Qıyqacı baxacam gözünə sənin,
Səni baxışımla öldürəcəm mən.
Yalan soyləyəcəm üzünə sənin.
Səni baxışımla öldürəcəm mən.

Mən sənə əzabı çox verəcəm, çox,
Sən məndən həmişə hər bir yerdə qorx,
Tank ilə, top ilə, tüfəng ilə yox,
Səni baxışımla öldürəcəm mən.

Baxma ki, bu sevgim naxış-naxışdır,
Qüdrətim əvvəldən sənə tanışdır,
Qadında ən güclü silah baxışdır,
Səni baxışımla öldürəcəm mən.

Bil ki, bu dünyada heç zaman heç kəs
Cani olduğumu anlaya bilməz.
Əllə öldürməyə əllərim gəlməz,
Səni baxışımla öldürəcəm mən.

Gəl sevən könlümə, gəl qədəm-qədəm,
Məni eşq meyindən daim elə dəm.
Mən sənin ruhuna yaxşı bələdəm,
Səni baxışımla öldürəcəm mən.

Mən Aynur canını alacam sənin,
Gözümlə gözündən çalacam sənin.
Cəlladın mən özüm olacam sənin,
Səni baxışımla öldürəcəm mən.

*10 oktyabr 2022-ci il*

## YAŞMAĞINI TUTMA, DUMAN, NƏRGİZƏ

Cazibəsi saldı məni kəməndə,
Ağlım getdi yenə, aman, nərgizə.
Günəş donlu, Ay camallı pəridir,
Qucağını açdı çəmən nərgizə.

Qoxusunu ilk bahardan alıram,
Görməyəndə xəyalına dalıram,
Hicranında, həsrətində qalıram,
Vurulmuşam mən də yaman nərgizə.

Qar altından boy göstərdi sərvinaz,
Ləçəyini sığalladım, etdi naz,
Bir yamacda görüşmüşdük keçən yaz,
Yetişəydim bir də haman nərgizə.

Sığmır mədhi şeirlərin sətrinə,
Heyran edir görənləri ətrinə,
Sarı donlu Selcan xatun xətrinə,
Yaşmağını tutma, duman, nərgizə.

## ÖLƏRSƏN

Ədalıyam, sən dözməzsən ədama,
Əgər sənə naz eyləsəm, ölərsən!
Yavaş-yavaş öyrədərəm nazıma,
Sonra onu az eyləsəm, ölərsən!

Heyif, gəldin bu sevdanın gecinə...
Əriyərsən baxışımın gücünə,
Durub gendən gözlərinin içinə,
Baxıb sənə göz eyləsəm, ölərsən!

Çox danışma Məcnun, Kərəm adıyla,
Xəyallanma eşqin şirin dadıyla,
Alışmasam həsrətinin oduyla,
Ürəyimi buz eyləsəm, ölərsən!

Qiymətim var öz eşqimdə beş kimi,
İncitmədim, aldatmadım heç kimi,
Bir gün durub sənə olan eşqimi
El içində söz eyləsəm, ölərsən!

İşvəm sənə, ədam sənə bəllidir,
Başım eşqdən havalıdır, yellidir,
Mən Aynuram, hələ nazım əllidir,
Qorx ki, onu yüz eyləsəm, ölərsən!

## SEVMİŞƏM

Səni başqa yerdə yox e...
Qoy deyim, harda sevmişəm.
Məhəbbətin oyununda –
Birinci turda sevmişəm.

Göz yaşımın su səsisən,
Yanağımın busəsisən.
Ürəyimin nəğməsisən,
"Segah"da, " Şur"da sevmişəm.

Könlüm heç bir bəstədə yox,
Quşlar uçan dəstədə yox,
Od tökülən istidə yox,
Boranda, qarda sevmişəm.

Səni dildə, ağızda yox,
Qəbələdə, Oğuzda yox,
Gədəbəydə, Tovuzda yox,
Düz elə burda sevmişəm.

Dönək bala, qəndə, gedək,
Aynur gedir, sən də gedək.
Dur dəstələn, kəndə gedək,
Fərz elə, orda sevmişəm.

*22 avqust 2023-cü il*

## GƏLİRƏM

Ay sevgilim, üzülmə heç,
Sənlə görüşə gəlirəm.
Yaman tutub dəcəlliyim,
Atıla-düşə gəlirəm.

Bir gün odam, bir gün suyam,
Gördüyünəm, elə buyam.
Göy sularda üzən quyam,
Ruhumda nəşə gəlirəm.

Kəsişmişik eyni xətdə,
Mənə dolu bircə bənddəş
Özümü bu məhəbbətdə,
Salmışam işə, gəlirəm.

Duyğularım dərinləşib,
Çeşmə kimi sərinləşib.
Sənin üçün şirinləşib,
Dönüb kişmişə, gəlirəm.

Versələr də lap səs-səsə,
Baxmayacam mən heç kəsə.
Kimsə məndən yalan desə,
Düşmə təşvişə, gəlirəm.

Eşq bir Tanrı, mən bir bəndə,
Bir tor atdın, saldın bəndə.
Bir yol adın çəkiləndə,
Yüz dəfə cuşa gəlirəm.

*4 iyul 2022-ci il*

## GƏL APAR

Sən gəlməsən başqası
Tapar məni, gəl apar.
Şah budağın narıyam,
Qopar məni, gəl apar.

Sadağana bu can var,
Sevgi dolu bu cam var,
Səndən bircə ricam var,
Apar, məni gəl apar.

Min sual var hər günə,
Gör bu qızın ərki nə?!
Al atının tərkinə,
Çapar, məni gəl apar.

Əgər bu yaz geciksən,
Olmaz bu naz, geciksən,
Qüssə, bir az geciksən, –
Qapar məni, gəl apar.

## BUNDAN SƏNƏ NƏ?!

Tutaq ki, dəyişdim həyat tərzimi,
Yaşayıb ölərəm, bundan sənə nə?!
Bu yolu mən salıb özəlləşdirdim,
Gedərəm, gələrəm, bundan sənə nə?!

Dünyanı başına yıxıb gedərəm,
Canımı dişimə sıxıb gedərəm,
Haraya istəsəm, çıxıb gedərəm,
Mən özüm bilərəm, bundan sənə nə?!

Ödənməz ürəyin məndə sələmdə,
Qalarsan ömürlük dərddə, ələmdə.
Səni həyatımdan bircə qələmdə
İstəsəm, silərəm, bundan sənə nə?!

Özüm bildiyimtək sürərəm ömrü,
Çox su aparacaq bu eşqin xəmri,
Səndən almıram ki, həyatda əmri,
Ağlaram, gülərəm, bundan sənə nə?!

Özülsüz qazılıb bu eşqin himi,
Onunçün qırıldı yarıda simi,
Səni meydançada Ronaldo kimi,
Top kimi çilərəm, bundan sənə nə?!

Nə adlar pozulub, nə adlar qalıb,
Burda nə qohumlar, nə yadlar qalıb.
Ömrünə sonuncu saatlar qalıb,
Cəlladam, killerəm, bundan sənə nə?!

*6 iyul 2022-ci il*

## SƏNƏ ELƏ BAXACAM Kİ...

Sənə elə baxacam ki, od tutub
Gilə-gilə əriyəcək vücudun.
"Çıtır-çıtır" yanacaqsan odumda,
Gülə-gülə əriyəcək vücudun.

Atəşim var, alovum var zər kimi,
Əridərəm, mən istəsəm hər kimi!
Əridikcə öz yağını tər kimi
Silə-silə əriyəcək vücudun.

Od tutacaq gözündəki bağça-bağ,
Bax, özün de, haran yanıb, haran sağ.
Sənə elə dağ çəkəcəm, elə dağ,
Çilə-çilə əriyəcək vücudun.

Mən Aynuram, eşq odum var bir qucaq,
Gur çatılıb, sönən deyil bu ocaq,
Baxışımdan əridiyin duyacaq,
Bilə-bilə əriyəcək vücudun.

## GƏLƏCƏM

Bu gün görüş alınmadı,
Gələcəm, sabah gələcəm.
Axıtma göz yaşlarını,
Çəkməginən ah, gələcəm.

Axı bilirsən hər şeyi,
Üzümə vurma heç nəyi.
Bu gün gələ bilməməyi,
Sanma gəl günah, gələcəm.

Gecə-gündüz vüsal gəzən,
Nə etməli?! Olur bəzən,
And içirəm nəyə desən,
Gələcəm, vallah, gələcəm.

Mənə gəlsin dərdin, ahın,
Zərrə qədər yox günahın,
Olacam "Şur", "Cahargah"ın,
Sən oxu "Segah", gələcəm.

Aynurundan bezmə belə,
Yazıq-yazıq gəzmə belə.
Çox özünü üzmə belə,
Olginən gümrah, gələcəm.

*13 oktyabr 2023-cü il*

## MƏNİ SEV, DƏCƏLLƏŞİM

Bir az dəcəlliyim var,
Bir az da fağırlığım.
Amma çəkimdən mənim
Artıqdır ağırlığım.

Olduğumtək sevirsən
Bilirəm ki, sən məni.
Lap çox uşaqlaşıram
Hiss edəndə sevgini.

Dedin ki, güvən mənə,
Dedin: "Mənimlə öyün".
Odlu məhəbbətinlə
Etdin məni ərköyün.

Min-min nəğmə ötərəm
Sənə könül sazımla.
Məni qanadlandırır
Oynamağın nazımla.

Bir az da çox sev məni,
Daha çox gözəlləşim.
Daha çox şıltaqlaşım,
Daha çox dəcəlləşim!

*10 iyun 2022-ci il*

## BİRCƏ DƏFƏ ƏYRİ OTUR, DÜZ DANIŞ

Çox dərindir həsrətimin dəryası,
Gücün varsa, göz yaşında üz, danış.
Etibarı itirəndən, sevgilim,
İnanmıram, yalançısan, yüz danış.

Fərhad kimi qayaları dələrsən,
Yana-yana quzu kimi mələrsən,
Dərddən süfrə açacağam, gələrsən,
Göz yaşını qədəhlərə süz, danış.

Çevirmisən viranəyə gülzarı,
Nə inildə, nə sızılda, nə zarı,
Papağını qabağına qoy, barı
Bircə dəfə əyri otur, düz danış.

Saxlamışam vüqarımı hələ mən,
Çox çəkmişəm hər fitnəndən, felindən,
Uçurtmusan səadəti əlindən,
Lap istəyir ürəyini üz, danış.

Xatirələr otağıma dağıldı,
Aynurdakı külək deyil, ağıldı,
Bura qədər dediklərin nağıldı,
Sözün varsa, adam kimi söz danış.

*20 iyun 2022-ci il*

## HƏR EVDƏ BAYRAM OLSUN

Səməni göyərtmişəm
Çay içdiyim kasamda.
Yanır yaşıl ocaqtək
Budur, yazı masamda.

Ətrafına düzmüşəm
Fındıq, püstə, qoz, badam.
Heyran olur baxanda
Süfrəmizə hər adam.

Qapını döyüb qaçır
Papaq atan uşaqlar.
Pəncərəmin önündə
Puçurlayıb budaqlar.

Çərşənbə axşamıdır,
Qəlbimi coşdurub yaz.
Qonaqlarım gələcək,
Gözləyirəm, kefim saz.

Yaraşıqdır süfrəmə
Şəkərbura, paxlava.
Azca külək əssə də,
Amma gözəldir hava.

Axşamüstü uşaqlar
Tonqal da çatacaqlar.
Göyləri nurlandıran
Fişəng də atacaqlar.

Tonqalın ətrafına
Düzüləcək qonşular.
Gedəcək umu-küsü,
Durulacaq lil sular.

Bayramımız mübarək –
Könlümüz aram olsun.
Tanrıdan arzum budur,
Hər evdə bayram olsun.

*14 mart 2023-cü il*

## ŞEİRDƏN DOĞULUR DİNCLİYİM MƏNİM

Elə yazılmamış şeirlərim var,
Dəyməyib nəfəsi ağ varaqlara.
Elə yazılmamış şeirlərim var,
Sərin bulaqlara, uca dağlara.

Payız buludutək dolanır hələ,
Şeirə dönməyib gözümün yaşı.
Çəkib qəmzəsini, çəkib nazını
Gərək danışdırım ağacı, daşı.

Bəzəyib ömrümü ulduzlar kimi,
Şeirlə doğulub gəncliyim mənim.
Bahar küləyitək canlanır ruhum,
Şeirdən doğulur dincliyim mənim.

Qəlbini duyuram dalğaların da,
Qəlbini duyuram yolun, səkinin.
Mən bir şair qəlbli şirin qızıyam,
Tarixi qədimdən-qədim Şəkinin.

Qızıl damcılarla süzülən Günəş,
Gözümdən doğmağa macal tapmayıb.
Hələ sirli gəlir kainat mənə,
Aynur öz yolundan çaşıb, sapmayıb.

*22 noyabr 2022-ci il*

## MƏN SƏNİN EŞQ HAVALINAM

Mən sənin eşq havalınam,
Dəlinəm, oğlan, dəlinəm.
Dilimdə yox "yox" kəlməsi,
"Bəli"nəm, oğlan, "bəli"nəm.

Ən qiymətli bir zərinəm,
Üzə bilsən, gəl, dərinəm.
Mirvarinəm, gövhərinəm,
Ləlinəm, oğlan, ləlinəm.

Qönçə tutmuş budağınam,
Ev-eşiyin, otağınam.
Pıçıldayan dodağınam,
Dilinəm, oğlan, dilinəm.

De, qəlbinə dəydim haçan?!
Qurban olsun sənə bu can.
Eşq bağında ətir saçan
Gülünəm, oğlan, gülünəm.

Eşqin keçib tamam qana,
Qıyma sevən könlüm yana.
Bu gündən sənin anana
Gəlinəm, oğlan, gəlinəm.

## PAXIL XANIM

Niyə gic-gic aparırsan özünü?
Səyin ölsün, gicin ölsün, ay xanım.
Özünü bic, hamını gic sayırsan?
Biclik edən bicin ölsün, ay xanım.

Divar kimi kərpicləri sökülən,
İlan kimi əlli yerə bükülən,
Paxıllıqdan yanıb-yanıb tökülən,
Qara, kirli için ölsün, ay xanım.

Dürlü-dürlü xəyallara dalıbsan,
Kreditnən nə qalmayıb alıbsan,
Silikonla yaman günə qalıbsan,
Anan ölsün, cicin ölsün, ay xanım.

Pullu kişi görən kimi axırsan,
Guya bizi yandırırsan, yaxırsan,
Niyə mənə əyri-əyri baxırsan?!
Əyrin ölsün, kəcin ölsün, ay xanım.

Qaşlarının hərəsi bir sıldırım,
Görüm düşsün boş təpənə ildırım,
Səhnədəki yekə, əyri baldırın,
Dizin, budun, qıçın ölsün, ay xanım.

Ay sirsifət, ay şəyatin, əcinnə,
Lənət olsun dostluğunun içinə,
Guya bizi almayırsan vecinə,
Görüm elə vecin ölsün, ay xanım.

Aynur deyər: "Dilimdən bir söz axdı,
Elə bil ki yaran üstə duz axdı,
Qarğımıram, bircə balan yazıqdı,
Ərin qalsın, həcin ölsün, ay xanım".

*23 dekabr 2023-cü il*

## KİŞİLƏR

Oğuz toylarının yaraşığıdır
Hər zaman bığları sünbül kişilər.
Körpə uşaq kimi sevimlidirlər
Balaca, bəstəboy, dünbül kişilər.

Düşsən min sınağa, min çətinə, bax,
İnsanın insanlıq qiymətinə bax,
İlahi, şərabın qüdrətinə bax,
Vurur hər sağlıqda bir gül, kişilər.

O qədər içir ki, tir kimi çıxır,
Cibindən yüzlüklər kir kimi çıxır.
Sonuncu badədə şir kimi çıxır,
Birinci badədə bülbül kişilər.

## DÖVLƏT YOL POLİSLƏRİ

Su qalmayıb gözümün ağında, qarasında,
Altı-yeddi radar var qəlbimin yarasında,
Dayanırlar xəlvəti kolların arasında
Dövlət yol polisləri.

Şumlayırlar trasda maşınları xış kimi,
Keçir bahar ömrümüz qorxumuzdan qış kimi,
Üstümüzü kəsirlər alıcı bir quş kimi
Dövlət yol polisləri.

Hərə bir cür girləyir bu dünyada başını,
Əgər onlar olmasa, maşın minər maşını,
Xeyir işə xərcləsin qoy hər ay maaşını
Dövlət yol polisləri.

Gah qürur yerimizdir, gah da ki bəlamızdır,
Hər biri qardaşımız, hər biri balamızdır,
Qanunun keşiyində ucalan qalamızdır
Dövlət yol polisləri.

Əziz musiqiçilər bir "Bəy havası" çalsın,
Bütün məclis əhlinin əli üzündə qalsın,
Bu şeiri yazmışam ki, məni nəzərə alsın
Dövlət yol polisləri.

## KÜSÜŞMÜŞÜK, BARIŞDIR

Ay Şəkinin gözəli,
Dobuda piti gətir.
Zəfəranın bol eylə,
Yayılsın evə ətir.

Gözəldir bu gün hava,
Qoy sevinsin yurd-yuva.
Düz süfrəyə paxlava,
Bamiyə, noğul, fətir.

Gəlsin mürşidim, pirim,
Açsın, qoynuna girim,
Yazım bir məktub verim,
Təcili yara yetir.

Utanıram yaşımdan,
Unutqan yaddaşımdan,
Çıxıb gedir başımdan,
Deyəsən, ağlım itir.

Samovarı alışdır,
Küsüşmüşük, barışdır.
Sevdaları qarışdır,
Məclisi şirin bitir.

*27 iyul 2022-ci il*

## CÖZOO YİYİM

*Şəki şivəsi*

Gəl keçir qoluma qolunu, canım,
Hayindi dur gəl da..., cözoo yiyim.
Çoxdan gözləyirəm yolunu, canım,
Hayindi dur gəl da..., cözoo yiyim.

Noolar, bu eşqə gəl qoyma bir mız,
Nə sən gənc oğlansan, nə mən cavan qız.
Sən orda yalqızsan, mən burda yalqız,
Hayindi dur gəl da..., cözoo yiyim.

Mənəm bu sevdanın qəza-qədəri,
Varmı eşqə sadiq məndən betəri?!
Yaman darıxmışam səndən ötəri,
Hayindi dur gəl da..., cözoo yiyim.

Səndən bir fərmana qol gözləyirəm,
Sevgini bol göndər, bol gözləyirəm.
Bir aydan artıqdır yol gözləyirəm,
Hayindi dur gəl da...,  cözoo yiyim.

Aynuram, fəryaddır, nalədir günüm,
Qohumu, qonşunu dəng edib ünüm.
Sən Allah ləngimə, başaa dönüm,
Hayindi dur gəl da..., cözoo yiyim.

## CANOO YİYİM

*Şəki şivəsi*

Mənim bu yaralı xəstə könlümə
Hər sözün dərmandır, canoo yiyim.
Canımdan əzizsən, can nə şeydir ki,
Can sənə qurbandır, canoo yiyim.

Deyirsən: "İllərim sənsiz keçibdir! "
Mənsiz keçirdiyin iloo yiyim.
İçimdə nədənsə şübhə oyanır,
Yalan demirsən ki, diloo yiyim?!

De, gəlsin nə qədər şirin sözün var,
Bal kimi damlayan sözoo yiyim.
Boş-boş sadalama burun, dodaq, dil,
Bir yolluq denən ki, özoo yiyim.

Məni altdan-altdan yaman süzürsən,
Ay sənin cözoo, qaşoo yiyim.
Hələ uşaqlıqdan əl çəkməmisən,
Mən sənin müdriklik yaşoo yiyim.

Hər zaman ağlında təkcə mən varam,
Sənin o ağıllı başoo yiyim.
Bu o sən yediyin yeməkdən deyil,
Saa demirəm ki, "aşoo" yiyim.

## HA BU YER HAQQI, GÖY HAQQI

*Şəkililərin andı*

Bir dəli eşqə düşmüşəm,
Ha bu Yer haqqı, Göy haqqı.
Gəlmir, bir aydır, küsmüşəm,
Ha bu Yer haqqı, Göy haqqı.

Açma həngamə, sevgilim,
Gəl çıx, biganə sevgilim,
Sənsən yeganə sevgilim,
Ha bu Yer haqqı, Göy haqqı.

Qəlbim boşdur, duyğum yoxdur,
Ərşə çıxıb, yuxum yoxdur,
Bir ölüyəm, ruhum yoxdur,
Ha bu Yer haqqı, Göy haqqı.

Demirəm, bağ-bostan olar,
Eşqimiz bir dastan olar,
Gün gələr, Gülüstan olar,
Ha bu Yer haqqı, Göy haqqı.

Səpələmə od-közünü,
Kişi kimi tut sözünü,
Basıb tökərəm gözünü,
Ha bu Yer haqqı, Göy haqqı.

Qurulub, taxtın hazırdır,
Ağ günə baxtın hazırdır,
Yazmışam, aktın hazırdır,
Ha bu Yer haqqı, Göy haqqı.

"Uçur, dağıt, qur", – deyərlər,
"Yazıqdır, bir dur",  – deyərlər,
Maa da Aynur deyərlər,
Ha bu Yer haqqı, Göy haqqı.

*5 sentyabr 2022-ci il*

## DE DA BƏ...

*Naxçıvan ləhcəsi*

İki kəlmə danışmamış susursan,
Danış, susma, məntək yardan de da bə.
Hər dinəndə ilan kimi çalırsan,
Özün kimi bir şahmardan de da bə.

Səni kədər, məni sevinc güdəcək,
Bu ömür-gün boş-boşuna gedəcək,
Bu dünyanı sevgi xilas edəcək,
Sevgi adlı dövlət-vardan de da bə.

Ağır olur peşmanlığın töhməti,
Yaşatmayaq bu sevgiyə möhnəti,
Uzun çəksin qəlbimizin söhbəti,
Oddan-sudan, buzdan-qardan de da bə.

Şirin dillər çox könüllər alıbdır,
Dərd ömrümdən neçə illər alıbdır,
Sevən daim intizarda qalıbdır,
Qırıq simli susan tardan de da bə.

Doğma oldum, qonaq kimi buyurdun,
Elə bildim, bu sevgimi duyurdun.
Mənim kimi bir Vətənin, bir yurdun
Başındakı bəlalardan de da bə.

Sözü sözün arxasınca düzmə, gəl,
Baxıb-baxıb uzaqlardan süzmə, gəl,
Qurban olum, ürəyimi üzmə gəl,
Könlündəki düz ilqardan de da bə.

Yazılıbdır neçə-neçə şeirlər,
Qapınıza elçi düşsün xeyirlər,
Sizin elə Nəqşicahan deyirlər,
Dadlı-duzlu bu diyardan de da bə.

*9 avqust 2021-ci il*

## QAĞA

*Ağstafa-Tovuz ləhcəsi*

Yanından keçəndə türfə gözəllər,
Genə baxersanmı maraxnan, qağa?!
Ceyrannan, cüyürdən nəsə olormu,
Ova çıxersanmı yaraxnan, qağa?!

Demə ki, day, canda qalmeefdı hal,
Düşməsin könlünə bircə qərif xal,
Saçını, bığını səliqəyə sal,
Bir öydən çıxanda daraxnan, qağa.

Kefini boş yerə pozma bə, dərdiş,
Səni istəmə...nin gözdərinə şiş,
Allahnan, bəndeynən düzəlməyən iş,
Düzəlir qələmnən, varaxnan, qağa.

Yoxdur işimizdə elə bir əngəl,
Dünən mən gəlmişdim, büyün də sən gəl,
Axşama nejədi qurutdu xəngəl
Bir başıxamırlı araxnan, qağa?!

Tanrım qüvvət versin ürəyinizə,
Uca varlığınız enməsin dizə,
Bu şeir Aynurdan töhfədir sizə,
Məclis davam etsin bu ruhnan, qağa.

# TOYUMUZU TEZ ELİYƏY, QUTƏRƏY

*Lənkəran ləhcəsi ilə*

Gəldüy, gördüy qızıvızı bəyəndüy,
Qızə..., toyu biz eliyəy, qutərəy.
Lazımdisə elçi gələy beş dəfə,
Məsələni üz eliyəy, qutərəy.

Elə bil ki yolumuzə it hürüb,
İndiyəcən xeyli zəman itirib,
Çımı balə inistitüt bitirib,
Payiz gecdi, yaz eliyəy, qutərəy.

Boğçəni aç, zibani ver, zəri ver,
Kinə, ordən o üzüyi bəri ver,
Qız atasi, qız anasi, "həri" ver,
İşə keçəy, naz eliyəy, qutərəy.

Ləzzət olur polo çıxsə qazməğə,
Gəlməmişüy qapı-qapı gəzməğə,
Başləginən siyahini yazməğə,
Bu söybəti düz eliyəy, qutərəy.

Vıy nənə, hər söybətimiz üzdədi,
Bir mənə ba...x, bizim oğlən düzdədi.
Əyəğımiz bütün güni sizdədi,
Toyumuzu tez eliyəy, qutərəy.

*7 sentyabr 2023-cü il*

# Əbədidir sən əyləşən taxt, Şuşam

***Cıdır düzü qucağında yazlanır,***
***Bülbüllərin gülüstanda sazlanır,***
***Xarıbülbül bir gəlintək nazlanır,***
***Düşmənləri yandır Şuşam, yax, Şuşam.***

## BAŞ ƏYİRƏM ÖNÜNDƏ BU ADIN QÜRUR İLƏ

*Mustafa Kamak Atatürkə ithaf olunur*

Türkə xain baxanlar daima xar olacaq,
Tanrı Türkə həmişə yar olub, yar olacaq,
Var olduqca bu dünya bu qüdrət var olacaq,
Tarixləşən adımız – sanımızdır Atatürk.

O coşdurdu qanıyla damla-damla selləri,
Aşıb keçdi əzm ilə qan-qadalı illəri,
Ondan alır işığı ulu Turan elləri,
Üfüqlərdə sökülən danımızdır Atatürk.

Onun ayaq izidir zəfərlərə gedən iz,
Bu gün varlığımızçün minnətdarıq ona biz,
Atamıza tükənməz bizim böyük sevgimiz,
Ömürdəki ən şirin anımızdır Atatürk.

Baş əyirəm önündə bu adın qürur ilə,
Belə düşüb qüdrəti milyon ağıza-dilə,
Tarixlərdən bu adı bacarmaz kimsə silə,
Əbədi şöhrətimiz – şanımızdır Atatürk.

Bir sönməyən ocağın alovuyuq, oduyuq,
Oğuz, qıpçaq, qaqauz – bütöv Türkün adıyıq,
Bütün dünya eşitsin, biz onun övladıyıq!
Ürəyimiz, qanımız, canımızdır Atatürk.

## YAŞA BÖYÜK TÜRKİYƏM, YAŞA ŞANLI HİLALIM

*Bayraqlar bayrağı*
*Türkiyə bayrağına ithaf olunur*

Gecənin qaranlığı; susub Yer, Göy, çöl, dəniz,
Xəyallar qanadında yol gedirik yenə biz.
Ulduzlar səpələnmiş masmavi Göy üzünə
narın qumlar sayağı,
Sarsılmaz bir güc ilə dayanmış məbədində
uca Türkün dayağı.
Gecə sönüb qaralmış bir şam kimi qəmlidir,
Həzin titrəyişləri duyulan çiçəklərin
baxışları nəmlidir.
Göyləri seyrangaha çıxmışdır nazlı hilal,
Yox olmuş üzündəki neçə dərd, neçə məlal.
Əriyib könüllərin qarı, buzu, şaxtası,
O üzür səmalarda necə ki dənizlərdə
bir azadlıq yaxtası.
Bir ulduz da qoşulur o hilala bu dəmlər,
Nurlanır addım-addım sübhə gedən qədəmlər.
O, Türkümün yıldızı – o, Türkümün hilalı,
Bir ananın millətə südü kimi halalı.
O, ruhum, o, can gücüm, mənim mənəviyyatım,
Əsrlərlə yol gələn at belində həyatım.
İşıqlanır tarixin solğun qaranlıq üzü,
Al sancağın nurudur bürüyüb çölü, düzü.

Sonsuz, ölçüsüz gücə sahib bir Türk ürəyi,
Zamanın tufanında basılmamış kürəyi.
Budur, doğmuş o hilal, kipriyimdə donur yaş,
Odur hər şeydən uca, odur hər başdan da baş.
Tər və qanla süslənib bu bayraq illər boyu,
Bu bayraq türklüyümün,
                    türklük dastanlarımın
                              igid boyu, ər boyu…
Gör neçə qışlar ötmüş: qarlar, yağışlar ötmüş
                    onun başı üstündən,
Gecənin bir yarısı bunu düşünürəm mən.
Hansı bəla gəlməmiş, söylə, Türkün başına,
Tarix nələr yazmayıb qanlarla yaddaşına?!
Dalğalanır taleyin səadət yelkənitək,
Gözlərimdə sayrışır dayanmadan yüz min rəng.
Ulduzlar incə-incə azadlıqdan söz salır,
Əbədi bir məşəltək Türk bayrağım ucalır.
Zaman onsuz ötüşməz, sellər, sular axmaz heç,
Bu bayrağın önündən daima qürurla keç.
O ki hər bir ürəyin alovudur, közüdür,
Adi bir bayraq deyil, o, zamanın özüdür.
Yaşa böyük Türkiyəm, yaşa şanlı hilalım,
Sənin ucalığınla yoxa çıxıb dərdlərim,
                    yoxa çıxıb məlalım.
Yaşa Azərbaycanın yenilməyən qardaşı,
Doya-doya öpürəm bu torpağı, bu daşı!

## BİR QOLUMUZ TÜRKİYƏDİR,<br>BİR QOLUMUZ AZƏRBAYCAN

Bu dünyada iki qardaş əhdi-peyman bağlamışıq,
Eyni sevinc yaşamışıq, eyni dərdə ağlamışıq,
Dəniz kimi qabarmışıq, sellər kimi çağlamışıq,
Bir qolumuz Türkiyədir, bir qolumuz Azərbaycan,
Qara əllər poza bilməz bu birliyi heç bir zaman.

Əriyibdir könlümüzün çox şükür ki, qarı, buzu,
Birdir indi süfrəmizin həm çörəyi, həm də duzu,
Silinibdir yağıların bu birlikdən izi-tozu,
Çəkilibdir ömrümüzdən, çəkilibdir çiskin, duman,
Qara əllər poza bilməz bu birliyi heç bir zaman.

Qoy var olsun illər boyu vüqarımız – Türkiyəmiz,
Atatürkün yadigarı – qəlbi təmiz, ruhu təmiz,
Çox güclüyük, çox mətinik, qürurluyuq onunla biz,
Könlümüzə o son çarə, o son ümüd, o son güman,
Qara əllər poza bilməz bu birliyi heç bir zaman.

*10 mart 2024-cü il*

## AZƏRBAYCAN

Azərbaycan – Odlar yurdu, ey qədim diyar,
Səninkidir qəlbimdəki bu qürur, vüqar.
Xiyabanlar, prospektlər, bağlar, bağçalar
Göyqurşağı timsalında neçə rəng çalar.
Nağıl kimi bir diyarsan, heç cür doyulmaz,
Qüdrətinlə gülür burda əbədi bir yaz.
Bayrağımız dalğalanır bir səadətlə,
Qulluğunda dayanmışıq tam sədaqətlə.
Kainatın od parçası, dostluq təməli,
İnsanlığa xidmət edir arzun, əməlin.
Yolumuza işıq salır anamız Günəş,
Ürəyində yuva qurub sevgi, od-atəş.
Alqış sənə, doğma yurdum, gözəl diyarım,
Sənsən mənim həm dövlətim, həm də ki varım.
Sən ki varsan nə qorxum var, nə həyəcanım,
Sən nə zaman istərsənsə, qurbandır canım.
Əziz Vətən, qəlbimdəsən əzəmətinlə,
Açım töküm, gör nələr var, qəlbimi dinlə.
Boylanıram tarixlərdən uzaq keçmişə,
Sən zülməti qüdrətinlə yardın həmişə.
Qəlbimdədir uca şanlı böyük heykəlin,
Çiynimizdən çəkilməsin heç zaman əlin.
Azərbaycan – Odlar yurdu, ey qədim diyar,
Səninkidir qəlbimdəki bu qürur, vüqar.
Sənsiz bir gün qəm arınmaz, könül durulmaz,
Sənsiz heç vaxt şadlıq olmaz, məclis qurulmaz.
Mən də sənin Aynurunam, nəğməli, sözlü,
Torpağını sevən qəlbi alovlu, közlü.

*11 may 2023-cü il*

## YANIB QƏTRƏ-QƏTRƏ BƏXTİYAR OLDUN

*Azərbaycanın xalq şairi*
*B.Vahabzadəyə ithaf olunur*

Bir sönməz ilhamla yazıb-yaratdın,
Sözün meydanında ixtiyar oldun.
Ömrünü əritdin millət yolunda,
Sən özün taleyə, bəxtə yar oldun.

Sözün mayalandı doğrudan, düzdən,
İşlədi dərinə, getmədi üzdən,
Dikəldin çinartək soykökümüzdən,
Ruhun var olduqca özün var oldun.

"Birdir Azərbaycan – birdir can!" yazdın,
Yurdumun şəninə çox dastan yazdın,
Ən qorxunc zamanda "Gülüstan" yazdın,
Ən cavan çağında saçı qar oldun.

Yaşatdın Vətənin eşqini təndə,
Ucaldın bayraqtək göylərə sən də,
Şəhid oğullara ağı deyəndə,
Bir gün kaman oldun, bir gün tar oldun.

Haqqın, ədalətin səndin hakimi,
Qaldın tarixlərdə böyük ad kimi,
Sevildin əbədi bir ustad kimi,
Ən gözəl dillərə belə car oldun.

Ellər qarşıladı çiçəklə, güllə,
Zirvəyə apardı qalxdığın pillə,
Bu xalqa yadlardan dəyəndə güllə,
Dözmədin, talandın, tarimar oldun.

Bir bayraq, bir Vətən – bu idi andın,
Vicdanı həmişə Allahın sandın,
"Şam əgər yanmırsa... " – dedin və yandın,
Yanıb qətrə-qətrə Bəxtiyar oldun.

## ADIN DA, ÖZÜN DƏ BƏXTİYAR OLDU

Endin lap dərinə, kökündə qaldın,
Sən özün soy oldun azadlığına.
Ağırdın, öz ağır çəkində qaldın,
Boy verdin, boy oldun azadlığına.

Yüz eşqin şamını sevindirdin sən,
Daşını, damını sevindirdin sən,
Hürr oldun, hamını sevindirdin sən,
Hoyunla hoy oldun azadlığına.

Yanaraq közün də Bəxtiyar oldu,
Aynuram, sözün də Bəxtiyar oldu,
Adın da, özün də Bəxtiyar oldu,
Toy etdin, toy oldun azadlığına.

## TÜRKÜN XİLASKARI – TAYYİB ƏRDOĞAN

*Daim Azərbaycana dəstək olan*
*Türkün böyük oğluna sevgilərlə*

Neçə sərkərdənin, neçə fatehin
Polad qılıncından ələnən oddan,
Atilla, Ər Tonqa, Alp Arslan, Teymur
Qundaq əvəzinə bələnən oddan
Və bir də ilahi, müqəddəs addan,
Qor alıb atəşdən doğulan oğlan,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

Torpağa gömülən cəsur oğullar
Torpağı əbədi oda döndərdi.
Turanı yenidən yaratmaq üçün
Tanrı Yer üzünə səni göndərdi.
Tək sənin dərdindir millətin dərdi,
Dayanma bir saat, dayanma bir an,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

Canında Türk ruhu, əynində kəfən,
Gözünün nurudur Vətəni sevən.
İşıqlı sabaha yol açırsan sən,
Heç kim iradəni sarsıda bilməz,
Müqəddəs and yerin olubdur Vətən.
Səni salamlayır Mete, Çingiz xan,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

Duruşun, yerişin tarixə şandır,
Etdin gəlişinlə mutlu hər kəsi.
Yenilməz gücünlə, qətiyyətinlə
Yaydın Batıyacan zəfər nəğməsi,
Çəkildi qınına PKK-çılar,
Bütün xainlərin kəsildi səsi.
Söküldü zülmətin gözlərində dan,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

Səninlə hər zaman qürur duyuruq,
Vardır Qarabağda öz haqqı-sayın.
Bizi tək qoymadın qanlı savaşda,
Böyük qələbədə vardır öz payın.
Su səpdin yaralı ürəyimizə,
Düşməni tərpətdi Araz harayın,
Aldın bircə sözlə qəlbini nişan,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

Köksündə qaynayır Turan sevdası,
Vardır Türk elinin sənə vəfası,
Sənsən xanlar xanı, paşalar xası.
Qartal duruşunu görən düşmənin
Başlayır gözündə matəmi, yası,
Qurbandır yolunda daima bu can,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

Düşmən sinəsinə ərtək çökərsən,
Gözünü qartaltək ovub tökərsən,
Sən bir tək oğulsan, sən bir tək ərsən.
Bu xalqın, bu elin yolunda hər vaxt
Zəfər bayrağını önə çəkərsən,
Bitər əzmin ilə hər qada, hər qan,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

Ey böyük sərkərdə, böyük xilaskar,
Kişilik, əzəmət xilqətində var.
Elə düşmənlərə bu dünyanı dar,
Bütün dualarım sənədir bu gün,
Səninlə Türk eli duyur iftixar,
Sənə kömək olsun ulu Yaradan,
Türkün xilaskarı – Tayyib Ərdoğan.

## İGİDLİK İMTAHANI

*Azərbaycanın milli qəhrəmanı*
*Şükür Həmidova ithaf olunur*

Bu şanı, şöhrəti özün qazandın,
Sənə halal olsun bu ad-san, Şükür.
Doğma ana yurdun ağır günündə
Verdin igidlikdən imtahan, Şükür.

"Cəngi" havasına dinəndə tellər,
Kükrədin, qanında çağladı sellər,
Düşmən tapdağından qurtuldu ellər,
Aldın yağılardan qana-qan, Şükür.

Göstərdin döyüşdə istedadını,
Daddı torpağımız zəfər dadını,
Qızıl hərflərlə yazdın adını
Vətən tarixinə, qəhrəman Şükür.

Şəklin həkk olunub bir soyuq daşda,
Analar, bacılar boğuldu yaşda,
Yox, sən ölmədin ki, ən son savaşda
Canından Vətənə verdin can, Şükür.

## İBLİSLƏRİN YUVASINI SÖKÜRÜK

Bu nə dərddir, bu nə qəmdir,
Nə gündür çəkirik, Allah.
Çinar boylu oğulları
Torpağa "əkirik", Allah.

Özün qoru bizi bizdən,
Uzaq düşdük yoldan, izdən,
Hər gün bir az içimizdən
Sınırıq, çökürük, Allah.

Titrədirik dağı, daşı,
Kəsəmmirik bu savaşı,
Gözümüzdən qanlı yaşı
Sel kimi tökürük, Allah.

Göyərək göy otun kimi,
Görünək bir sütun kimi,
Ömrümüzü tütün kimi
Kəfənə bükürük, Allah.

Gördük çox şəhid yasını,
Aldıq, amma qisasını.
İblislərin yuvasını
Gör necə sökürük, Allah.

Hamımız bir can olmuşuq,
Vətənə qurban olmuşuq,
Biz Azərbaycan olmuşuq,
Sülh evi tikirik, Allah.

*17 oktyabr 2021-ci il*

## ŞANLI AZƏRBAYCAN ƏSGƏRİNƏ

Durdun keşiyində Ana Vətənin,
Yol alıb ürəkdən-ürəyə getdin.
Hər zaman hər yerdə ağ olsun üzün,
Bu yurdu yağıdan sən azad etdin.

Sənə halal olsun ananın südü,
Sənə halal olsun yediyin çörək.
Ucalıq yaraşır şanlı adına,
Ey əsgər qardaşım, toyunu görək.

Azadlıq adına parlasın bu gün,
Bir bax başın üstdə doğan ülkərə.
Dünən qazandığın o zəfər üçün,
Sənə "sağ ol" deyir Vətən min kərə.

Tarix unudarmı şücaətini?!
Bəllidir hər kəsə qüdrətin sənin.
Bu elin əbədi səadətiyçün
Vulkana çevrildi nifrətin sənin.

## AĞLAYAQ

Biz şəhid qəbrini yox,
Onun özün ağlayaq.
Vətənin səngərində
Qalan izin ağlayaq.

Atəşinə bürünək,
Həm ruhuna görünək,
Torpağında sürünək,
Dizin-dizin, ağlayaq.

Niyə gördü bu yası,
Boynubükük sonası?!
Deyin, şəhid anası
Versin izin, ağlayaq.

Günü ağır həsrətin,
Dərdə cıgır həsrətin,
Bu bəduğur həsrətin
Qıraq dizin, ağlayaq.

Eşitməsin qoy səsin,
Yanıb ağlayan kəsin.
Məzarı diksinməsin,
Həzin-həzin ağlayaq.

## GÖYÇƏ

Min rəngdən yaranıb gözəlliklərin,
Rənginə bərabər rəng hanı, Göyçə?!
Vermərəm dünyanın yüz cənnətinə
Səndə keçirdiyim tək anı, Göyçə.

O ötən illərin qızıl çağısan,
Ağlar gözümüzün qəm ortağısan,
Qərib könlümüzün ləl yatağısan,
Zümrüdün, yaqutun kənkanı, Göyçə.

Aman ayrılığın, aman əlindən,
Xəyalım dolanıb keçər çölündən,
Yuyunub çıxıbsan Göyçə gölündən,
Dünyada sənintək pak hanı, Göyçə?!

Varsan ömrümüzün nağıllarında,
Qalmısan hamının ağıllarında,
Görmüşəm ziyalı oğullarında
Mən sənin işıqlı zəkanı, Göyçə.

Şöhrətin dolanır eli, mahalı,
Titrəyir dinəndə könlümün xalı,
Səndə yaşa dolub Ələsgər, Alı,
Ağır kişilərin məkanı, Göyçə.

# OĞUZ

Sorağın Neolit dövründən gəlir,
Sən ey qoca türkün məskəni Oğuz.
Varsan Ptolemey xəritəsində,
Adından yağılar səksənir, Oğuz.

Başından aşıbdır barın-bəhərin,
Dərindir tarixin, dərin, çox dərin,
Gör nələr danışır abidələrin,
Gəlir, min illərdən səs gəlir: – Oğuz!!!

Dağların bürünüb dumana, çənə,
Sirdir, möcüzədir kurqanlar mənə,
"Qalalar şəhəri" deyirlər sənə,
Vüqarın göylərə yüksəlir, Oğuz.

Səni vəsf etməyim mən axı nədən?!
Ceyranlar düzülüb keçir bərədən,
Xalxaldan, Sincandan, Dəymədərədən
Köhnə xatirələr diksinir, Oğuz.

Gəlir Əyriçayın şirin nəfəsi,
Bir də Daşağılın dəli nərəsi,
Surxayxan qalası, Mixas qülləsi
Səni nişan verir, tək səni, Oğuz.

İnsan unudarmı verdiyi vədi?!
Ruhuma doğmadır Calut məbədi.
Yaşa bu dünyada, yaşa əbədi,
Görüm daim başı dik səni, Oğuz.

Ən böyük ümmansan-dənizsən mənə,
Anamtək doğmasan, əzizsən mənə,
Kərküksən, Dərbəndsən, Təbrizsən mənə,
Etmişəm könlümə həkk səni, Oğuz.

*17 dekabr 2021-ci il*

## BOYNUNA DOLANIR VƏTƏN YOLLARI

Üzündən, gözündən həsrət boylanır,
Düşmən yuvasında itən yolların.
Küləklər zülfünü töküb dağıdır
Üzü Xankəndinə gedən yolların.

Üşütməz ruhunu nə qar, nə boran,
Tanrı nəzərində saxlayır hər an,
Gözəl Ağcabədi, gözəl Əsgəran,
Boynuna dolanır Vətən yolları.

Şükür arzuların üzü bəridir,
Ağrısı könlümün dərdi-səridir,
Füzuli bu yurdun şah əsəridir,
Səpərəm ömrümə bu dən yolları.

## QARAQOYUNLUM

Qədim türk elisən, Oğuz yurdusan,
Dillərdə dastansan, Qaraqoyunlum.
Tarixin ən dərin qatından gəlir,
Uludur bu ad-san, Qaraqoyunlum.

Şöhrətin ucalıb Günəşə, Aya,
Çatar igidlərin çətində haya.
Könlümə işıqdır Alaçıqqaya,
Nə çən, nə dumansan, Qaraqoyunlum.

Azaydıq yenə o cığırda, izdə,
Taleyin şələsi kürəyimizdə.
Gör neçə ildir ki, ürəyimizdə
Arzusan, gümansan, Qaraqoyunlum.

Ruhum nəğmələnib, nəvalanıbdır,
Atım Ağkilsədən havalanıbdır,
Uçub qucağından yuvalanıbdır,
Gör neçə qəhrəman, Qaraqoyunlum.

Qeyrətdən alışan oduq, ocağıq,
Qadadan, bəladan sovuşacağıq,
Gölkəndə, Çaykəndə qovuşacağıq,
Danış, olma susan, Qaraqoyunlum.

Bir də dönəcəyik o yurda, bir də,
Adın süslənəcək neçə şeirdə,
Toylar çalınacaq Əmirxeyirdə,
Haqdır yazı yazan, Qaraqoyunlum.

Yadımdan çıxmayıb Salah bir kərə,
Səndə min hikmət var, ey gözəl dərə,
Aynurun könlümü alıb göylərə
Uçuran qanadsan, Qaraqoyunlum.

## BƏRDƏ

"Bərdə nə gözəldir" – deyib Nizami,
Mən də dayanmışam bu sözün üstə.
Mən ürək qoyaram, könül qoyaram
Hər vaxt bu alovun, bu közün üstə.

Bu gözəl torpağı həmişə anın,
Başına dolanın, oduna yanın,
Qədim paytaxtıdır Azərbaycanın,
Sürünüb gedərəm bu üzüm üstə.

Ülvi şirinlik var Bərdə adında,
Qalıb möhür kimi elin yadında,
Möhkəmdir sözündə, etiqadında,
Salaram yerini, bil, gözüm üstə.

## ƏBƏDİDİR SƏN ƏYLƏŞƏN TAXT, ŞUŞAM

Bahar gəlib, buludunu sərinlət,
Yağış olub ürəyimə yağ, Şuşam.
Ağır qanlı döyüşlərdən çıxmısan,
Çox şükür ki, çox şükür ki, sağ, Şuşam.

Görüşümə sən gəldikcə röyada,
İllər boyu nifrin tökdüm mən yada.
Səndən uca şəhər yoxdur dünyada,
Dörd tərəfi qala Şuşam, dağ Şuşam.

Dolanırsan Natəvanın sözündə,
Qoy qalmasın arzu-kamın gözündə,
Dönüb İsa bulağına özün də
Şırıl-şırıl zümzüməylə ax, Şuşam.

Cıdır düzü qucağında yazlanır,
Bülbüllərin gülüstanda sazlanır,
Xarıbülbül bir gəlintək nazlanır,
Düşmənləri yandır Şuşam, yax, Şuşam.

Bu gözəllik bizi bizdən alası,
"Şuşa qala"m igidlərin qalası,
Fatehlərin tarixlərdə qalası,
Əbədidir sən əyləşən taxt, Şuşam.

Tonqalımız dağ döşündə qalanıb,
Düşmənlərin daş ürəyi talanıb,
İgidlərin qanı ilə sulanıb,
Güllər açıb sinəndəki bağ, Şuşam.

Həsrətimiz köçüb getdi qürbətə,
Qurban olum adındakı qeyrətə,
Gətirmisən hamımızı heyrətə,
Şeir yazır Aynur sənə, bax, Şuşam.

*08 iyun 2022-ci il*

## VƏTƏN

Səninlə birdir mənim,
Əhdim, ilqarım, Vətən.
Düşmənə əyilməyən,
Fəxrim, vüqarım Vətən.

Səndən ötrü azadlıq,
Hər bir şeydən üstündür.
Ürəyimdə ucalan,
Sənin qızıl büstündür.

Sən mənə əcdadımdan,
Ən qiymətli mirassan.
Hər yan qış olsa belə,
Mənim gözümdə yazsan.

Körpə bir uşaq kimi,
Sarılmışam sənə mən.
Hətta canımdan da çox,
Səni sevirəm, Vətən.

Sən həyatın mənası,
Bir könül işığısan.
Dünya xəritəsinin,
Daim yaraşığısan.

Kitabələrin qayım,
Yazıların qədimdir.
Qayaların zirvədə,
Bir ağ saçlı nədimdir.

Yağıya baş əyməyən,
Aslan oğulların var.
Qalibsən hər məqamda,
Şanlı, vüqarlı diyar.

Möhkəm durub igidlər,
Qalanda, səngərində.
Sənə bu sevgimizin,
Kökləri çox dərində.

Heç kəs dağıda bilməz,
Sənin şirin yuxunu.
Qoru vüqarın kimi,
Ataların ruhunu.

## MƏRD QIZIYAM VƏTƏNİMİN

Günəş doğar pəncərəmdən ürəyimə,
Səadətdən, səadətdən söz açaram.
Öz eşqimdə dayanmışam bir dağ kimi,
Sədaqətdən, sədaqətdən söz açaram.

Həsrət gələr, ürəyimi oda bələr,
"Dağ başında ceyran qaçar, cüyür mələr",
Bir quş kimi qanadlanar xatirələr,
Məhəbbətdən, məhəbbətdən söz açaram.

Yaşamaram həyatımı bəshəbəsə,
Yağış yağa, dolu döyə, külək əsə,
Dilim yalan kəlmə deməz, hər bir kəsə
Həqiqətdən, həqiqətdən söz açaram.

Minnətini götürmərəm mən heç kimin,
Nəğməsi var ürəyimdə sarı simin,
Mən Aynuram, mərd qızıyam Vətənimin,
Dəyanətdən, dəyanətdən söz açaram.

## ŞƏKİ

Bir tarixdir hər cığırın, hər daşın,
Tarixlərin yaddaşısan, ay Şəki.
Sən özün də dünya qədər qədimsən,
Bu dünyanın yaşdaşısan, ay Şəki.

Sənə baxsa, düşmən qalar ağlara,
Qovuşubsan gör nə gözəl çağlara.
Sığınıbsan əzəmətli dağlara,
Vətənimin daş-qaşısan, ay Şəki.

Ocağında neçə qəlbin közü var,
Hüseynxanın, Çələbinin özü var.
Hər daşında minlərlə ox izi var,
Sevincimin göz yaşısan, ay Şəki.

Bir incidir Karvansara, Xansaray,
Çırağındır gündüz Günəş, axşam Ay,
Qüdrətini eldən-elə özün yay,
Könüllərin sirdaşısan, ay Şəki.

Bərəkətli, həm də barlı Qafqazın,
O yenilməz, o vüqarlı Qafqazın,
Dədəm kimi başı qarlı Qafqazın,
Ətəyində naxışısan, ay Şəki.

Aynur kimi çoxdur şeir qoşanın,
Nişanına çox oxşardır nişanın,
Əsirlikdən azad olan Şuşanın
Təbriz ilə qardaşısan, ay Şəki.

## RUHUMA DOĞMADIR ÖZÜ ŞƏMKİRİN

Baxdıqca gözümü çəkə bilmirəm,
Heyranam hüsnünə, düzü, Şəmkirin.
Başından əsməsin acı küləklər,
Sönməsin ocağı, közü Şəmkirin.

Ürəyim, bu yurdun qeyrətini çək,
İlahi yaradıb gözəllikdə tək.
Haraya yol alsaq doğma anatək,
Olsun üstümüzdə gözü Şəmkirin.

Ötüb dilə gəldi könlümün simi,
Durubdur Ərənlər qalası kimi,
Azərbaycanımın balası kimi
Ruhuma doğmadır özü Şəmkirin.

Var olsun həmişə öz nübarıyla,
Dadlı nemətiylə, şirin barıyla,
Yenilməz, qeyrətli oğullarıyla
Dillərdə dastandır sözü Şəmkirin.

*2 iyul 2022-ci il*

## ANAM BAKI, ATAM TƏBRİZ, GÖZÜNÜZ AYDIN

Gözün aydın, Azərbaycan, Laçın qayıtdı,
Ordumuzun qüdrətiylə, şücaətiylə.
Sübut etdi igid əsgər ərənliyini
Ulu yurda sevgisiylə, sədaqətiylə.

Qurban getdi laçın kimi igid oğullar
"Uf" demədən bu torpağın hər qarışıyçün.
Bir biləsən necə şaddır, necə bəxtiyar
İgid, ərən oğulların ruhları bu gün.

İllər boyu gözümüzün saraldı kökü,
Gözü yolda qalan yurdlar ağı söylədi.
"Ay Laçın"ı, "can Laçın"ı dilimiz deyil,
Qan ağlayan qəlbimizin dağı söylədi.

Var gücüylə çəkinmədən girdi döyüşə,
Şanlı ordum düşmənlərin kəsdi kökünü.
Şahid oldu bütün dünya bu qətiyyətə,
Şükür olsun Tanrıya ki gördük bu günü.

Al şəfəqdən don geyindi Laçın dağları,
Bayrağımız zirvələrdə qartala döndü.
Bir zamanlar at oynadan yağı düşmənin,
Ordumuzun əzmi ilə çırağı söndü.

Anam Bakı, atam Təbriz, gözünüz aydın,
Çin çıxıbdır gördüyünüz şirin yuxunuz.
Bu savaşa, bu zəfərə, bu günə alqış,
Qalmayıbdır heç bir şeydən daha qorxunuz.

Heç nə artıq əyə bilməz qürur hissimi,
Bu torpaqda düşmənimə neçə qənim var.
Oğulları oğullardan uca dayanan
Alnıaçıq, başıuca bir Vətənim var.

*27 avqust 2023-cü il*

## DƏRDLƏRƏ DƏRMANDIR BALI TOVUZUN

Dillərdə dastandır bəri-bəzəyi,
Göz oxşar yaşılı, alı Tovuzun.
Dağların başında ağ dumandandır
Örpəyi, yaylığı, şalı Tovuzun.

Kök salıb Babəkin izləri üstə,
Yer verib qonağa gözləri üstə,
Düşməni çökdürüb dizləri üstə,
Bu gün çox gözəldir halı Tovuzun.

Çiçəyi, çəməni üzünə gülür,
Kövrəlsən gözünün yaşını silir,
Hər kim bircə qaşıq dadıbsa bilir,
Dərdlərə dərmandır balı Tovuzun.

## GƏDƏBƏY

Könlün nəğmələrlə doludur hələ,
Ötür şirin-şirin sazın, Gədəbəy.
Səni ana kimi sevib-oxşayır,
Hər zaman hər oğlun, qızın, Gədəbəy.

Dağların başında odlu ürəksən,
İnamda, qürurda, vüqarda təksən,
Hayana boylansam çiçək-çiçəksən,
Gözəldir, göyçəkdir yazın, Gədəbəy.

Günəşə boy atan yaşıl zəmisən,
Hər işi düz görüb, düz eləmisən,
Düşmənin başına od ələmisən,
Qələbə çalmısan özün, Gədəbəy.

Burda qılınc çalmış igid Koroğlun,
Tarixə bəllidir çox ərən oğlun,
Heç vaxt qırılmasın qanadın-qolun,
Heç vaxt bükülməsin dizin, Gədəbəy.

Sən şir oylağısan, pələng məskəni,
Dağılıb başının dumanı, çəni,
Aynuram, qızınam, unutma məni,
Üşüsən sözümdə qızın, Gədəbəy.

## QURBAN BAYRAMINIZ MÜBARƏK OLSUN

Hər kəsə dünyada taleyi yardır,
Qurban bayramınız mübarək olsun.
Tanrıya hər kəsin qurbanı vardır,
Qurban bayramınız mübarək olsun.

Qəflət yuxusundan bəşər ayılır,
Qəmli çöhrələrə Günəş yayılır,
Ən gözəl, müqəddəs bir gün sayılır,
Qurban bayramınız mübarək olsun.

Elin şənliyindən, toyundan deyək,
"Şeytan əl götürsün oyundan" – deyək,
Qurban maldan deyək, qoyundan deyək,
Qurban bayramınız mübarək olsun.

Bu ay xoşbəxtdir ki, qurban ayıdır,
Könlümüz elə bil toy sarayıdır,
Aynur öz xalqının qurban payıdır,
Qurban bayramınız mübarək olsun.

*28 iyun 2023-cü il*

## HƏKİM SEYFƏDDİN ƏSƏD

Hər bir dərdə dəvadır
Həkim Seyfəddin Əsəd.
Xəstələrə şəfadır
Həkim Seyfəddin Əsəd.

Qəlbi safdır, durudur,
Elimin qürurudur,
İlahinin nurudur
Həkim Seyfəddin Əsəd.

Dəyir hamıya xeyri,
İşi yox bundan qeyri,
Sevir sənəti, şeri
Həkim Seyfəddin Əsəd.

El-obaya bağlıdır,
İbn Sina ağlıdır,
Azərbaycan oğludur
Həkim Seyfəddin Əsəd.

Qəlbin uca dağ olsun,
Əməllərin bağ olsun,
Daim canın sağ olsun
Həkim Seyfəddin Əsəd.

*26 iyul 2023-cü il*

## AY MƏKKƏM, MƏDİNƏM – MƏNİM QƏLB TACIM

*Azərbaycanın və*
*Özbəkistanın xalq artisti*
*Gülyanaq Məmmədovaya*

Sevinə-sevinə doğur hər səhər
Günəş bu dünyaya gözündən sənin.
Elimin, obamın gözəl qızısan,
Varmı heç xəbərin özündən sənin?!

Oxu, qoy dağılsın hər ağrım, acım,
Ay Məkkəm, Mədinəm – mənim qəlb tacım,
Nə qədər oxusan, doymuruq, bacım,
Bal kimi səsindən, sözündən sənin.

Adın Gülyanaqdır – özün gül yanaq,
Yeridir, səni bir qızılgül sanaq,
Büllur cəh-cəhinlə alışaq, yanaq,
Pay tutaq odundan, közündən sənin.

Könlünün qapısı açıq olmusan,
Mənimçün sən ana, bacı olmusan,
Aynurun başının tacı olmusan,
Öpürəm mübarək üzündən sənin.

*10 iyun 2023-cü il*

## AŞIQ ZÜLFİYYƏ

*Azərbaycanın əməkdar mədəniyyət işçisi*

Çoxuna həyatda oldun həm bacı,
Həm ana əvəzi, aşıq Zülfiyyə.
Gözəl məclislərin başının tacı,
Laylası, nəğməsi, aşıq Zülfiyyə.

Zərif şöləsisən yanar bir şamın,
Bacım, mübarəkdir bu ehtişamın,
Səni dinləyəndə artır adamın,
Yaşamaq həvəsi, aşıq Zülfiyyə.

"Cəngi"də cövlana gəlibdir qanım,
İnan səninlədir ürəyim, canım,
Səni indən belə Azərbaycanım,
Min il də sevəsi, aşıq Zülfiyyə.

Toxudu əllərin eşqin ilməsin,
Qədrini xalqımız necə bilməsin?!
Oğuz ellərindən heç əskilməsin
Sazının nəfəsi, aşıq Zülfiyyə.

Aynur bağlanıbdır, bil sənə candan,
Sazının telində sökülübdür dan,
Bircə təmənnam var uca Tanrıdan,
Qorusun bu səsi, aşıq Zülfiyyə.

# *İÇİNDƏKİLƏR:*

## *Gəlin söhbət edək, ruh adamları*

Salam olsun ..........................................................................5
Hara gedir bu dünya...............................................................6
Qumardı dünya ......................................................................7
Dünya.......................................................................................8
Sözü yuxuya verəndə.............................................................9
Bizim arxamızda dağdı kişilər............................................10
Bu dünyanın məhəbbəti qadındır ........................................11
Mən özüm-özümə yadam, İlahi ..........................................12
Ruh adamları........................................................................13
Mən də pəncərədən baxıb gedirəm.....................................14
İnsan öz qəlbindən asılmalıdır ...........................................15
Dünya sevinc üçün yaradıb məni .......................................16
Ehtiyac...................................................................................17
İşıq da, nəfəs də, həyat da odur...........................................18
Boynubükük arzular ............................................................19
Bu dünyadan hara çıxıb gedək ki........................................20
Kimə ağlayırsan, qadın........................................................21
Uzun gecələri çox ağlamışam. .............................................22
Düşünək.................................................................................24
Aynur da qocaldı... ...............................................................25
Taleyimə minnətdaram.........................................................26
Çölüm şumdur, içim dən.......................................................27
Dünyaya qonağam mən.........................................................28
Üzü dağlara, dağlara ............................................................29
Ürəyimə kənd havası düşübdür...........................................30
Sındırmayın qəlbimi.............................................................32
Ürəyim çərpələngdir .............................................................34

Yanasan, ay dünya, haran gözəldi ........................................35
Bağlı qapı ......................................................................................36
Saxta adamlar ...............................................................................37
Yola ver getsin...............................................................................38
Ey pul ............................................................................................39
Biz rəhməti bu dünyada qazanaq...........................................40
Dostluq ..........................................................................................41
Dostların ........................................................................................42

## *Sevənlərə bir misalam*

Sənə bir məktub yazdım.........................................................45
Bir mən olum, bir də mən.......................................................46
Xətrimə niyə dəydin..................................................................48
Günahkar ikimizik.....................................................................49
Bundan o yana da var ..............................................................52
Olar bir sual verim.....................................................................54
Gizlənib ........................................................................................55
Mənə yalan danışma .................................................................56
Sənli yuxular görüm..................................................................57
Arzuların düzümü......................................................................59
Ürək səni istəyir .........................................................................60
Eh, nə isə.................... ................................................................62
Əlimə sözümün qanı tökülür....................................................63
Yollarına qurban olum, qayıt gəl............................................65
Könlümdə minlərlə qızılgül açır ............................................66
Sevənlərə bir misalam ...............................................................67
Ayrılığın sobasında yanmışam.................................................68
Qəfildən ağzının dadımı qaçdı ................................................69
Gəldiyin yollara qurban olaram ..............................................70
Biz də bir az adam kimi sevinək.............................................71

Sənsiz olmur, e... olmur ....................72
Gəlmədin....................73
Özümə dönməyə güc tapammıram ....................74
Könül dəftərimə adı "Can" düşüb ....................75
Xatirələrin ....................76
Bir də görüşünə gəlməyəcəm mən....................77
Əlləri qoynunda bir qız ağlayır ....................78
Səpim sərçələrə qəlbimi dəntək....................79
Əzəldən bağlıymış baxtı bu eşqin ....................80
Məni məndən gəl apar ....................81
Yazmaq istəyirdim dərdimi Göyə....................82
Oyatma bu şirin yuxudan məni....................83
Yadındamı o görüş... ....................84
Yoxdur suallara bircə cavabın ....................86
Mənə yolsan bir cığırlıq ....................87
Mən səni başqa cür sevə bilmədim ....................88
Ürəyimdə bitən çiçək ....................89
Qaçmaq istəyirəm bəzən özümdən....................90
Bilmədin yurdun məni....................91
Sənə görə, sənə görə, ürəyim ....................92
Arzuların öldü cəmi, soruşma ....................93
Yox, o sevdiyin qız mən olmamışam....................94
Sən özün yaz öz eşqinlə alın yazını ....................95
Hər səni düşünəndə ....................96
Qayıt gəl....................97
Səni bağışlamaq çətindən-çətin ....................98
Sən getdin.... ....................99
Mənə sübut elə əsl sevgini ....................100
Barışa bilmirəm həsrətinlə mən....................101
Mən bir eşq bürcündənəm ....................102

Səninçün gəlmişəm bu dünyaya mən....................................104
Sənin ürəyinə köçən Aynuram ................................................105
Bir damla yaş..........................................................................106
Çalınsın sevginin zəngi...........................................................107
Günlərin bir günü...................................................................108
Adını qəlbimə başda yazmışam .............................................109
Səni gözləyirdim.....................................................................110
Heykəl qoyaq bu sevgiyə .......................................................111
Tənhalıq ..................................................................................112
Başını qoy sinəmə ..................................................................114
Səninəm...................................................................................115
Bəlkə, yaxındadır, bəlkə, uzaqda..........................................116
Yuxumdasan sübhə kimi hər gecə ........................................117
Sevdiyin qadınam mən ..........................................................118
Aynur ancaq sözlərində yaşayır.............................................119
Gözləyirəm mən səni .............................................................120
Mən bir çiçək qadınam...........................................................121
Qəlbin evimdir mənim...........................................................122
Gedim......................................................................................123
Ayrılıq .....................................................................................124
Hardan girdin gecə-gecə yuxuma..........................................125
İstəmirəm bu yuxudan oyanım ..............................................126
Mənim ruh əkizim...................................................................127
Pliz ..........................................................................................128
Dəniz .......................................................................................129
Gətirən olmadı heç sorağını...................................................130
Qoşalaşaq səninlə ...................................................................131
Payız axşamları həsrət gətirir ................................................132
Əzizim......................................................................................133
Eşqdir məni yaşadan...............................................................134

Ayrılıq ............................................................ 135
Bacara bilsəydim ürəyimlə mən ............................................................ 136
Yəqin ki, heç sən də unutmamısan ............................................................ 137
Ömrüm burulğandan axına düşüb ............................................................ 138
Adın nəğmə olub dodaqlarıma ............................................................ 139
Xəzərin sahilində ............................................................ 140
Yuxuda yetirəm muradıma mən ............................................................ 141
Sən necə darıxdın ............................................................ 142
Küləklər saçımda daraq gəzdirir ............................................................ 143
Mənim ürəyimin günahı nədir ............................................................ 144
Dərdlə qoşadır selfim ............................................................ 145
Bahar havasına köklənib könül ............................................................ 146
Sənin keşiyində durur ürəyim ............................................................ 147
Belə sevirəm səni ............................................................ 148
Bu sənin yalan eşqin ............................................................ 149
Sənə qurban olaram ............................................................ 150
Yox daha gülüzlü Aynurun sənin ............................................................ 152
Geri qaytaraq ............................................................ 153
Mən sənin sevdiyin "Sarı gəlin"əm ............................................................ 154
Sevdim səni ............................................................ 155
Əgər sən olmasan ............................................................ 156
Bu gecə o qədər rahat yatmışam ............................................................ 157
Dayanmışdıq sahildə ............................................................ 158
Mənə yaz ............................................................ 159
Məndə bir qız ağlayır ............................................................ 160
Bir xəstə can içindəyəm ............................................................ 161
Unut ............................................................ 162
Yadına salıram ötən günləri ............................................................ 163
Saattək qurdum səni ............................................................ 164
Görüş yerimizə "əlvida" dedim ............................................................ 165

Həyat bir sual kimi ....................................................166
Sən ömür sərgimin şah əsərisən ....................................................168
Məhbus bir qızıyam mən bu sevginin ....................................................169
Mənim ehtiyacım tək elə sənsən....................................................170
Qadınam ....................................................171
Mən təkcə səni sevdim....................................................172
Sən mənim canımsan, mən sənin canın....................................................174
Narahatlıq....................................................175
Həsrət ....................................................176
De... ....................................................177
Səni ürəyimdə daşıyacam mən....................................................178
Sevgiyə bələnib bu səhər dəniz ....................................................179
Ürəyimi bölə biləm....................................................180
Adına namələr var....................................................181
Apar məni uzaqlara....................................................182
Ürəyim dənizlədir ....................................................183
Sağ yanım divardır, sol yanım qəfəs....................................................185
İnana bilmirəm mən....................................................186
Uçub gələrəm ....................................................187
Mənim nəfəsimlə qabarsın köksün ....................................................188
Küsmərəm....................................................189
Durnalar cənuba uçmamış qayıt ....................................................190
Dilində ən şirin sözə dönürəm ....................................................191
Bölmüşdüm səninlə tən ürəyimi ....................................................192
Vaxtında gəlsəydin....................................................193
Unutmusan....................................................194
Xatirələr adasına gedirəm ....................................................195
Ürəyim ....................................................196
Təkcə mənim üçün ....................................................197
Xoşbəxt qadın ....................................................198

Gələcəm....................................................................................199
Daha bu eşq ilə bir də üzülmə .................................................200
Məhəbbətə layiqəm ................................................................201
Hər gecə mənimçün bir ulduz yanır.......................................202
Soruş ......................................................................................203
Sevinə-sevinə sevmişəm səni.................................................204
Uca-uca apar məni..................................................................205
Xoş gəlib səfa gətirdi ..............................................................206

## *O dəlinin biri sənsən, biri mən*

Salamlarım var .......................................................................209
Gəl sənə quzu kəsim ...............................................................210
Mən ölmüş ..............................................................................211
O dəlinin biri sənsən, biri mən ..............................................212
Dəli kimi.................................................................................213
Unudasan................................................................................214
Mən sənin ruhunam ...............................................................215
Bu qız səni öldürəcək, biləsən.................................................216
Bir dəli şeytan deyir... ............................................................217
Gəzdir əl ürəyimə ...................................................................218
Bizdən bizə kim düşə ..............................................................220
Ağuşunda gizlənim ................................................................221
Sevginin ünvanıyam ..............................................................222
Özünü qoyubsan dağın başına ...............................................223
Sən düşmüsən püşkümə..........................................................224
Sənə gələn mənə gəlsin..........................................................225
Bayram hədiyyəsi ..................................................................226
Səni verənə qurban.................................................................227
Aç dilimin düyününü, aç görüm ...........................................228
Nə dilim, dilim........................................................................229

Desinlər ki, bu qız dəli olubdur ....................230
Duraram sən gələn yolların üstdə ....................231
Mən çox xətalı gözələm ....................232
Elçiləri götür gəl....................233
Dur, qadasın al bunun... ....................234
Gözlərim ....................235
Çatınca yara kimi....................236
Ruhu da, qəlbi də gözələm, oğlan....................237
Gizlənpaç ....................238
Gözlə məni, gələcəm ....................240
Çiçəyinəm, aparıb ək....................242
Qalıbdır ....................243
Əzab ver, dözüm sənə....................244
Ay can, ay can ....................245
Sən olmağa gəlirəm ....................246
Sevdanın əzəliyəm....................247
Ruh kimi canındayam....................248
Ünvanına yollanmışam....................249
Həkim....................250
Qaçaram ....................251
Səni baxışımla öldürəcəm mən....................252
Yaşmağını tutma, duman, nərgizə....................253
Ölərsən ....................254
Sevmişəm ....................255
Gəlirəm....................256
Gəl apar ....................257
Bundan sənə nə ....................258
Sənə elə baxacam ki....................259
Gələcəm....................260
Məni sev, dəcəlləşim ....................261

Bircə dəfə əyri otur, düz danış....................262
Elə darıxmışam ki....................263
Hər evdə bayram olsun....................264
Şeirdən doğulur dincliyim mənim....................266
Mən sənin eşq havalınam....................267
Paxıl xanım....................268
Kişilər....................269
Dövlət yol polisləri....................270
Küsüşmüşük, barışdır....................271
Cözoo yiyim....................272
Canoo yiyim....................273
Ha bu Yer haqqı, Göy haqqı....................274
De da bə....................275
Qağa....................277
Toyumuzu tez eliyəy, qutərəy....................278

## *Əbədidir sən əyləşən taxt, Şuşam*

Baş əyirəm önündə bu adın qürur ilə....................281
Yaşa böyük Türkiyəm, yaşa şanlı hilalım....................282
Bir qolumuz Türkiyədir, bir qolumuz Azərbaycan....................284
Azərbaycan....................285
Yanıb qətrə-qətrə Bəxtiyar oldun....................286
Adın da, özün də Bəxtiyar oldu....................287
Türkün xilaskarı – Tayyib Ərdoğan....................288
İgidlik imtahanı....................291
İblislərin yuvasını sökürük....................292
Şanlı Azərbaycan əsgərinə....................293
Ağlayaq....................294
Göyçə....................295
Oğuz....................296

Boynuna dolanır Vətən yolları................................................297
Qaraqoyunlum.........................................................................298
Bərdə.......................................................................................299
Əbədidir sən əyləşən taxt, Şuşam ..........................................300
Vətən.......................................................................................301
Mərd qızıyam Vətənimin .......................................................303
Şəki.........................................................................................304
Ruhuma doğmadır özü Şəmkirin...........................................305
Anam Bakı, atam Təbriz, gözünüz aydın...............................306
Dərdlərə dərmandır balı Tovuzun.........................................307
Gədəbəy .................................................................................308
Qurban bayramınız mübarək olsun.......................................309
Həkim Seyfəddin Əsəd...........................................................310
Ay Məkkəm, Mədinəm – mənim qəlb tacım .........................311
Aşıq Zülfiyyə.........................................................................312

**AYNUR QAFARLI**

# MƏN BİR EŞQ BÜRCÜNDƏNƏM

**qafarli1976@mail.ru**
**instaqram: qafarli.a**
**Facebook: Aynur Qafarlı**



## AYNUR QAFARLI

Şəki şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin bakalavr və magistr pillələrini fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 15.11.2022-ci il tarixli qərarı ilə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir. Hazırda ADPU-da elmi işçi vəzifəsində çalışır.

50-yə qədər elmi məqalə, bir dərs vəsaiti ("Azərbaycan dilinin tədrisi metodikasına dair istinad materialları", Bakı - 2009), iki şeir kitabının ("Mən Tanrıma sevdalıyam", Bakı - 2019 və "Dənizdir, günəşdir, nəğmədir, mənəm", Bakı - 2021) müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

"Mən bir eşq bürcündənəm" kitabı A.Qafarlının oxucularla üçüncü görüşüdür.

MƏN BİR EŞQ BÜRCÜNDƏNƏM

AYNUR QAFARLI

INTERNATIONAL PUBLISHING
SEM
HOUSE